# QARABAĞ AZƏRBAYCANDIR!


RƏSMİ DÖVLƏT QƏZETİ



# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 199 (8515) ÇƏRŞƏNBƏ, 30 sentyabr 2020-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az




# İLHAM ƏLİYEV "İRƏLİ" ƏMRİ VERDİ!

## Azərbaycan Ordusu müqəddəs missiyasının icrasına başladı

### ƏSİR KƏNDLƏR, XARABA YURDLAR BİZİ ÇAĞIRIR

**Səbrin hüdudu olur!**
**İnsan dözümü də sərhədsiz deyil!**

*Aydın məsələdir ki, torpağı işğalda olanlar düşmənin "sülhə gəlmək insafını" sonsuzadək gözləyə bilməzlər!*

*ATƏT-in Minsk qrupunun on illərlə davam edən mənasız səfərlərini, səmərəsiz danışıqlarını, həmsədr dövlətlərinin heç nə ifadə etməyən standart bəyanatlarını çox gördük, eşitdik.*

Torpaqların sülh yolu ilə azad ediləcəyinə ümidimizi itirsək də, yenə də dünyada ədalətin mövcudluğuna, beynəlxalq qurum və təşkilatların, nəhayət, ikili standartlardan əl çəkəcəyinə inanmaq, bəlkə də özümüzü inandırmaq istədik!

Hər dəfə erməni tərəfinin şıltaqlığını, sülh danışıqlarından nümayişkaranə, ərköyüncəsinə yayındığını görəndə, nəhayət, onlara sanksiya tətbiq ediləcəyinə, "kreativ", "predmetli", "səmərə verən" danışıqların başlanması üçün ATƏT aradüzəldənlərinin insafa gələcəyinə bel bağlamağa çalışdıq!

### HEYHAT!!!

**Azərbaycanın əzəli torpaqları olan Dağlıq Qarabağı və yeddi rayonu işğal edən Ermənistana bircə dəfə də "işğalçısan" deyən olmadı!**

**İşğalçı Ermənistanla işğala məruz qalan Azərbaycana fərq qoyulmadı, əksinə, hər dəfə aralarına bərabərlik işarəsi yazmağa çalışdılar və yazdılar!**

*Müxtəlif adlar və bəhanələrlə yardımlar göstərdilər!*

*Çox halda gizli, yarıgizli, yaxud elə aşkar, birbaşa, pullu, pulsuz silahlandırdılar!*

*Ermənistanın işğal altındakı torpaqları özününküləşdirməsinə, məskunlaşdırmasına, Azərbaycana məxsus təbii sərvətləri çapıb-talamasına, həyasızcasına Azərbaycan tərəfinə meydan oxumasına rəvac verdilər, özlərini keyliyə və bilməzliyə qoyaraq gözlərini və qulaqlarını yumdular!*

*Ardı 6-cı səh.*

## Ermənistan ordusu Azərbaycan torpaqlarında olmamalıdır

Sentyabrın 29-da Almaniya Kansleri Angela Merkel Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə telefonla zəng edib.



Angela Merkel Ermənistan-Azərbaycan təmas xəttində silahlı qarşıdurmanın baş verməsi ilə bağlı ölkəsinin narahatlığını ifadə edib və hadisələrin gedişi ilə maraqlanıb.

*Ardı 3-cü səh.*

## Ermənistan 30 ilə yaxın müddətdə Azərbaycan ərazisini işğalda saxlamaqla beynəlxalq hüququ kobud şəkildə pozub

### Prezident İlham Əliyev Paşinyanı canlı yayımda bir daha ifşa etdi

Sentyabrın 29-da "Rossiya-1" telekanalında yayımlanan "60 dəqiqə" proqramında Azərbaycan-Ermənistan təmas xəttində baş verən son hadisələrə həsr olunan veriliş efirə gedib.

AZƏRTAC xəbər verir ki, verilişdə Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistanın baş naziri Nikol Paşinyan aparıcıların suallarını cavablandırıblar.

Verilişin aparıcıları birinci olaraq sualları Azərbaycan Prezidenti İlham Əliyevə ünvanlayıblar.

**Aparıcı:** *Cənab Prezident, sağ olun ki, bu müsahibəni verməyə razılaşmısınız. İndi birbaşa cəbhədə nələr baş verir, artıq aviasiyadan istifadə edilməsi barədə məlumat alınır.*

**Prezident İlham ƏLİYEV:** Cəbhədə vəziyyət gərgindir. Ermənilərin sentyabrın 27-də səhər başladıqları hərbi təxribat nəticəsində Azərbaycanın yaşayış məntəqələri və bizim döyüş mövqelərimiz şiddətli artilleriya atəşinə məruz qalıb. Bu təcavüz nəticəsində Azərbaycanın 11 dinc sakini, o cümlədən 2 uşaq həlak olub, hərbi qulluqçular arasında da həlak olanlar var. Biz təcavüzkara adekvat cavab verməyə və beləliklə, öz xalqımızı, öz adamlarımızı və torpağımızı müdafiə etməyə məcbur idik. Beləliklə, artıq üçüncü sutkadır ki, şiddətli döyüşlər gedir, bu döyüşlər nəticəsində Azərbaycan Ordusu bir sıra yaşayış məntəqələrini işğaldan azad edib, həmçinin müxtəlif istiqamətlərdə strateji yüksəklikləri tutub. Bu gün vəziyyət elədir ki, fəal döyüş əməliyyatları aparılır.

**Aparıcı:** İlham Heydər oğlu, xahiş edirəm, Türkiyənin rolunu izah edin. Ankara Prezidentin və Xarici İşlər nazirinin şəxsində rəsmən bəyan edib ki, döyüş meydanında Sizə kömək edəcək.

**Prezident İlham ƏLİYEV:** Hesab edirəm ki, Türkiyənin rolu regionda sabitləşdirici xarakter daşıyır. Türkiyə bizə qardaş ölkə və bizim müttəfiqimizdir. Ermənistanın Azərbaycana hücum etməsini dünya ictimaiyyətinin bildiyi ilk saatdan etibarən Türkiyə dövlət başçısı və digər rəhbərlər səviyyəsində birmənalı olaraq Azərbaycanı dəstəklədiyini, beynəlxalq hüququ dəstəklədiyini bildirib. Ona görə ki, Ermənistan 30 ilə yaxın müddətdə Azərbaycan ərazisini işğalda saxlamaqla beynəlxalq hüququ kobud şəkildə pozur. Türkiyənin rolu, əslində, məhz bundan ibarətdir, başqa heç bir rolu yoxdur. Türkiyə bizə mənəvi dəstək göstərir və biz Türkiyə rəhbərliyinə, Türkiyə Prezidentinə və türk xalqına bizimlə həmrəy olduğuna və bizi dəstəklədiklərinə görə təşəkkür edirik.

*Ardı 2-ci səh.*

## Pakistan həmişə Azərbaycanın yanında olub



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 29-da Pakistan İslam Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Bilal Hayenin etimadnaməsini qəbul edib.

AZƏRTAC xəbər verir ki, səfir etimadnaməsini Prezident İlham Əliyevə təqdim etdi.

Sonra Azərbaycan Prezidenti İlham Əliyev səfirlə söhbət etdi.

Dövlət başçısını salamlayan səfir **Bilal HAYE** dedi:

- Zati-aliləri cənab Prezident, mən Sizə Pakistanın Prezidenti və Baş Nazirinin salamlarını çatdırıram. Qardaş Azərbaycan xalqının Pakistan xalqı üçün xüsusi yeri var. Sizin də bildiyiniz kimi, Pakistan qardaş Azərbaycan xalqını Dağlıq Qarabağ məsələsində həmişə dəstəkləmişdir. Bizim qəlbimiz Azərbaycan xalqı ilədir. Cənab Prezident, rəhbərliyimiz tərəfindən mənə Azərbaycanla iqtisadi əməkdaşlığın dərinləşməsi, müdafiə sahəsində münasibətlərin gücləndirilməsi və iki ölkə xalqlarının daha da yaxınlaşdırılması istiqamətində çalışmaq tapşırılmışdır. Sizi əmin edirəm ki, bu vəzifələrin yerinə yetirilməsi üçün əlimdən gələni edəcəyəm. Təşəkkür edirəm.

*Ardı 2-ci səh.*

## Mehriban ƏLİYEVA: "Qoy Uca Tanrı hər bir azərbaycanlıya müqəddəs Qarabağ torpağını öpməyi nəsib etsin!"



"Azərbaycan dövləti heç vaxt başqasının torpaqlarına iddialı olmayıb, heç zaman insanlığa qarşı cinayət törətməyib. Azərbaycan Ordusu başqa dövlətin torpaqlarına ayaq basmayıb, o, doğma torpağını qoruyur və onun uğrunda döyüşür!"

AZƏRTAC xəbər verir ki, bu fikir Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın rəsmi "Instagram" səhifəsindəki paylaşımında yer alıb.

Paylaşımda daha sonra deyilir: "Ermənistanın növbəti silahlı təxribatına cavab verildi! Azərbaycan Ordusu öz Vətənini müdafiə edərək uğurlu əks-hücum əməliyyatı keçirir və Azərbaycanın işğal altında olan ərazilərini azad edir.

Azərbaycan dövlətinə və xalqına dəstək olaraq öz prinsipial və ədalətli mövqeyini nümayiş etdirən bütün insanlara, təşkilatlara və dövlətlərə dərin təşəkkürümü bildirirəm. İlk növbədə, qardaş Türkiyə xalqına və şəxsən Prezident Rəcəb Tayyib Ərdoğana minnətdaram. Onların həmrəyliyi və mənəvi dəstəyi bu gün hər bir azərbaycanlıya qürur hissi yaşadır.

Azərbaycanın bütün əsgərlərinin, zabitlərinin həyatı və sağlamlığı üçün dua edirəm!

Bu gün biz azərbaycanlılar niyyətimizlə, hərəkət və dualarımızla misli görülməmiş birlik göstəririk. Ulu Tanrı Azərbaycan xalqına onun müqəddəs mübarizəsində yar olsun!

Qoy Uca Tanrı hər bir azərbaycanlıya müqəddəs Qarabağ torpağını öpməyi nəsib etsin!

Allah şəhidlərimizə rəhmət etsin! Qəbirləri nurla dolsun!"

## Son 15 ildə Azərbaycan 120-yə yaxın ölkəyə maliyyə və humanitar yardımı göstərmişdir

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 29-da "COVID-19 dövrü və sonrakı dönəmdə Dayanıqlı İnkişaf Məqsədlərinin 2030-cu il Gündəliyinin maliyyələşdirilməsi" mövzusunda dövlət və hökumət başçılarının toplantısında videoformatda çıxış edib.

AZƏRTAC xəbər verir ki, dövlət başçısının çıxışı 2020-ci il 25 sentyabr tarixdə çəkilib.

### Prezident İlham Əliyevin çıxışı

Cənab Baş katib.

Hörmətli dövlət və hökumət başçıları.

Azərbaycan "Dayanıqlı İnkişaf Məqsədləri"nin icrasına mühüm əhəmiyyət verir.

Biz 2016-cı ildə əsas vəzifəsi milli prioritetlərin müəyyən edilməsindən, müxtəlif dövlət proqram və strategiyalarının "Dayanıqlı İnkişaf Məqsədləri" ilə uzlaşdırılmasından ibarət olan Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurası təsis etmişik.

*Ardı 3-cü səh.*

## Haqq savaşı

### Bu gün paytaxtımızda dalğalanan bayraqlar sabah Şuşa qalasından qələbə müjdəsini verəcək



*Qarşı yatan qara dağı - yaylağım,
Düzənləri, ormanları oylağım.
Əyilməyən çinarları - bayrağım -
Vətən!*

İllərdir həsrətində olduğumuz bir şad xəbər ildırım sürəti ilə yayıldı yurdumuza, elimizə, obamıza...

Bu xəbər hər bir azərbaycanlının ürəyinin səsi, bir qərinəlik vətən həsrətinin artıq sona çatacağının sevinc kükrəyişi idi...

Ali Baş Komandan İlham Əliyevin başçılığı altında şanlı Azərbaycan Ordusunun ana vətənimiz Qarabağda zəfər nərəsi çəkdiyinin müjdəsi idi...

*Ardı 10-cu səh.*

# Ermənistan 30 ilə yaxın müddətdə Azərbaycan ərazisini işğalda saxlamaqla beynəlxalq hüququ kobud şəkildə pozub

## Prezident İlham Əliyev Paşinyanı canlı yayımda bir daha ifşa etdi

*Əvvəli 1-ci səh.*

Guya Türkiyənin münaqişə tərəfi kimi iştirak etməsi barədə erməni tərəfin yaydığı bütün şayiələr təxribat xarakteri daşıyır, indiki dildə desək bu, feyk-nyusdur.

Türkiyənin münaqişədə iştirakı barədə heç bir sübut yoxdur və buna zərurət yoxdur. Azərbaycan Ordusu öz xalqının və öz ərazisinin müdafiəsini təmin etmək üçün kifayət qədər hazırlıqlıdır.

**Aparıcı:** *İlham Heydər oğlu, beləliklə, Siz belə bir informasiyanı təsdiq etmirsiniz, üstəlik onu təkzib edirsiniz ki, bir saat bundan əvvəl Türkiyə Hərbi Hava Qüvvələri Ermənistan Hərbi Hava Qüvvələrinə məxsus təyyarəni vurub. Söhbət F-16 və SU-25 təyyarələrindən gedir.*

**Prezident İlham ƏLİYEV:** Bizim bu barədə məlumatımız yoxdur. Lap yaxın vaxtda mənə məruzə ediblər ki, informasiya məkanında belə bir xəbər yayılıb. O, heç nə ilə təsdiq edilməyib. Türkiyə Hərbi Hava Qüvvələrinin F-16 təyyarələri döyüş əməliyyatlarında heç bir şəkildə iştirak etmir. Bilirsiniz ki, bu gün müasir texnologiyaları nəzərə alsaq, nəyisə gizlətmək çox çətindir. Çünki obyektiv müşahidə formaları var, peyk müşahidələri var və ona görə də bunun növbəti təxribat olmasını yoxlamaq çox asandır. Erməni tərəfin bu cür yalan xəbərlər yaratmaqda məqsədi bizə aydındır. Əvvəla, öz ərazi bütövlüyünün bərpası vəzifəsini hazırda şərəflə yerinə yetirən Azərbaycan Ordusunun döyüş qabiliyyətini süni şəkildə azaltmaq, həmçinin belə təsəvvür yaratmaq ki, münaqişə genişlənir, ona üçüncü ölkələr qoşulur və beləliklə, öz təxribatına haqq qazandırmaq üçün mümkün qədər çox ölkə cəlb etməyə çalışmaq. Buna görə sizə məsuliyyətlə bəyan edirəm ki, Türkiyə münaqişə tərəfi deyil, münaqişədə heç bir şəkildə iştirak etmir və buna zərurət yoxdur.

**Aparıcı:** *İlham Heydər oğlu, Sizin ölkəniz Ermənistan tərəfindən bir neçə rayonun azad edilməsini nəzərdə tutan Kazan formuluna və ya hər hansı başqa formula tərəf meyil etməyə hazırdırmı? Prinsip etibarilə indi nə etmək olar? Otuz il ərzində Qarabağ münaqişəsinin gah alovlanması, gah da közərməsi şəraitində necə dönüş etməli? Nə etməli?*

**Prezident İlham ƏLİYEV:** Bilirsiniz, Azərbaycan danışıqlarda həmişə konstruktivlik nümayiş etdirib. Vasitəçilik missiyası üçün cavabdeh olan Minsk qrupunun həmsədrləri də bunu təsdiq edə bilərlər. O cümlədən son iki ildə mən dəfələrlə və başqa məsul şəxslər səviyyəsində bəyan etmişik ki, biz illər boyu işlənib hazırlanmış, Minsk qrupunun və onun həmsədrlərinin danışıqlar prosesi üçün əsas hesab etdikləri nizamlama prinsiplərinə sadiqik. Üstəlik, son iki ildə və bundan əvvəl də dəfələrlə bəyan etmişik ki, biz danışıqların formatına da sadiqik. Danışıqlar Ermənistan ilə Azərbaycan arasında aparılır. Münaqişənin yalnız iki tərəfi var. Bəzən münaqişədən söhbət gedəndə bütün tərəflər haqqında danışırlar. Bu, düzgün anlayış deyil. Bütün tərəflər yoxdur, yalnız iki tərəf var - Ermənistan və Azərbaycan. Lakin son illər ərzində, Ermənistandakı indiki hakimiyyətin törətdiyi Soros çevrilişindən sonra nələr baş verib? Ermənistanın baş naziri açıq-aşkar bəyan edir ki, "Qarabağ Ermənistandır və nöqtə". Belə olan halda hansı danışıqlar prosesindən söhbət gedə bilər. Axı, ATƏT-in Minsk qrupu tərəfindən işlənib hazırlanmış prinsiplərin mahiyyəti ondan ibarətdir ki, keçmiş Dağlıq Qarabağ Muxtar Vilayəti ətrafındakı ərazilər Azərbaycana verilməlidir. Lakin Ermənistanın baş naziri deyir ki, "Qarabağ Ermənistandır" və üstəlik, deyir ki, biz danışıqları Dağlıq Qarabağın oyuncaq rejimi ilə aparmalıyıq. Beləliklə, danışıqların artıq 20 ildən bəri mövcud olan formatını dəyişməyə çalışır. Deməli, Ermənistan biləkdən danışıqlar prosesini pozur, qəbuledilməz tələblər irəli sürür və əgər Minsk qrupu son vaxtlar nizamlamaya kimin əngəl olması barədə daha fəal danışmağa başlayırsa, sentyabrın 27-də, bundan əvvəl isə iyulun 12-də olduğu kimi, təxribatlar törədirlər. Bizim dövlət sərhədindəki mövqelərimizə hücum edilib. Sonra avqustun 23-də Ermənistanın təxribat qrupu tutulub, bu qrupun başçısı təmas xəttində saxlanılıb. Bütün bunlar Azərbaycanı təqsirləndirmək, sonra üçüncü tərəfləri cəlb etmək və beləliklə, danışıqlar prosesini pozmaq üçün edilir. Ona görə ki, erməni tərəfi status-kvonu saxlamaq istəyir. ATƏT-in Minsk qrupunun həmsədrləri isə Rusiya, Fransa və ABŞ-ın dövlət başçılarının şəxsində dəfələrlə bəyanatlar veriblər ki, status-kvo qəbuledilməzdir. Bu isə o deməkdir ki, işğal altında olan ərazilər Azərbaycana qaytarılmalıdır. Biz danışıqlara sadiqik, lakin Ermənistan tərəfindən tamamilə əks hərəkətlər görürük.

**Aparıcı:** *Cənab Prezident, xahiş edirəm deyin, bazar günü nə baş verib, bu qədər genişmiqyaslı və qanlı qarşıdurmaya təhrik edən nə olub?*

**Prezident İlham ƏLİYEV:** Bilirsinizmi, bazar günü baş verən hadisələrə Ermənistan artıq bir neçə ay idi ki, hazırlaşırdı. Əgər siz onların hərəkətlərinin və bəyanatlarının xronologiyasını izləsəniz, aşkar görərsiniz ki, onlar bu təxribata şüurlu şəkildə gedirdilər. Bu yaxınlarda, BMT Baş Assambleyasının tribunasından çıxış edərkən mən açıq demişəm ki, Ermənistan müharibəyə hazırlaşır və onu dayandırmaq lazımdır. İyul ayında onlar bizim dövlət sərhədindəki yaşayış məntəqələrimizə silahlı hücum etdilər. Bu, münaqişə zonasından uzaq bir yerdir. O vaxt bir dinc sakin və bir neçə hərbi qulluqçu həlak oldu. Döyüşlər dörd gün davam etdi və Ermənistan ərazisində bizim heç bir hərbi hədəfimiz olmayıb və yoxdur. Buna görə də Ermənistan silahlı qüvvələri bizim ərazidən çıxarılandan dərhal sonra qarşılıqlı razılaşmaya əsasən atəş dayandırıldı. Daha sonra mənim dediyim kimi, təxribat qrupu bizim ərazimizə soxuldu, həmin qrup neytrallaşdırıldı. Sonra erməni tərəfi açıq-aşkar, nümayişkaranə şəkildə əslən Livandan olan ermənilərin Azərbaycanın işğal edilmiş ərazilərində və qədim Şuşa şəhərində məskunlaşdırılmasını elan edir, bu da müharibə cinayətidir. Bu, Cenevrə Konvensiyasının pozulması deməkdir. Bunu nümayişkaranə şəkildə edirlər. Sonra onlar Şuşada Azərbaycan mədəniyyətinin qədim incisində cinayətkar Dağlıq Qarabağ rejiminin qondarma başçısının qondarma inauqurasiyasını keçirirlər. Bütün bunlar bizə qarşı şüurlu provokasiyalar, bizi münaqişəyə cəlb etmək və cavab hərəkətlərinə təhrik etməkdir. Biz təmkin, konstruktivlik və sağlam düşüncə nümayiş etdirdik, lakin onların niyyətləri baş tutmayanda bu cür cəhd göstərdilər. Üstəlik, daha bir səbəb Ermənistanda mövcud olan daxili siyasi böhrandır. Axı, bu gün Ermənistanda Soros rejimi mövcuddur. Belarusda baş tutmayan çevriliş iki il bundan əvvəl Yerevanda baş tutdu. Bu gün Paşinyanın şəxsində Ermənistanın rəhbəri Sorosun əlaltısıdır. Bu adam çoxlu vədlər verib və bu vədləri yerinə yetirə bilmir, əslində, ölkə böhran içindədir.

Beləliklə, ona bir xarici amil, necə deyərlər, qarşılıqlı lazım idi ki, əhalinin diqqətini yayındırsın, o da bunu edə bildi. Onlar növbəti dəfə bizə hücum etməzdən düz iki gün əvvəl Ermənistanın əsas müxalifət partiyasının lideri həbs edildi. Yəni, Paşinyanın diktator, despotik rejimi öz ölkəsindəki bütün müxalifəti məhv edirdi və indi Azərbaycan xalqına qarşı yenidən təcavüz nümayiş etdirir.

**Aparıcı:** *Sizin mövqeyiniz aydındır. Çox sağ olun. Mümkündürsə lap qısa cavab verin: hə, ya yox. İndi cəbhədə Suriyadan olan muzdlular varmı?*

**Prezident İlham ƏLİYEV:** Yoxdur. Bu, növbəti feyk-nyusdur. Suriyadan heç bir muzdlu yoxdur. Bu barədə heç bir fakt, heç bir sübut yoxdur. Bunu erməni təbliğatı ortaya atıb və müxtəlif saytlarda, müxtəlif kütləvi informasiya vasitələrində dövr edir. Buna heç bir ehtiyac yoxdur. Azərbaycanın hazırlıqlı ordusu var, çox böyük səfərbərlik ehtiyatı var. Dünən mən qismən səfərbərlik elan etmişəm. Biz 2 milyon əhalisi olan Ermənistana qarşı 10 milyon əhalidən 10 minlərlə ehtiyatda olanları orduya çağırırıq, bizim insan ehtiyatlarına ehtiyacımız yoxdur. Buna görə də biz özümüzü müdafiə etməyə və təcavüzkarı elə cəzalandırmağa qabilik ki, o, bir daha bizim tərəfə baxmağa cəsarət etməsin.

**Aparıcı:** *Çox sağ olun. İlham Əliyev bizimlə Bakıdan əlaqədə idi. Sizə cansağlığı arzulayırıq, görüşənədək. Çox sağ olun.*

**Prezident İlham ƏLİYEV:** Sağ olun. Görüşənədək.

**Aparıcı:** *İndi biz Yerevanla əlaqəyə çıxırıq. Ermənistanın lideri, Ermənistanın baş naziri Nikol Paşinyan bizə qoşulur. Salam, Nikol Vovayeviç. İlk növbədə, biz istərdik ki, indi nələr baş verdiyini şərh edəsiniz. Çox həyəcanlı xəbərlər gəlir.*

**Nikol Paşinyan:** Bu gün səhər belə bir xəbər aldıq ki, Azərbaycan bilavasitə Ermənistan Respublikasının ərazisindəki kəndləri bombalayıb. Bundan əvvəl isə sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri Dağlıq Qarabağa qarşı tammiqyaslı hərbi təcavüzə başlayıblar. Onlar artıq üç gündür ki, artilleriyadan və yaylım atəşi sistemlərindən istifadə etməklə Dağlıq Qarabağın yaşayış məntəqələrini bombalayırlar. Təəssüf ki, bizdə həm hərbçilər, həm də mülki əhali arasında həlak olanlar var. Çox mühüm məqam ondan ibarətdir ki, Türkiyə faktiki olaraq bu prosesə cəlb edilib. Bizdə olan mötəbər informasiyaya görə, hərbi təlimatçılar və yüksək vəzifəli hərbçilər indi Azərbaycanın komanda məntəqələrindədirlər və bəzi yerlərdə hətta hərbi əməliyyatlara rəhbərlik edirlər. Daha bir mühüm məqam. Artıq beynəlxalq mətbuatda çoxsaylı materiallar dərc edilib ki, Türkiyə Suriya ərazisindən muzdluları cəlb edir, onları Dağlıq Qarabağa və Ermənistan Respublikasına qarşı müharibədə iştirak etmək üçün Azərbaycana aparır. Yeri gəlmişkən, belə bir məlumat da var ki, Azərbaycanın yaşayış məntəqələrində bu muzdlularla yerli sakinlər arasında artıq bəzi toqquşmalar baş verib. Ona görə ki, bu muzdlular həmin kəndlərdə şəriət qanunları tətbiq etməyə çalışır, mağazalara girərək tələb edirlər ki, bu mağazalar alkoqollu məhsullar satışını dayandırsınlar və s. və ilaxır.

**Aparıcı:** *Cənab Paşinyan, indicə xəbər gəldi ki, Türkiyənin F-16 təyyarəsi Ermənistan silahlı qüvvələrinin Su-25 təyyarəsini vurub. Özü də bu xəbər Ermənistan Müdafiə Nazirliyinə istinadla gəlib ki, pilot həlak olub. Bu xəbər sizə məlumdurmu? Yəni, Ermənistan və Türkiyə təyyarələri artıq göydə toqquşur?*

**Nikol Paşinyan:** Bu, artıq faktdır və mənim dediyimi bir daha sübut edir. Bilirsinizmi aşkardır ki, həm Ermənistan, həm də Dağlıq Qarabağ erməniləri bilavasitə Türkiyənin təhdidi altındadırlar. Bizdə olan məlumata görə, Türkiyə bu münaqişəyə daha geniş qoşulmaq üçün bəhanə axtarır. Bizdə olan məlumata görə, onlar öz qoşunlarını Naxçıvana gətirmək üçün bəhanə axtarırlar. Bu, Azərbaycanın Türkiyə, Ermənistan və İranla həmsərhəd anklavıdır. Hərçənd bizdə məlumat var ki, Türkiyə Ordusunun bəzi bölmələri artıq oradadır. Ümumiyyətlə, burada heç bir sirr yoxdur. Ona görə ki, Türkiyə qoşunları artıq avqust ayından Azərbaycandadırlar. Onlar birgə hərbi təlimlərə başlayıblar və bu məsələ həmin hərbi təlimlərin davamı kimi başlanıb.

**Aparıcı:** *Nikol Vovayeviç, indi artıq bir çox ekspertlər Dağlıq Qarabağda hazırda baş verənlərin hamısını çox sərt şəkildə ifadə və izah edirlər. Müharibə sözü səslənir. Bu sözdən istifadə etmək nə dərəcədə korrektdir, nə dərəcədə yerinə düşür və indi qan tökülməsinə son qoymaq və atəşi dayandırmaq üçün nə isə etmək olarmı?*

**Nikol Paşinyan:** Əlbəttə, sualınız korrektdir. Ona görə ki, müharibə gedir. Çoxlu dağıntılar, insan tələfatı var və olduqca çox sayda hərbi qulluqçu cəlb edilib. Bu, bizim üçün çox mühüm məqamdır. Bildiyiniz kimi, XX əsrin əvvəlində XX əsrin ilk soyqırımı baş verib. Bu, Osmanlı imperiyasında baş verib və bu soyqırımının qurbanı erməni xalqı olub. Ona görə biz hamımız bunu xalqımız üçün ekzistensial təhdid kimi qəbul edirik. Faktiki olaraq biz bunu erməni xalqına elan edilmiş müharibə kimi qəbul edirik. İndi bizim xalqımız, sadəcə, özünümüdafiə hüququndan istifadə etməyə məcburdur. Nə etmək olar? Beynəlxalq birlik Azərbaycanın təcavüzkar hərəkətini və təcavüzünü qətiyyətlə pisləməlidir. Türkiyənin hərəkətləri pislənməlidir. Tələb etmək lazımdır ki, Türkiyə ümumiyyətlə bu regiondan çıxsın. Ona görə ki, Türkiyənin Cənubi Qafqazda hərbi iştirakı heç bir yaxşı şey vəd etmir. Bu, münaqişənin daha da genişlənməsinə və bu hərbi əməliyyatların, bu müharibənin miqyasının artmasına gətirib çıxara bilər. İndi beynəlxalq birlik Türkiyəni Cənubi Qafqazdan çıxmağa məcbur etmək və Azərbaycanı təcavüzü, təcavüzkar hərəkətlərini, hərbi əməliyyatları dayandırmağa məcbur etmək üçün konkret səy göstərməlidir.

**Aparıcı:** *Cənab baş nazir, sizi daha ləngitməyəcəyik. Bilirik ki, siz hərbçilərlə müşavirəyə tələsməlisiniz. Çox qısa bir sual. Hazırda danışıqların hansı formatları işləyə bilər? Yoxsa bütün əvvəlki razılaşmalar artıq keçmişdə qalıb? Şərti mənada desək, sizin bir neçə rayonu azad etməyinizi nəzərdə tutan Kazan formatı, bütün bu razılaşmalar silinib, yoxsa həmin formatlar üzrə hələ hərəkət etmək olar?*

**Nikol Paşinyan:** Bilirsinizmi, danışıqların formatı məsələsinə gəldikdə, biz belə təsəvvür edirik ki, danışıqlar prosesi harada başlanmışdısa elə orada davam etməlidir. Bu, ATƏT-in Minsk qrupunun həmsədrliyi formatıdır. Konkret danışıqlara gəldikdə isə, danışıqlar üçün müvafiq şərait olmalıdır. Konkret hərbi əməliyyatlar getdiyi vaxtda danışıqlar barədə, xüsusən onların məzmunu barədə danışmaq çox çətindir. İlk növbədə, zorakılığı dayandırmaq və Azərbaycan bu formulu qəbul etməlidir ki, Dağlıq Qarabağ probleminin hərbi həlli yoxdur. Axı, bu müharibə sıfırdan başlamayıb. Azərbaycan hökuməti uzun müddətdir ermənilərə qarşı nifrət ritorikasını inkişaf etdirir və beynəlxalq çağırışlara rəğmən uzun müddətdir hədə-qorxu gəlir ki, Dağlıq Qarabağ məsələsini hərbi yolla həll etməyə hazırlaşır. Ümidvaram, heç olmasa indiki hadisələr və indi yaranmış vəziyyət Azərbaycanı inandıracaq ki, Dağlıq Qarabağ münaqişəsinin hərbi həlli yoxdur.

Ona görə ki, Azərbaycan Silahlı Qüvvələri öz vəzifələrini yerinə yetirə bilməyiblər. Mənə belə gəlir ki, hərbi-siyasi rəhbərlik hərbi mənada cəbhədə heç bir uğur qazana bilməyib. Yəni, onlar öz məsələsini həll edə bilməyiblər. Ümidvaram, bu, Azərbaycanı inandıracaq ki, bu münaqişənin hərbi həlli yoxdur. Dağlıq Qarabağ münaqişəsi üçün yalnız dinc və danışıqlar yolu ilə həll var. İstənilən həll təkcə Azərbaycan üçün deyil, həm də Ermənistan üçün, Dağlıq Qarabağ üçün məqbul olmalıdır. Qeyd etmək istəyirəm ki, mən baş nazir olanda bu münaqişənin həlli üçün konkret formul təklif edirdim və yenə davam edirəm, istənilən həll Ermənistan üçün, Dağlıq Qarabağ üçün və Azərbaycan üçün məqbul olmalıdır. Ölkələrin adlarının çəkilməsi ardıcıllığının heç bir mənası yoxdur. Mən onu nəzərdə tuturam ki, bu qərar eyni dərəcədə məqbul olmalıdır və təəssüf ki, Azərbaycan hökuməti, Azərbaycan Prezidenti yalnız Azərbaycan üçün məqbul olan həllə nail olmaq istəyir. Bu, mümkün deyil. Kompromis lazımdır və kompromis üçün şərait lazımdır. Bunun üçün Azərbaycan Dağlıq Qarabağa və Ermənistana qarşı təcavüzü dərhal dayandırmalıdır. Çünki bunu Azərbaycan başlayıb. Yeri gəlmişkən, bu, əvvəlcədən planlaşdırılmış əməliyyat idi. Əsla şübhə yoxdur ki, bu əməliyyat Türkiyə Silahlı Qüvvələri ilə birgə hərbi təlimlər zamanı planlaşdırılıb. Sağ olun.

**Aparıcı:** *Çox sağ olun. Gəlin bunu əsas götürək ki, həll variantı Ermənistan və əlbəttə ki, Azərbaycan üçün həqiqətən məqbul olmalıdır. Münaqişənin həlli üçün heç bir hərb variantı yoxdur. Yalnız siyasət və diplomatiya. Sağ olun.*

* * *

Beynəlxalq ictimaiyyət qarşısında çıxış edərkən indiyədək dəfələrlə rəzil duruma düşən Nikol Paşinyan bu dəfə də ənənəsini pozmadı. Verilişin aparıcılarının sualları qarşısında aciz qalan Ermənistanın baş naziri yenə də çıxışında heç bir fakta əsaslanmayan yalan və uydurmalar söylədi.

Sonra müzakirələrdə siyasi və hərbi ekspertlər iştirak etdilər.

"Natsionalnaya oborona" jurnalının baş redaktoru **İqor KOROTÇENKO**:

- Mən Azərbaycan və Ermənistan liderlərinin çıxışlarını diqqətlə dinlədim. İlham Əliyev şərtsiz olaraq dəqiq, tamamilə məntiqli, düzgün, ardıcıl çıxış etdi. Bu, MDBMİ məktəbidir. MDBMİ doğrudan da, böyük kadrlar yetişdirir. İndi isə deyilənlərin mahiyyətinə gələk. Prezident Əliyev haqlıdır və tamamilə ədalətli olaraq dedi ki, peyk, elektron, kəşfiyyat texnologiyalarının müasir inkişaf səviyyəsini nəzərə alsaq, Azərbaycan ərazisinə, doğrudan da, türk qırıcıları göndərilsəydi, bu faktı gizlətmək mümkün deyildi. Bunu peyk kəşfiyyatı olan istənilən ölkə aşkar edə bilər. Bu gün isə Dağlıq Qarabağ bölgəsi dünyanın bütün aparıcı ölkələrinin sıx müşahidəsi altındadır. Həmkarlarımın diqqətini bir məqama çəkmək istərdim. Biz hamımız beynəlxalq hüququn tərəfdarıyıq. Beynəlxalq hüquq nöqteyi-nəzərindən, döyüş əməliyyatları Azərbaycanın ərazisində, Azərbaycan hərbi qüvvələri və erməni hərbi birləşmələri arasında aparılır.



*Əvvəli 1-ci səh.*

# Pakistan həmişə Azərbaycanın yanında olub

**Prezident İlham ƏLİYEV** dedi:

- Xoş gəlmisiniz cənab səfir. Sizi görməyə çox şadam. Sizə ölkəmizdə yaxşı vaxt keçirməyi arzu edirəm. Əvvəla mən də sizdən ölkənizin Prezidentinə və Baş Nazirinə ən xoş salamlarımı çatdırmağınızı xahiş etmək istəyirəm. Onlarla görüşlərimi xatırlayıram. Cənab Prezidentlə bir neçə dəfə görüşmüşəm. Onunla son görüşümüzü və onun Bakıda keçirilmiş Qoşulmama Hərəkatının sammitində fəal iştirakını xatırlayıram. Davosda Dünya İqtisadi Forumunda cənab Baş Nazirlə də görüşüm xatirimdədir. Biz ölkələrimiz arasında strateji münasibətləri, qardaş münasibətlərini bir daha təsdiqlədik. Sizin də qeyd etdiyiniz kimi, Ermənistanla Azərbaycan arasında münaqişənin həlli ilə bağlı ölkənizin Azərbaycana davamlı dəstəyinə görə sizə minnətdarıq.

Bildiyiniz kimi, Azərbaycan bütün məsələlərdə və Kəşmir məsələsində həmişə Pakistanı dəstəkləyir. Bu qarşılıqlı dəstək bizim əməkdaşlığımızın qardaşlıq xüsusiyyətini əks etdirir. Əminəm ki, Azərbaycandakı fəaliyyətiniz zamanı ölkələrimiz arasında münasibətlər daha da güclənəcək. Sizin də qeyd etdiyiniz kimi, ikitərəfli əlaqələrdə siyasi sahədən əlavə biz iqtisadi məsələlər üzərində diqqətimizi cəmləşdirməliyik. Hesab edirəm ki, qarşılıqlı ticarəti stimullaşdırmaq və investisiyalar sahəsində daha fəal münasibətləri qurmaq üçün böyük potensial mövcuddur. Biz Azərbaycanın ərazi bütövlüyü məsələləri ilə bağlı Pakistanın qətiyyətli mövqeyinə görə minnətdarıq. Pakistan Ermənistanın Azərbaycan torpaqlarını işğal etməsinə görə Ermənistanı tanımayan ölkədir. Bu, qardaşlığın əsl nümayişidir. Bütün hallarda Pakistan həmişə bizim yanımızdadır və mən buna görə minnətdaram. Sizdən ölkənizin Xarici İşlər nazirinə mənim minnətdarlığımı çatdırmağınızı xahiş etmək istəyirəm. Bildiyiniz kimi, Pakistanın Xarici İşlər naziri bu yaxınlarda Ermənistanın ölkəmizə qarşı təxribatı ilə bağlı bəyanat vermişdir. Bu bəyanat bizim haqq işimizi tam dəstəkləyir. Sentyabrın 27-də Ermənistan Azərbaycana qarşı yeni hərbi təxribata başladı. Bu da onların işğalçı siyasətinin davamıdır. Keçən ay biz Ermənistan tərəfindən çox kəskin təcavüz aktlarını müşahidə etdik. İyul ayında baş verənlər beynəlxalq ictimaiyyətə yaxşı məlumdur və hər kəs bilir ki, Tovuz rayonunda Ermənistan-Azərbaycan dövlət sərhədində bizim kəndlərimizi və hərbi mövqelərimizi atəşə tutan Ermənistan olmuşdur. Bunun nəticəsində bir mülki şəxs öldürülmüşdür. Azərbaycan Ordusu cavab tədbiri görməli idi. Biz onlara adekvat cavab verdik. Onların müdafiə nazirinin əvvəl bəyan etdiyi kimi, yeni əraziləri işğal etmək planları uğursuzluğa düçar oldu. Azərbaycan Ordusu bir daha öz gücünü nümayiş etdirdi və erməni ordusu təxribatı dayandırmaq və etdiklərindən peşmançılıq keçirmək məcburiyyətində qaldı. Lakin əfsuslar ki, onların işğalçı və Azərbaycanofobiya siyasəti davam edir. Keçən ay, avqustun 23-də onlar ordumuz tərəfindən yaxalanan diversiya qrupu göndərdilər. Diversiya qrupunun başçısı yaxanlanmışdır və o, ifadələrində əsas hədəfin mülki şəxslərə hücum etmək, terror aktları törətmək və hərbi qulluqçularımıza hücum etməkdən ibarət olduğunu bildirdi. Biz onların müharibəyə hazırlaşdığını gördük. Mənim qeydlərim, bəyanatlarım, müsahibələrim və yeni təcavüzdən bir neçə gün öncə BMT Baş Assambleyasında çıxışım Ermənistanın dayandırılması barədə beynəlxalq ictimaiyyət üçün həmişə siqnal idi. Mən Ermənistanın açıq-aşkar yeni müharibəyə hazırlaşdığını və dayandırılmalı olduğunu dedim və bu, baş verdi. Sentyabrın 27-də onlar müxtəlif istiqamətlərdən bizim kəndlərimizə, hərbi mövqelərimizə hücum etməyə başladılar və bu iki gündə bizim mülki şəxslər arasında itkilərimiz olub. Əfsuslar olsun ki, mülki şəxslər arasında itkilərin sayı artmaqdadır. Bu ana kimi Ermənistan silahlı qüvvələri tərəfindən 10 mülki şəxs, o cümlədən aralarında iki uşaq olan 5 nəfərdən ibarət bir ailə öldürülüb. Mülki şəxslər arasında 20-dən çox yaralı var. Bu, bir daha erməni cinayətkar rejiminin faşist mahiyyətini nümayiş etdirir. Bu dəfə biz onlara növbəti dərs verəcəyik. Biz onlara artıq dərs vermişik və bu proses davam edəcək. Azərbaycan Ordusu əks-hücum əməliyyatına başladı. İşğal altındakı bəzi ərazilər əks-hücum nəticəsinə azad edilmişdir. Azad edilmiş bu ərazilərə Azərbaycan bayrağı sancıldı. Azərbaycan Ordusunun uğurlu əks-hücum əməliyyatı davam edir. Biz öz torpağımızda döyüşürük. Dağlıq Qarabağ Azərbaycanın tarixi hissəsidir. Dağlıq Qarabağ Azərbaycanın ayrılmaz hissəsidir və beynəlxalq ictimaiyyət Azərbaycanın ərazi bütövlüyünü tanıyır. Ermənistanın uzun illər ərzində təcavüzü və işğalı nəinki bütün infrastrukturun dağılmasına gətirib çıxarıb, Xocalı soyqırımından başqa, onlar mədəni soyqırımı da törədiblər. Onlar mədəni soyqırımı törədiblər. Onlar bizim tarixi abidələrimizi dağıdıblar, bizim məscidlərimizi dağıdıblar. Onlar tərəfindən hələ dağıdılmayan məscidlər heyvan saxlamaq üçün istifadə edilir. Onlar bütün müsəlman dünyasını təhqir edirlər. Hansı rejimin hakimiyyətdə olmasından asılı olmayaraq, onların islamofobiya və Azərbaycanofobiya siyasəti artıq Ermənistanın rəsmi ideologiyasına çevrilib. İki il bundan öncə əvvəlki hökumətin cinayətkar rejimi devrildi. Ümidlər var idi ki, yeni hökumət düşmənçiliyə son qoyacaq, nifrətə son qoyacaq. Əfsuslar olsun ki, yeni hökumət eyni yolla gedir. Paşinyanın diktator rejimi regionda sülh və təhlükəsizliyə təhdiddir. Təəssüflər olsun ki, beynəlxalq təşkilatlar Paşinyan rejiminin etdiklərinə göz yumur. Diktatorluq artıq Ermənistanda rəsmi siyasətə çevrilib. Əsas müxalifət partiyasının lideri bu yaxınlarda həbs olunub. İki sabiq prezident barəsində cinayət araşdırmaları aparılır. Həbslər olub. Jurnalistlər həbsxanada ölür. Siyasi müxalifət sıxışdırılır. Paşinyan Ermənistanın yeni diktatorudur. Lakin əfsuslar olsun ki, özünü həbsxanada əziyyət çəkən insanların müdafiəçisi kimi göstərən insan haqları təşkilatları reaksiya vermir. Bu, ikili standartların nümayişidir. Ermənistanın diktator rejimi dayandırılmalıdır və əgər beynəlxalq ictimaiyyət onları dayandırmasa, Azərbaycan onları dayandıracaq. Əgər beynəlxalq ictimaiyyət ədalətsizliyə və işğala dözürsə, əgər danışıqlara şərait yaratmaq üçün mandatı olan ölkələr öz məqsədlərinə çata bilmirlərsə, heç Ermənistan onların bəyanatlarına məhəl qoymur. Minsk qrupunun həmsədr ölkələrinin prezidentləri status-kvonun qəbuledilməz olması ilə bağlı bir neçə dəfə bəyanatlarla çıxış ediblər, Ermənistan buna məhəl qoymur və bu üç ölkəyə hörmətsizlik nümayiş etdirir. BMT Təhlükəsizlik Şurasının Ermənistan qoşunlarının bizim ərazilərimizdən tam və qeyd-şərtsiz çıxarılmasını tələb edən 4 qətnaməsi var. Ermənistan, demək olar ki, 30 ildir bu qətnamələrə məhəl qoymur və indi onların müdafiə naziri deyir ki, Azərbaycana qarşı, yeni ərazilər uğrunda yeni müharibə olacaq. Baş nazir deyir ki, Qarabağ Ermənistandır. O, göstərir ki, təkcə ölkə daxilində və beynəlxalq səviyyədə yalançı deyil, onun yalançı olması faktı bütün erməni xalqına yaxşı məlumdur. O, hər gün yalan danışır. Düşünürəm, o, yalan danışmaqdan dayana bilmir. Lakin Qarabağın Ermənistan olduğunu demək çirkin yalanın növbəti hissəsidir. Sonra o deyir ki, Azərbaycan Dağlıq Qarabağın marionet rejimi ilə danışıqlar aparmalıdır, bu isə danışıqların formatının dəyişməsi deməkdir. Sonra o, Livandan gələn ermənilərin işğal olunmuş ərazilərdə qanunsuz məskunlaşmasını bəyan edir. Onlar işğal olunmuş ərazilərdə hərbi təlim təşkil edirlər. Onlar Dağlıq Qarabağdakı cinayətkar rejimin saxta liderinin qondarma andiçmə mərasimini Azərbaycanın qədim şəhəri olan Şuşada təşkil edirlər. Dağlıq Qarabağın cinayətkar xuntasının qondarma parlamentini Şuşaya köçürməyi qərara alırlar və düşünürlər ki, biz buna dözəcəyik. Bu, Azərbaycan xalqının hisslərinin birbaşa təhqir olunmasıdır. Biz heç vaxt bununla razılaşmayacağıq və onlara yerlərini göstərəcəyik. Əgər beynəlxalq ictimaiyyət ağılsız diktatoru dayandıra bilmirsə, Azərbaycan onları dayandıracaq. Azərbaycan onlara yerini göstərəcək və öz ərazi bütövlüyünü bərpa edəcək.

Mən bir daha Pakistandakı qardaşlarımıza minnətdarlığımı bildirmək istərdim. Biz bu dəstəyi hiss edirik. Biz əməkdaşlığımızın bütün illəri boyunca bu dəstəyi hiss edirik. Siz də təsəvvürünüzə gətirə bilərsiniz ki, bu mühüm məqamda yanınızda kimin durması aydın görünür. Biz görürük ki, bu gün bizim yanımızda olanlar öz mövqelərini açıq şəkildə ifadə edən ölkələrdir - qardaş Türkiyə və qardaş Pakistan. Türkiyə Prezidenti, qardaşım Ermənistan-Azərbaycan münaqişəsi məsələsi ilə bağlı çox qətiyyətli mövqeyini dəfələrlə ifadə edib və Ermənistanın təcavüzü zamanı o, bir neçə dəfə açıq şəkildə bəyanat verib ki, Türkiyə bizim yanımızdadır, Azərbaycan tək deyil. Mən qardaşıma, bütün türk qardaşlarımıza, Türkiyənin bütün liderlərinə minnətdaram! Türkiyənin bütün aparıcı siyasi partiyaları da Azərbaycana dəstək olaraq yekdil mövqe ifadə etdilər. Biz onlara minnətdarıq. Biz, həmçinin bu mühüm məqamda bizim yanımızda olmaqla qəti mövqe nümayiş etdirən Pakistandakı qardaşlarımıza minnətdarıq. Bu, necə deyərlər, həqiqət anıdır. Biz kimin kim olduğunu görürük, kimin bizim yanımızda möhkəm dayandığını görürük və bunu heç vaxt unutmayacağıq. Cənab səfir, bir daha Prezidentə, Baş Nazirə, Xarici İşlər nazirinə, Pakistandakı bütün qardaşlarımıza təşəkkürümü çatdırın. Bizim dostluğumuz və qardaşlığımız davam edəcək.

**Səfir Bilal HAYE:** Cənab Prezident, icazə verin, vaxt ayırdığınıza görə Sizə bir daha təşəkkürümü bildirim. Sizə məlumat vermək istəyirəm ki, bu gün Qoşulmama Hərəkatının nazirlər səviyyəsində toplantısında çıxışı zamanı Xarici İşlər nazirimiz Dağlıq Qarabağ məsələsi ilə bağlı Azərbaycanın haqq işinə Pakistanın dəstəyini bir daha ifadə edəcək. Biz bildirmək istəyirik ki, sizin mövqeyiniz ədalətli, qanunidir və bu məsələnin həlli qeyri-müəyyən müddətə təxirə salına bilməz, çünki bu, ədalətli mövqedir. Biz Qarabağ Azərbaycandır! deməkdən çox xoşbəxtik.

**Prezident İlham ƏLİYEV:** Çox sağ olun.

# Azərbaycan Ordusu düşmənə layiqli cavab verərək uğurlu əks-hücum əməliyyatları həyata keçirir

Sentyabrın 29-da Qətər dövlətinin Əmiri Təmim bin Həməd Al Tani Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə telefonla zəng edib.

Söhbət zamanı iki ölkə arasında ikitərəfli münasibətlərlə bağlı məsələlər müzakirə edilib. Qətər dövlətinin Əmiri və Azərbaycan Respublikasının Prezidenti, eyni zamanda, Ermənistanla Azərbaycan arasında yaranmış gərginliyə dair məsələləri də müzakirə ediblər. Bu baxımdan Qətər dövlətinin Əmiri vəziyyəti sakitləşdirməyə, hər iki ölkənin və xalqın maraqlarının qorunması yolu ilə dialoq və diplomatik vasitələrlə iki ölkə arasında olan mübahisənin həlli üzərində işləməyə çağırıb.

Prezident İlham Əliyev bildirib ki, sentyabrın 27-də Ermənistan növbəti dəfə Azərbaycana qarşı hərbi təxribat törədib. Ermənistanın təmas xətti boyunca yerləşən yaşayış məntəqələrimizi və hərbi birləşmələrimizi ağır artilleriya qurğularından atəşə tutması nəticəsində mülki şəxslərimiz və hərbi qulluqçularımız həlak olub. Azərbaycan Ordusu düşmənə layiqli cavab verərək uğurlu əks-hücum əməliyyatları həyata keçirir. Dövlətimizin başçısı vurğulayıb ki, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi yalnız və yalnız beynəlxalq hüququn norma və prinsipləri əsasında, Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll edilə bilər.

***Prezidentin Mətbuat xidməti***

# Son 15 ildə Azərbaycan 120-yə yaxın ölkəyə maliyyə və humanitar yardımı göstərmişdir




*Əvvəli 1-ci səh.*

Azərbaycan "Minilliyin İnkişaf Məqsədləri"nə nail olmuş, "Dayanıqlı İnkişaf Məqsədləri"nin icrasında isə ciddi irəliləyiş əldə etmişdir.

Bizim nailiyyətimiz "2020-ci il üzrə Dayanıqlı İnkişaf Hesabatı"nda əks olunmuşdur. Belə ki, oradakı "Dayanıqlı İnkişaf Hədəfləri İndeksi"nə görə Azərbaycan 166 ölkə arasında 54-cü pillədə qərarlaşmışdır.

Azərbaycan BMT-yə iki dəfə könüllü milli hesabat təqdim edən azsaylı ölkələrdən biridir.

Azərbaycanın iqtisadiyyatı sürətlə inkişaf etmişdir. Son 17 il ərzində ümumi daxili məhsul 3 dəfə artmışdır. Azərbaycanda yoxsulluq son 17 il ərzində 49 faizdən 5 faizə enmişdir.

Azərbaycanın xarici dövlət borcu dünyada ən aşağı səviyyələrdədir, ümumi daxili məhsulun təqribən 20 faizini təşkil edir. Bu göstəriciyə görə Azərbaycan dünyada 9-cu yerdədir. Neft ixrac edən dövlətlər arasında ən az xarici dövlət borcu olan Azərbaycandır.

Azərbaycanın valyuta ehtiyatları xarici dövlət borcundan 6 dəfə çoxdur.

Son 17 ildə Azərbaycanın iqtisadiyyatına 260 milyard dollardan çox sərmayə yatırılmışdır. Beynəlxalq Valyuta Fondunun statistikasına görə, hazırda Azərbaycan iqtisadiyyatı alıcılıq qabiliyyəti paritetinə görə Cənubi Qafqaz regionunun ümumi iqtisadiyyatının 70 faizini təşkil edir.

Azərbaycan enerji sahəsindən əldə olunan gəlirlərin indiki və gələcək nəsillər arasında ədalətli bölgüsünə xüsusi əhəmiyyət verir. Bu məqsədlə 1999-cu ildə Dövlət Neft Fondu yaradılmışdır. Yaranma vaxtı aktivlərinin 270 milyon dollar təşkil etdiyi fondun bugünə olan aktivlərinin həcmi ölkənin ümumi daxili məhsulunu üstələyir. Azərbaycan gəlirlərin ədalətli bölgüsünün səviyyəsinə görə dünya üzrə ən yüksək pillələrdədir.

Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü ölkə ərazisinin 20 faizinin işğalı ilə nəticələnmişdir. İşğal nəticəsində 1 milyondan artıq azərbaycanlı qaçqın və məcburi köçkün vəziyyətinə düşmüşdür. Azərbaycan qaçqın və məcburi köçkünlərin həyat və yaşayış şəraitinin yaxşılaşdırılması istiqamətində çox böyük işlər görmüşdür. Bu həssas qrupdan olan şəxslərin ehtiyaclarının təmin edilməsi üçün bugünədək 8 milyard manata yaxın və ya təqribən 5 milyard dollar həcmində vəsait sərf edilmişdir. 300 mindən artıq məcburi köçkün pulsuz ev və mənzillərlə təmin olunmuşdur.

Torpaqlarımızın Ermənistan tərəfindən işğalı nəticəsində meydana gəlmiş çətinliklər səbəbindən Azərbaycan müstəqilliyinin ilk illərində beynəlxalq ictimaiyyətdən humanitar yardım qəbul edirdi. Daha sonra isə Azərbaycan özü donor ölkəyə çevrildi. Son 15 ildə Azərbaycan 120-yə yaxın ölkəyə maliyyə və humanitar yardımı göstərmişdir.

COVID-19 pandemiyası dünyanın bütün ölkələrinə mənfi təsir göstərmişdir. Milyonlarla insanın kəskin yoxsulluq vəziyyətinə düşəcəyi gözlənilləndir.

Pandemiya bizim iqtisadiyyata da təsir etmişdir. Pandemiya dövründə dövlət gəlirlərinin azalmasına baxmayaraq, hökumət iş yerlərinin və səhiyyənin qorunması, habelə iqtisadi inkişafı təmin etmək məqsədilə ümumi daxili məhsulun 3 faizi həcmində maliyyə vəsaiti ayırmışdır.

Pandemiyanın fəsadlarının aradan qaldırılması, iqtisadi sabitlik, makroiqtisadi və maliyyə dayanıqlığının təmin edilməsi, işsizlik probleminin həlli məqsədilə 2 milyard dollar həcmində iqtisadi-sosial yardım paketi təqdim edilmişdir. Sosial dəstək tədbirləri təqribən 5 milyon vətəndaşı, yəni, ölkə əhalisinin yarısını əhatə edir.

Pandemiya ilə mübarizənin maliyyələşdirilməsi xarici maliyyə yardımı olmadan, yalnız daxili mənbələr hesabına həyata keçirilir. Bundan əlavə, Azərbaycan COVID-19 ilə bağlı 30-dan çox ölkəyə humanitar və maliyyə yardımı göstərib.

Pandemiyadan sonrakı dövrdə bizim əsas prioritetlərimiz - iqtisadi inkişafı, iqtisadi və maliyyə sabitliyini təmin etmək, sağlam və rəqabətqabiliyyətli insan kapitalını daha da inkişaf etdirmək, dayanıqlı iş yerləri yaratmaq və iqtisadi fəaliyyətin yeni sahələrini inkişaf etdirməkdən ibarətdir.

Bəşəriyyət pandemiyaya qarşı mübarizə və onun fəsadlarının aradan qaldırılmasına yalnız həmrəylik və birgə səylər sayəsində nail ola bilər. Qoşulmama Hərəkatının sədri qismində Azərbaycan BMT Baş Assambleyasının koronavirusa qarşı mübarizə üzrə Xüsusi Sessiyasının keçirilməsini təklif etmişdir. Bu təşəbbüs BMT-nin üzvü olan 130-dan çox ölkə tərəfindən dəstəkləndi.

İnanıram ki, Xüsusi Sessiya pandemiyanın təsir etdiyi bütün sahələrin kompleks şəkildə müzakirə olunmasında çərçivə rolunu oynayacaq və onun yaratdığı fəsadların aradan qaldırılması səylərinə töhfə verəcəkdir. Sağ olun!

# Ermənistan ordusu Azərbaycan torpaqlarında olmamalıdır

*Əvvəli 1-ci səh.*

Dövlətimizin başçısı qeyd edib ki, sentyabrın 27-də, səhər saatlarında Ermənistan Azərbaycana qarşı hərbi təxribat törədərək ağır artilleriya qurğularından təmas xətti boyu yerləşən hərbi birləşmələrimizi, şəhər və kəndlərimizi atəşə tutması nəticəsində iki gün ərzində hərbçilərimiz, 10 mülki şəxs, o cümlədən iki uşaq həlak olub, 29 mülki şəxs yaralanıb, 150 yaşayış evi dağıdılıb. Azərbaycan tərəfi əks-hücum əməliyyatına başlayıb.

Dövlətimizin başçısı bildirib ki, bundan əvvəl də iyul-avqust aylarında Ermənistan tərəfindən ölkəmizə qarşı hərbi təxribatlar törədilib və bunların nəticəsində hərbçilərimiz və mülki şəxslərimiz həlak olub. Prezident İlham Əliyev bu təxribatları Ermənistanın Azərbaycana qarşı təcavüzkar siyasətinin davamı olduğunu vurğulayıb.

Azərbaycan Prezidenti qeyd edib ki, Ermənistan baş nazirinin "Qarabağ Ermənistandır və nöqtə" bəyanatı danışıqlar prosesini mənasız edir və Ermənistan rəhbərliyinin Azərbaycandan dırnaqarası "Dağlıq Qarabağ respublikası" ilə danışıqlar aparması tələbi danışıqlar formatının dəyişdirilməsi cəhdi kimi qiymətləndirilməlidir. Dövlətimizin başçısı, eyni zamanda, bildirib ki, Ermənistanın müdafiə naziri yeni torpaqlar uğrunda yeni müharibə ilə Azərbaycanı hədələyib və bu plan reallıqda həyata keçirilir.

Dövlət başçısı vurğulayıb ki, Ermənistanın hərbi təxribatı ilə bağlı hadisələrin gələcək inkişafına görə məsuliyyət Ermənistanın siyasi və hərbi rəhbərliyinin üzərinə düşür, Azərbaycan Ordusu öz torpaqlarında vuruşur və Ermənistan ordusu Azərbaycan torpaqlarında olmamalıdır.

Prezident İlham Əliyev əlavə edib ki, Ermənistan Azərbaycanın işğal olunmuş ərazilərinə başqa ölkələrdən xarici vətəndaşların qanunsuz məskunlaşmasını həyata keçirir ki, bu da Cenevrə Konvensiyasına görə beynəlxalq hüququn ciddi pozulmasıdır və bu, müharibə cinayəti sayılır.

Söhbət zamanı atəşkəsin və danışıqlar prosesinin bərpa edilməsi imkanları barədə müzakirələr aparılıb.

***Prezidentin Mətbuat xidməti***

# Azərbaycan vətəndaşları bir nəfər kimi Sizin, dövlətimizin, ordumuzun yanındadır

Azərbaycan Ordusunun Ermənistan silahlı birləşmələrinə qarşı həyata keçirdiyi uğurlu əks-hücum əməliyyatları vətəndaşlarımızda qələbə əzmini, ruh yüksəkliyini daha da artırıb. Bu, Azərbaycan vətəndaşlarının Prezident, Ali Baş Komandan İlham Əliyevə göndərdiyi təbrik və təşəkkür məktublarından da aydın görünür.



Qeyd edək ki, Azərbaycan vətəndaşlarından əlavə bir sıra xarici ölkələrin vətəndaşları da dövlət başçısına məktublar ünvanlayırlar.

AZƏRTAC Prezidentin saytına istinadla həmin məktubların daha bir neçəsini təqdim edir.

İsmayıllı rayonunun müharibə, əmək və silahlı qüvvələr veteranları adından **Əlaləm Babayev** yazır: "Möhtərəm Prezident, cənab Ali Baş Komandan, sentyabrın 27-də faşist Ermənistanın növbəti təxribatından və onların bütün cəbhəboyu yaşayış məntəqələrimizi artilleriya qurğularından atəşə tutmasından dərhal sonra şanlı ordumuzun əks-hücumu nəticəsində düşmənə layiqli cavab verilmişdir. Ordumuz gün ərzində uzun illər işğal altında olan yeddi kəndimizi və ən strateji yüksəklik olan Murovdağ silsiləsini mənfur düşməndən azad etmişdir. Bu qələbələr bizi çox sevindirir. Biz çox inanırıq ki, Sizin rəhbərliyinizlə şanlı ordumuz işğal altında olan bütün torpaqlarımızı düşmən tapdağından azad edəcək və zəfər çalacaq. Çünki bizim işimiz haqq işidir".

Bakı şəhərinin sakini **Arif Əliyev:** "Hörmətli cənab Prezident, Ermənistan silahlı qüvvələrinin hərbi təxribatına cavab olaraq Azərbaycan Ordusunun başladığı uğurlu əks-hücum əməliyyatını qətiyyətlə dəstəkləyirik. Ordumuzun uğurları hər bir azərbaycanlı kimi, bizə də sevinc və sonsuz qürur hissi yaşadır. Qarabağ bizim doğma dədə-baba torpağımızdır. Bütün dünya Dağlıq Qarabağı Azərbaycanın ayrılmaz hissəsi kimi tanıyır və bu gün bizim mübarizəmiz haqq mübarizəsidir. Azərbaycan vətəndaşları bir nəfər kimi Sizin, dövlətimizin, ordumuzun yanındadır. Biz əminik ki, Azərbaycan Ordusu Sizin Ali Baş Komandanlığınızla düşmən üzərində layiqli zəfər çalacaq, Azərbaycan bayrağı əzəli torpağımız Qarabağda dalğalanacaq. Otuz ilə yaxın doğma torpaqlarından didərgin düşən soydaşlarımız tezliklə öz yurdlarına qayıda biləcəklər. Bu haqq yolunda zəfər çalacağımıza inanırıq və bu yolda Sizə, ordumuza yeni uğurlar diləyirik".

Bakı şəhərinin daha bir sakini **Ağayar Məmmədov:** "Hörmətli cənab Prezident, Sizin və çox hörmətli Mehriban xanımın Azərbaycan xalqına göstərdiyiniz diqqət və qayğı bizim gələcəyə ümidimizi daha da artırır. Cənab Ali Baş Komandan, işğal olunmuş torpaqlarımızın azad edilməsi üçün ordumuza verdiyiniz tapşırıq nəticəsində Silahlı Qüvvələrimizin Ermənistan ordusunu darmadağın etməsi hər birimizdə tezliklə böyük qələbəyə qovuşacağımıza əminlik yaradıb. İnanırıq ki, Sizin müdrikliyiniz və qayğıkeşliyiniz sayəsində az itki ilə qələbə qazanacağıq. Allah Sizi və ailənizi qorusun".

Şirvan şəhərinin sakini **Leyla İbadovanın** məktubunda deyilir: "Hörmətli cənab Prezident, Ali Baş Komandan, mən bir vətəndaş, bir müəllim olaraq son zamanlarda baş verən hadisələrlə bağlı atdığınız addımları bəyəndiyimizi və Sizi dəstəklədiyimizi bildirirəm. Biz başa düşürük ki, Siz Azərbaycan xalqının 30 illik nisgilinə son qoymaq üçün, şəhidlərimizin məzarlarında rahat uyuması, torpaqlarımızın işğaldan azad olunması və gələcək nəsillərin xoşbəxtliyi üçün bu addımı atmış, ölkədə hərbi vəziyyət elan edərək əks-hücum əmrini vermisiniz. Şərəfli mübarizəmizdə sözsüz ki, şəhidlərimiz də olacaq. Ancaq biz bilirik ki, azadlıq bəxş edilmir, qan bahasına alınır. Odur ki, düşmənin amansızlığı, müharibənin dəhşəti Azərbaycan xalqını qorxuda bilməz. Keçən gün ordumuzun apardığı hərbi əməliyyatlar nəticəsində Füzuli rayonunun Qaraxanbəyli, Qərvənd, Aşağı Əbdürrəhmanlı, Yuxarı Əbdürrəhmanlı, kənd Horadiz, Cəbrayıl rayonunun Nüzgar və Böyük Mərcanlı kəndlərinin azad olunması və Murov yüksəkliyinin ordumuzun nəzarəti altına keçməsi xəbəri vətəndaşlar içərisində çox böyük sevinc və nikbinlik yaradıb. İnanırıq ki, Sizin apardığınız düzgün siyasətiniz və Azərbaycan Ordusunun əzmi, şücaəti sayəsində düşmən məhv ediləcək, torpaqlarımız bütünlüklə azad olunacaq, şəhid analarının yanan qəlbinə su səpiləcək. Cənab Ali Baş Komandan, əmin olun ki, bu çətin və şərəfli işdə Azərbaycan xalqı yekdilliklə Sizin yanınızdadır".

Qobustan şəhərindən **Rəssam Azadə** yazır: "Hörmətli cənab Ali Baş Komandan, bu gün hamının düşüncəsi bütünlüklə Azərbaycan əsgərinin döyüş əzminə, qələbə ruhuna köklənib. Bu köklənmə vətənsevərlikdir, Azərbaycan əsgərinin gücünə, qüdrətinə inamdır, Ali Baş Komandanın əmri ilə döyüşən hərbi qulluqçularımıza vətəndaş xeyir-duasıdır. Yurdumuzun hər qarışı mənim üçün əziz və doğmadır. Vətənə xidmət etmək, onu qorumaq bizim müqəddəs və şərəfli borcumuzdur. Bu borcu ləyaqətlə yerinə yetirdiyimə görə qürurluyam. Xalqımız qəhrəman, cəsur xalqdır. Zaman-zaman Vətən oğulları yadellilərlə mübarizələrdə böyük igidlik və qəhrəmanlıqlar göstəriblər. Qanları və canları bahasına qoynunda dünyaya göz açıb yaşadıqları torpaqları qoruyublar. Bu gün bizim damarlarımızdan döyüşlərdə böyük qəhrəmanlıq və hünər göstərmiş babalarımızın qanı axır. Biz də onların qəhrəmanlıqlarını təkrar edərək, erməni işğalçılarını torpaqlarımızdan təmizləyəcəyik. Cənab Prezident, Ulu Tanrı bu haqq yolunda köməyiniz olsun".

Saatlı şəhərindən **Sevinc Əhədova:** "Hörmətli cənab Prezident, Siz zamanın sınağından ləyaqətlə çıxmış bir lidersiniz. Bu sınaqlarda xalq Sizin arxanızda, Siz də xalqın önündə olmusunuz. Haqq mübarizəmizdə də qəsbkar, xəyanətkar erməni faşistləri zaman-zaman Sizin və ordumuzun layiqli cavablarını alıblar. Cənab Prezident, inanırıq ki, Sizin komandanlığınızla torpaqlarımızı mənfur düşməndən azad edəcək, bu mübarizədə qalib gələcəyik. Qadın olmağıma baxmayaraq, bu yolda Sizin əmrinizi gözləyirəm".

Bakı sakini **Tuncay Şamilzadə:** "Hörmətli cənab Prezident, Azərbaycan xalqı daim Sizinlə fəxr edib, edir və edəcək də. Mən bu məktubu Sizə göz yaşları içində yazıram. Allah Sizi qorusun. Siz tək deyilsiniz, son damla qanımıza qədər Sizinləyik. Var olun! Yaxşı ki, Sizin kimi Ali Baş Komandanımız, Prezidentimiz var. Allah Sizi bizə çox görməsin".

Bakının Xətai rayonunun sakini **Aysel Həsənova:** "Cənab Prezident, hər bir Azərbaycan vətəndaşı kimi, mən də Sizə güvənir, Sizə inanıram. Sizin siyasətinizi, ölkəmizin gələcəyi, vətəndaşlarımızın rifahı üçün qəbul etdiyiniz qərarları dəstəkləyirəm. İnşallah, işğal altında olan torpaqlarımız tezliklə azad olunacaq! Sizə güvənir, sizə arxalanırıq. Allah sizə və Vətənimizə kömək olsun".

Binəqədi rayonundan **Şərqiyyə Salmanova:** "Cənab Prezident, Sizi və bütün Azərbaycan xalqını, azərbaycansevərləri təbrik edirəm. Ordumuzun şücaəti, Sizin uğurlu rəhbərliyiniz bizi uğura aparır. İşğal altındakı bütün torpaqlarımızın tezliklə azad olunması xəbərini verməyinizi Uca Allahdan arzu edirəm. Mən bir Azərbaycan övladı olaraq daim Sizi dəstəkləyir, uğurlarınızın, uğurlarımızın davamlı olmasını arzu edirəm. Gözün aydın, Azərbaycan! Qarabağ Azərbaycandır!"

Binəqədi rayonundan **Xuraman Babayeva, Esmira Məmmədova, Maya İsayeva** və **Namiq Nağıyev** yazırlar: "Hörmətli cənab Prezident, biz Sizinlə, ordumuzun şanlı qələbə əzmi ilə qürur duyuruq. İşğalçı düşmənə qarşı apardığınız düzgün siyasəti dəstəkləyir, Sizin arxanızda olduğumuzu bildiririk. Sizin rəhbərliyinizlə ordumuz uğurlu əməliyyatlarla xalqımızı sevindirdi. Bir neçə kəndin azad olunması xəbəri yeni qələbələrin carçısıdır. Sizin kimi Prezidentlə fəxr edirik. Qələbə bizimlədir".

Səbail rayonundan **Aysel Zeynalova:** "Hörmətli cənab Prezident, bu məktubu yazarkən həm kövrəlirəm, həm də fərəhlənirəm. Şükür ki, o gün gəldi çıxdı. Heydər babanın da ruhu indi şaddır. Vətənimiz uğrunda bütün şəhid olanların da ruhu indi sevinir. Təbrik edirəm Sizi, mənim müdrik Prezidentim. Bu zəfər bütün azərbaycanlılarımızın zəfəridir. Deyilməyə o qədər sözlər var ki, amma həyəcandan söz tapa bilmirəm. Siz ki, bizə bu sevinc göz yaşlarını yaşatdınız, Allah Sizi həmişə var eləsin. Heydər babanın bir zamanlar fərəhlə dediyi bu cümləni, indi də mən fərəhlə deyirəm: Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam. Qarabağ Azərbaycanındır! Qarabağ Azərbaycandır!".

Yevlax şəhərindən **Osman Xəlilov:** "Möhtərəm Prezident, cənab Ali Baş Komandan, bir məcburi köçkün olaraq özümə borc bilirəm ki, Sizə təşəkkürümü və minnətdarlığımı bildirəm. Azərbaycanın bütün vətəndaşları kimi, mən də hər zaman Sizin apardığınız siyasətə inanıb Sizi dəstəkləmişəm. Sizin indi də Qarabağın azad olunması uğrunda göstərdiyiniz əzmi və mübarizliyi görüb susmaq mümkün deyil. Mən inanıram ki, işğal altındakı bütün torpaqlarımız yaxın vaxtlarda Sizin rəhbərliyinizlə azad ediləcək və biz məcburi köçkünlər öz doğma yurdlarımıza qayıdacağıq. Bir məcburi köçkün gənc kimi əminəm ki, o gün uzaqda deyil. Biz gənclər Sizi sevirik, Sizin daxili və xarici siyasətinizi dəstəkləyirik. Vətənimizin uğrunda döyüşməyə hər an hazırıq, hörmətli cənab Prezident. Düşmən atəşi nəticəsində mülki əhali və hərbçilərimiz arasında itkilər, yaralananlarımız var. Allah şəhidlərimizə rəhmət eləsin. İnşallah, onların qanı yerdə qalmayacaqdır. Allah Sizi və əsgərlərimizi qorusun".

# Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Zati-aliləri!

Dağlıq Qarabağ bölgəsində münaqişənin gərginləşməsinə səbəb olan Ermənistan artilleriya hücumlarını kəskin şəkildə pislədiyimi bildirmək istəyirəm.

Azərbaycan Respublikası ilə çox sıx dostluq münasibətləri olan Bosniya və Herseqovina dövləti Azərbaycanın suverenliyinə və ərazi bütövlüyünə hörmət edir.

Ümid edirəm ki, bütün bölgədə sülhə təhlükə törədən silahlı qarşıdurmalara ən qısa müddətdə son qoyulacaq və münaqişə BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinə uyğun olaraq danışıqlar vasitəsilə dinc həllini tapacaqdır.

*Hörmətlə,*

***Şefik CAFEROVİÇ,***
***Bosniya və Herseqovinanın Rəyasət Heyətinin Sədri***

# ICESCO Dağlıq Qarabağda mədəni və tarixi hüquqlara hörmət etməyə çağırır

İslam Dünyası Təhsil, Elm və Mədəniyyət Təşkilatı (ICESCO) Ermənistan və Azərbaycan arasındakı son hadisələrdən, eləcə də arxeoloji, tarixi məkanların, bir neçə məscidin və müqəddəs yerlərin dağıdılmasına hədəflənən addımlardan narahatlığını bildirir. AZƏRTAC xəbər verir ki, təşkilat bununla bağlı bəyanat yayıb.

Bəyanatda deyilir ki, ICESCO tərəfləri maksimum təmkin göstərməyə, İslam Əməkdaşlıq Təşkilatı da daxil olmaqla beynəlxalq təşkilatların qətnamələrinə əməl etməyə çağırır.

Ermənistana BMT Təhlükəsizlik Şurasının 822, 853, 874 və 884 saylı qətnamələrini xatırladan ICESCO tərəfləri beynəlxalq hüququn prinsiplərinə riayət etməyə, tarixi və mədəni hüquqlara hörmət etməyə çağırır.

# Azərbaycanın Baş Naziri ilə Türkiyənin Vitse-prezidenti arasında telefon danışığı olub




Sentyabrın 29-da Türkiyə Respublikasının Vitse-prezidenti Fuad Oktay Azərbaycan Respublikasının Baş Naziri Əli Əsədova telefonla zəng edib.

Nazirlər Kabinetinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, telefon danışığı zamanı Vitse-prezident Fuad Oktay Ermənistanın təcavüzünün qarşısının alınması və işğal altındakı torpaqların azad edilməsi işində Türkiyənin Azərbaycanın yanında olduğunu və hər cür yardım göstərməyə hazır olduqlarını bildirib.

Baş Nazir Əli Əsədov Türkiyə Respublikası rəhbərliyinin bütün səviyyələrdə Azərbaycana göstərdiyi dəstəyə görə minnətdarlığını ifadə edib.

Telefon danışığı zamanı Baş Nazir Əli Əsədov və Vitse-prezident Fuad Oktay ikitərəfli münasibətlərə dair məsələləri də müzakirə ediblər.

# YAP Ermənistanın cəbhəboyu təmas xəttində yeni hərbi təxribatları ilə əlaqədar beynəlxalq siyasi partiya təşkilatlarına müraciət ünvanlayıb

Yeni Azərbaycan Partiyası (YAP) Ermənistan silahlı qüvvələrinin Azərbaycana qarşı növbəti hərbi təxribatı və Azərbaycan Ordusunun erməni işğalçılarına qarşı apardığı mübarizə ilə əlaqədar beynəlxalq siyasi partiya təşkilatlarına və tərəfdaş siyasi partiyalara müraciət ünvanlayıb. Bu barədə AZƏRTAC-a YAP-ın Mətbuat xidmətindən məlumat verilib.

Müraciətdə deyilir: "Sentyabrın 27-də Ermənistan silahlı qüvvələri hücum edərək cəbhəboyu zonada yerləşən Azərbaycan Ordusunun mövqelərini və yaşayış məntəqələrini iriçaplı silahlar, minaatanlar və müxtəlif çaplı artilleriya qurğularından intensiv atəşə tutmuşdur. Ermənistan ordusu tərəfindən Tərtər, Ağdam, Füzuli və Cəbrayıl rayonlarının bir sıra kəndlərinin intensiv atəşə tutulması nəticəsində mülki Azərbaycan əhalisi arasında həlak olan və yaralananlar var, mülki infrastruktur obyektlərinə ciddi ziyan dəymişdir. Ermənistanın bu növbəti təxribatının qarşısını almaq, mülki əhalini qorumaq üçün Azərbaycan Ordusu cəbhə boyunca əks-hücum əməliyyatına başlamışdır".

YAP-ın müraciətində daha sonra qeyd olunur ki, Azərbaycanın Ermənistan tərəfindən işğal olunan Dağlıq Qarabağ zonasında 1994-cü ildən etibarən atəşkəs rejiminin qüvvədə olmasına baxmayaraq, işğalçı tərəf mütəmadi olaraq cəbhə xəttində və sərhəd bölgələrində Azərbaycanın mülki əhalisini və yaşayış məntəqələrini hədəfə alan təxribatlar törətməkdədir. Ermənistan bu ilin iyul ayında Azərbaycanın münaqişə zonasına aid olmayan Tovuz rayonu istiqamətində sərhədboyu qanlı toqquşma törətmiş, avqustda isə digər bir sərhəd rayonu olan Goranboyda kəşfiyyat-diversiya əməliyyatı həyata keçirməyə cəhd etmişdir. Bütün bunlarla kifayətlənməyən Ermənistan rəhbərliyi beynəlxalq hüquq normalarını kobud şəkildə pozaraq işğal edilmiş ərazilərdə qeyri-qanuni şəkildə məskunlaşdırma aparır.

"Ermənistan rəhbərliyi bu cür təxribatlarla ölkə əhalisinin diqqətini hökumətin yarıtmaz daxili və xarici siyasətinin nəticələrindən, dərinləşməkdə olan sosial-iqtisadi və siyasi böhrandan, pandemiya ilə uğursuz mübarizədən və digər problemlərdən yayındırmağa çalışır. Sarkisyanın xunta rejiminin səhvlərindən nəticə çıxarmayan Paşinyanın diktatura hökuməti işğalçı siyasəti davam etdirmək və genişləndirməklə təkcə Ermənistanın vəziyyətini daha da çətinləşdirmir, həm də bütün regionda sülhü və təhlükəsizliyi ciddi şəkildə təhdid edir.

Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Dağlıq Qarabağ bölgəsini və 7 ətraf rayonu BMT Təhlükəsizlik Şurasının və bir çox digər beynəlxalq təşkilatların qətnamələrinə zidd olaraq 30 ilə yaxındır ki, işğal altında saxlayan, bir milyon insanın tərk etməyə məcbur olduğu doğma yurd-yuvasına qayıtmasına imkan verməyən işğalçı Ermənistanın törətdiyi son təxribatlar, yaşayış məntəqələrinin atəşə tutulması beynəlxalq hüququn, eləcə də 1949-cu il Cenevrə Konvensiyalarının kobud şəkildə pozulması deməkdir", - deyə müraciətdə bildirilir.

YAP beynəlxalq ictimaiyyətə müraciətində daha sonra qeyd edir ki, vəziyyətin daha da gərginləşməsi, qanlı toqquşmaların yenilənməsi həm də bu illər ərzində aparıcı beynəlxalq təşkilatların, eləcə də münaqişənin tənzimlənməsi ilə məşğul olmalı olan ATƏT-in Minsk qrupunun passivliyinin, Ermənistanın işğalçı, təcavüzkar siyasətindən əl çəkməsi üçün lazımi təzyiq göstərməməsinin nəticəsidir.

Azərbaycanın öz ərazilərini və əhalisini müdafiə etmək hüququ vardır. Beynəlxalq təşkilatlar münaqişənin tezliklə həllini tapması üçün işğala son qoyulmasına, Azərbaycanın ərazi bütövlüyünün bərpasına, bir milyon məcburi köçkünün öz torpaqlarına qayıtmasına dəstək göstərməlidir. Yaşadığımız XXI əsrdə dövlətlərin BMT tərəfindən tanınan sərhədlərinin zor tətbiq etməklə dəyişdirilməsinə, təcavüzə, işğala, etnik təmizləmələrə, işğal altında olan ərazilərin qeyri-qanuni məskunlaşmasına yer ola bilməz və olmamalıdır.

"Yeni Azərbaycan Partiyası tərəfdaş siyasi partiyaları və beynəlxalq siyasi partiya təşkilatlarını Azərbaycanın ərazi bütövlüyünün və əhalisinin təhlükəsizliyinin təmin olunması istiqamətində mübarizəsini və beynəlxalq hüquqa söykənən ədalətli mövqeyini dəstəkləməyə, 30 ildir davam edən Ermənistanın təcavüzkar siyasətini qətiyyətlə pisləməyə, işğalın aradan qaldırılması, beynəlxalq hüququn və ədalətin bərqərar olunması naminə lazımi addımları atmağa çağırır", - deyə müraciətdə vurğulanır.

Müraciət Yeni Azərbaycan Partiyasının əməkdaşlıq etdiyi Asiya Siyasi Partiyaları Beynəlxalq Konfransına (İCAPP), Mərkəzçi Demokrat İnternasionalına, Türkiyənin Ədalət və İnkişaf Partiyasına, Rusiyanın "Vahid Rusiya" ("Edinaə Rossiə") Partiyasına, "İsrail bizim evimizdir" partiyasına, Çin Kommunist Partiyasına, Yaponiya Liberal-Demokrat Partiyasına, Vyetnam Kommunist Partiyasına, Qazaxıstanın "Nur Otan" Partiyasına, Macarıstanın "FİDESZ" Partiyasına, eləcə də Pakistanın, Cənubi Koreyanın, Malayziyanın, Banqladeşin, Laosun, İndoneziyanın, Rumıniyanın, Bolqarıstanın, Serbiyanın və digər ölkələrin hakim siyasi partiyalarına və beynəlxalq təşkilatlara ünvanlanıb.

# Milli Məclisin Sədri ilə ATƏT Parlament Assambleyasının prezidenti telefonla danışıb

Milli Məclisin Sədri Sahibə Qafarova ilə ATƏT Parlament Assambleyasının prezidenti Georgi Tsreteli arasında telefon danışığı olub.




Parlamentin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, telefon söhbətində Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı son vəziyyət, Ermənistanın Azərbaycana təcavüzü müzakirə edilib.

Milli Məclisin Sədri bildirib ki, sentyabrın 27-dən etibarən Ermənistan silahlı qüvvələri cəbhə xətti boyunca hərbi təxribatlar törətməyə başlayıb. Ermənistan silahlı qüvvələri iriçaplı silahlardan, minaatan və artilleriya qurğularından istifadə edərək dinc yaşayış məskənlərini və mülki əhalini hədəfə alır. Bu isə 1949-cu ildə qəbul edilmiş Cenevrə Konvensiyası da daxil olmaqla beynəlxalq hüququn kobud şəkildə pozulmasıdır. Beynəlxalq hüquqa əsasən, bu, Ermənistan tərəfinin hərbi təcavüzü və Azərbaycana qarşı güc tətbiq etməsi kimi qiymətləndirilir.

Spiker vurğulayıb ki, Ermənistanın Azərbaycana qarşı hərbi təxribata hazırlaşdığı dəfələrlə beynəlxalq birliyin diqqətinə çatdırılıb.

# Azərbaycan Milli Məclisinin və Pakistan Senatının sədrləri arasında telefon danışığı olub




Azərbaycan Respublikası Milli Məclisinin Sədri Sahibə Qafarova ilə Pakistan İslam Respublikası Senatının Sədri Məhəmməd Sadiq Sancrani arasında telefon danışığı olub.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, telefon danışığı zamanı Ermənistanın cəbhə xəttində törətdiyi təxribatlar müzakirə olunub.

Spiker bildirib ki, 27 sentyabr tarixində səhər saatlarından etibarən Ermənistan silahlı qüvvələri atəşkəs rejimini kobud şəkildə pozaraq Azərbaycan Ordusunun cəbhə zonasında yerləşən mövqelərini iriçaplı silahlar, minaatanlar və artilleriya qurğularından intensiv atəşə tutub. Ermənistan silahlı qüvvələrinin cəbhəyanı ərazilərdə sıx şəkildə yaşayan mülki insanları və obyektləri atəşə tutması işğalçı ölkə və onun hərbi-siyasi rəhbərliyi tərəfindən qəsdən və hədəflənmiş şəkildə həyata keçirilmiş təxribatdır.

Milli Məclisin Sədri mülki əhali və hərbi qulluqçular arasında həlak olan və yaralananların olduğunu pakistanlı həmkarının diqqətinə çatdırıb. Spiker xüsusi olaraq qeyd edib ki, vəziyyətin gərginləşməsinin məsuliyyəti Ermənistanın hərbi-siyasi rəhbərliyinin üzərinə düşür.

# *Əli RƏBİİ:* "Azərbaycanın ərazi bütövlüyünə riayət etmək zəruridir"

Azərbaycanın ərazi bütövlüyünə riayət etmək zəruridir. AZƏRTAC xəbər verir ki, bunu İran hökumətinin sözçüsü Əli Rəbii keçirdiyi həftəlik brifinqində deyib.



Ə.Rəbii qeyd edib ki, İranın Azərbaycanın ərazi bütövlüyünün tanınması və buna riayət olunmasının vacibliyi ilə bağlı mövqeyi tamamilə aydındır. İran hökuməti indiyədək dəfələrlə BMT qətnamələri və beynəlxalq hüquq çərçivəsində Azərbaycanın qanuni haqqını tanıdığını bəyan edib.

# Milli Məclisin Sədri Sahibə Qafarova Türkiyə Böyük Millət Məclisinin Sədri Mustafa Şentopa məktub ünvanlayıb

Azərbaycan Milli Məclisinin Sədri Sahibə Qafarova Türkiyə Böyük Millət Məclisinin Sədri Mustafa Şentopa məktub ünvanlayıb.

Parlamentin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, məktubda Türkiyə Böyük Millət Məclisində təmsil olunan siyasi partiyalar - Ədalət və İnkişaf Partiyası, Cümhuriyyət Xalq Partiyası, Milliyətçi Hərəkat Partiyası və İYİ Partiya tərəfindən 28 sentyabr 2020-ci il tarixdə qəbul olunan və Ermənistanın törətdiyi növbəti təcavüz aktının və təxribatın kəskin şəkildə qınandığı Birgə Bəyanatın Azərbaycanda böyük rəğbətlə qarşılandığı bildirilir. Sahibə Qafarova partiyaların qətiyyətli və ədalətli mövqe ortaya qoyduqları üçün öz adından və Azərbaycan Respublikası Milli Məclisinin bütün üzvləri adından minnətdarlığını ifadə edib.

Məktubda bildirilir ki, Azərbaycan hazırda beynəlxalq hüququn ona verdiyi haqdan istifadə edərək Ermənistanın işğalı altında qalan torpaqlarını azad etmək üçün savaşır: "Biz sülhsevər dövlət olaraq son 30 ildə münaqişənin danışıqlar masası ətrafında, dinc yolla həlli üçün səbirlə gözlədik. Münaqişənin Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsi prinsipi əsasında həllinə dair BMT və ATƏT başda olmaqla çoxsaylı beynəlxalq təşkilatların qərar və qətnamələrinin icra edilməsini tələb etdik. Lakin 30 il ərzində nə bu qərarlar Ermənistan tərəfindən icra edildi, nə də beynəlxalq ictimaiyyət Ermənistana bu qərarları icra etməsi üçün təzyiq göstərdi. Bu isə son nəticədə cəzasız qalan Ermənistanın yenidən Azərbaycana hücum etməsi və yeni torpaqlar işğal etmək cəhdi ilə yekunlaşdı. Lakin Azərbaycanın şanlı ordusunun qətiyyəti ermənilərin bu cəhdini artıq boşa çıxarmışdır. Əminik ki, şanlı ordumuz bu qətiyyəti ilə ən qısa müddətdə torpaqlarımızı tam şəkildə azad edəcəkdir və Azərbaycanın ərazi bütövlüyü təmin olunacaq".

Məktubda qeyd olunub ki, bu bəyanat bir daha göstərdi ki, Azərbaycan və Türkiyə milli xarakter daşıyan bütün məsələlərdə hər zaman bir-birinin yanındadır.

# Milli Məclisin Sədri Sahibə Qafarova Türkiyənin TRT Haber kanalına Ermənistanın hərbi təxribatları barədə müsahibə verib



Milli Məclisin Sədri Sahibə Qafarova Türkiyənin TRT Haber kanalına Ermənistanın Azərbaycana qarşı törətdiyi hərbi təxribatlarla bağlı müsahibə verib.

Bu barədə AZƏRTAC-a Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən məlumat verilib.

İlk olaraq, prosesləri diqqət mərkəzində saxlayan qardaş Türkiyənin dövlət kanalına öz adından və Azərbaycan Respublikasının Milli Məclisi adından təşəkkür edən Sahibə Qafarova qeyd edib ki, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan, Böyük Millət Məclisinin Sədri Mustafa Şentop, Milli Müdafiə naziri Hulusi Akar, Xarici İşlər naziri Mövlud Çavuşoğlu Azərbaycana dəstək ifadə ediblər: "Dəyərli həmkarım Mustafa Şentop şəxsən mənə zəng edib və qardaş Türkiyənin dəstəyini ifadə edib. Eyni zamanda, TBMM-də təmsil olunan siyasi partiyalar Azərbaycanla həmrəylik bəyanatları veriblər. Biz bu dəstəyi, həmrəyliyi çox yüksək qiymətləndiririk".

Ermənistanın cəbhə xəttində törətdiyi təxribatlarla bağlı geniş məlumat verən Milli Məclisin Sədri xatırladıb ki, sentyabrın 27-də səhər saat 06:00 radələrində işğalçı ölkənin silahlı qüvvələri yenidən hücuma keçib. Bu hücumla Ermənistan yeni ərazilər ələ keçirmək niyyəti ilə hərəkət edib: "Onlar həm də sivil əhalini hədəf alıblar. Təəssüf ki, bizim həm mülki vətəndaşlarımız, həm də hərbi qulluqçularımız şəhid olub. Lakin onu da qeyd edim ki, Azərbaycan Ordusu qısa müddətdə əks-hücum əməliyyatına başlayıb və düşməni geri çəkilməyə məcbur edib".

Artıq şanlı ordumuzun bir neçə yaşayış məntəqəsini düşməndən azad etdiyini vurğulayan Sahibə Qafarova əmin olduğunu bildirib ki, haqq uğrunda savaşan ordumuz ən qısa müddətdə işğal altında olan bütün torpaqlarımızı azad edəcək: "Biz öz torpaqlarımızı azad etmək uğrunda savaş veririk. Biz illərdir işğal altında qalan ata-baba yurdumuzu işğaldan azad etmək istəyirik və heç kəsin torpağına göz dikməmişik. Biz, bizə aid olanı geri alırıq və alacağıq".

Müsahibəsində Azərbaycan torpaqlarının 30 ildir ki, işğal altında olduğunu xatırladan Milli Məclisin Sədri qeyd edib ki, Azərbaycan Ermənistanın yeni müharibəyə hazırlaşdığı barədə beynəlxalq ictimaiyyətə dəfələrlə xəbərdarlıq edib. Azərbaycan Prezidenti İlham Əliyev də Ermənistanın bu niyyəti barədə dünya ictimaiyyətinə məlumat verib. Ermənistanın bu təcavüzkar niyyəti, illərdir davam edən işğalçılıq siyasəti regionda sülhə əsas əngəldir. Azərbaycan bu işğalı aradan qaldırmaqla həm də regiona sülh və əmin-amanlıq gətirəcək.

"Hazırda Azərbaycan xalqı Prezident İlham Əliyevin ətrafında və bir amal uğrunda birləşib. Bu da qələbə çalmaq, torpaqları azad etməkdir. Əminik ki, o gün çox yaxındır. Çünki Azərbaycan haqq-ədalət savaşı verir. Çünki Qarabağ Azərbaycandır!", - deyə Sahibə Qafarova qeyd edib.

# *Türkiyə vətəndaşları Prezident İlham Əliyevə yazırlar:*
# "Ehtiyac olarsa, azərbaycanlı qardaşlarımızla birlikdə vuruşmağa hazırıq"

Silahlı Qüvvələrimizin cəbhədə əldə etdiyi müvəffəqiyyətlər Azərbaycanla yanaşı, bir sıra xarici ölkələrin vətəndaşları tərəfindən də sevinclə qarşılanır. AZƏRTAC xəbər verir ki, həmin ölkələrin vətəndaşları sevinc hisslərini dövlətimizin başçısına yazdıqları məktublarda ifadə edirlər.

Türkiyənin Adana şəhərindən **Efe Hüsem** yazır: "Hörmətli cənab Prezident, mən Türkiyənin Adana şəhərində həkim işləyirəm. Doğma Vətən, qardaş ölkə Azərbaycanda Tibb Universitetində təhsil almışam. Erməni işğalçıları ilə cəbhədə vuruşan qardaşlarıma lazım olarsa ya həkim kimi, ya da bacardığım başqa iş üzrə xidmət göstərməyə hər an hazıram. Şübhəsiz, çağırış etsəniz, ən qısa zamanda gələrəm. Ürəyim Sizinlədir. Allah yar və yardımçınız olsun".

İstanbul şəhərindən **Amanat Aydın:** "Hörmətli cənab Prezident, Azərbaycan Ordusunun düşmənə qarşı lazımi müdafiə tədbirlərini ən yüksək səviyyədə təşkil etdiyini və əks-hücumla ermənilərə sarsıdıcı zərbələr endirdiyini sosial mediadan öyrəndim. Haqsızlığı özünə məslək bilən, qardaş ölkəmin insanlarına qəsd edən, adını belə çəkməyə dilim gəlməyən aciz topluya qarşı təbii ki, gücünüzün yetəcəyini atalarımızdan gələn qandan bilirəm. Ancaq ehtiyac olarsa, qardaş ölkəmin bu mübarizəsində hər zaman yanınızdayam. Türk milləti olaraq birimizə olunan haqsızlıq hamımıza edilən haqsızlıqdır. Hər zaman qardaş ölkəmin yanında olacağımı bildirir, böyüklərin əllərindən, kiçiklərin gözlərindən öpürəm".

Ankara şəhərindən **Suat Muratoğlu:** "Hörmətli cənab Prezident. Mən Türkiyə vətəndaşıyam. Xaraktersiz ermənilərin əməllərini şiddətlə qınayıram. Davanız davam, yolunuz yolumdur. Azərbaycan mənim də ölkəmdir. Lazım gələrsə, Sizin ölkəniz üçün də vuruşmağa, şəhid olmağa tərəddüd etmərəm. Dualarım Sizinlədir. Ehtiyac olarsa, səvə-sevə cəbhəyə getməyə və qardaşlarımla birlikdə vuruşmağa hazıram. Allah yardımçınız olsun. Şəhidlərimizə Allahdan rəhmət, yaralılarımıza da qısa zamanda şəfa tapmalarını diləyirəm".

İstanbul şəhərindən **Hakan Yıldız** yazır: "Hörmətli cənab Prezident, qardaş ölkəmizə və bütün vətəndaşlarınıza mənim və ətrafımda olan insanların səmimi salamlarını çatdıraraq haqq işinizdə uğurlar arzulayıram. Əziz Prezident, mən və ətrafımda olan çoxsaylı insanlar rəhbərliyinizlə qazanılan rəşadətli qələbə sevincini Sizinlə bölüşmək üçün yanınızda olmaqdan şərəf duyarıq. Azərbaycan bizim ikinci Vətənimizdir. Sizi öz rəhbərimiz kimi sevir, qərarlarınızı dəstəkləyirik. Hamımızın duaları qələbə qazanmağınız üçündür".

Tekirdağ şəhərindən **Özdoğan Məhəmməd** və **Satı Levent** yazırlar: "Hörmətli cənab Prezident, bu çətin günlərdə Sizə yaxşı və sağlam çalışmalar və uğurlar diləyirəm. Mənim 24 yaşım var. Vətənin bu çətin günündə azərbaycanlı qardaşlarımın yanında olmaq istəyirəm. Hər hansı bir əmriniz olarsa, canla-başla yerinə yetirməyə hazıram. Cənab Ali Baş Komandan, ermənilərə qarşı hərbi əməliyyatların iştirakçısı olmaqdan qürur duyardım. Əmrinizi gözləyirəm".

Almaniyanın Dortmund şəhərində yaşayan türk vətəndaşı **Halil Deniz Kalakli** yazır: "Hörmətli cənab Prezident, mən Almaniyada yaşayan türk vətəndaşıyam. Azərbaycanın Ermənistanla yaşadığı problemi yaxından izləyirəm. Burada bir qərar tuta bilmirəm. Hazırda böyük narahatlıq içərisində Azərbaycan Silahlı Qüvvələrinin zəfər çalması üçün dualar edirik. Türkiyədə yaşadığım dövrdə Türk Özəl Qüvvələrində əsgərlik etmişəm. İcazənizlə Azərbaycana gəlib Sizlərlə bərabər ermənilərə qarşı vuruşmaq istəyirəm. Burada bir çox türk qardaşlarımız da Azərbaycana gəlib qardaşlarımıza dəstək vermək istəyirlər. Eyni zamanda, Türkiyədə yaşayan həmvətənlərim də eyni duyğu və düşüncə içərisindədirlər. Artıq Ermənistana sərt bir sillə vurmağın zamanı gəlmişdir. Ermənilər türkün əsl gücünü görməlidirlər. Birlikdə onların üzərinə getməliyik. Hörmətli cənab Prezident, əmr etdiyiniz anda yanınızda olacağımı bilməyinizi istəyirəm. Sizi və bütün azərbaycanlı qardaşlarımızı Allaha əmanət edirəm".

Şanlıurfa şəhərindən **Babacan Eyüp**: "Hörmətli cənab Prezident, ilk növbədə, Sizə salamlarımı çatdırır, ehtiramımı bildirirəm. Erməni işğalçıları ilə apardığınız mübarizədə Türkiyə xalqı olaraq, sonuna qədər yanınızda olduğumuzu, dualarımızın Sizinlə birlikdə olduğunu bilməyinizi istəyirik. Rəbbim qardaş Azərbaycanın yardımçısı olsun. Hər zaman can qardaşlarımızın yanındayıq. Tutduğunuz bu haqq yolunda Sizə zəfər arzulayıram".

# *Məsud ƏHMƏD:* "Başladığınız haqq işində bizim də ürəyimiz Azərbaycan xalqı ilə birlikdə döyünür"

Başladığınız haqq işində Türkiyə xalqı ilə yanaşı, bizim də ürəyimiz Azərbaycan xalqı ilə birlikdə döyünür. AZƏRTAC xəbər verir ki, bu fikir Pakistanın Multan şəhərinin sakini Məsud Əhmədin Prezident İlham Əliyevə məktubunda yer alıb.

Məktubda deyilir: "Möhtərəm cənab Prezident, mən ölkənizlə dost və qardaş münasibətində olan Pakistanın vətəndaşı olaraq ölkəmin Sizin və böyük xalqınızın yanında olduğunu, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı Azərbaycanı tam qəlbimizlə dəstəklədiyimizi bildirməkdən şərəf duyuram. Dağlıq Qarabağı və onu əhatə edən 7 rayonu işğaldan azad etmək üçün başladığınız haqq işində Türkiyə xalqı ilə yanaşı, bizim də ürəyimiz Azərbaycan xalqı ilə birlikdə döyünür. Allahdan müqəddəs niyyətinizə çatmaq üçün xalqınıza kömək olmasını, ölkənizin daim çiçəklənmə və tərəqqi yolunda inkişaf etməsini arzulayıram. Allahın mərhəməti daim üzərinizdə olsun. Xeyirli dualarımız sizlərdən əskik deyil".

# *Ukrayna vətəndaşı Prezidentə yazır:* "Azərbaycanın işğal olunmuş ərazilərinin erməni barbarlarından azad edilməsində biz də iştirak etməyə hazırıq"

Razılığınız olarsa, Azərbaycanın işğal olunmuş ərazilərinin erməni barbarlarından azad edilməsində biz də könüllü kimi iştirak etməyə hazırıq. AZƏRTAC xəbər verir ki, bu sözləri Ukraynanın Kropivnitski şəhərindən Qorovaya Natalya Vasilyevna Azərbaycan Prezidenti İlham Əliyevə yazdığı məktubda qeyd edib.

Məktubda deyilir: "Hörmətli Prezident, cənab Ali Baş Komandan, Ukrayna Azərbaycanlıları Konqresində tanışım var. Onun vasitəsilə Azərbaycanı və azərbaycanlıları daha yaxından tanımışam. Bu məktubu yazmağıma da əsas səbəb Azərbaycana və azərbaycanlılara olan məhəbbətimdir. Razılığınız olarsa, Azərbaycanın işğal olunmuş ərazilərinin erməni barbarlarından azad edilməsində biz də könüllü kimi iştirak etməyə hazırıq. Sizin əmrinizi gözləyirik və Azərbaycana gəlməyə hər zaman hazırıq. Biz Sizə güvənirik".

# Azərbaycan öz ərazisində beynəlxalq hüququ bərpa edir

## Azərbaycan Prezidentinin köməkçisi Türkiyədə akkreditə olunmuş aparıcı xarici KİV nümayəndələrinə videoformatda brifinq verib




Azərbaycan Respublikası Prezidentinin köməkçisi-Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Türkiyə Respublikasında akkreditə olunmuş dünyanın aparıcı xarici KİV nümayəndələrinə (Wall Street Journal, Reuters, Voice of America, New York Times, CNN International, Politico, Deutsche Well, El Pais, El Periodico, ORF, Bloomberg və Journo) videoformatda mətbuat brifinqi verib.

AZƏRTAC xəbər verir ki, Ermənistan silahlı qüvvələrinin son təxribatları barədə məlumat verən Hikmət Hacıyev cəbhəboyu zonada yerləşən mövqelərimizin və yaşayış məntəqələrimizin qəsdən intensiv surətdə atəşə tutulduğunu bildirib.

Mülki əhali arasında həlak olan və yaralananların olduğunu təəssüflə bildirən Prezidentin köməkçisi indiyədək 2-si azyaşlı olmaqla 10 nəfərin həlak olduğunu və 30 nəfərin yaralandığını qeyd edib.

Habelə Hikmət Hacıyev ordumuzun əsas məqsədinin Ermənistanın növbəti hərbi təcavüzünün qarşısının alınması, mülki əhalinin təhlükəsizliyinin təmin edilməsi, ələlxüsus ölkəmizin beynəlxalq səviyyədə tanınmış ərazi bütövlüyünün təmin edilməsi olduğunu bildirib.

Daha sonra Prezidentin köməkçisi jurnalistlərin suallarını cavablandırıb və onları Azərbaycana dəvət edib.

## Azərbaycan Xarici İşlər nazirinin Latviya, Litva və Niderland xarici siyasət idarələrinin rəhbərləri ilə telefon danışığı olub







Sentyabrın 29-da Xarici İşlər naziri Ceyhun Bayramovun Latviya Respublikasının Xarici İşlər naziri Edqars Rinkeviç ilə telefon danışığı olub.

XİN-in Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, nazir Edqars Rinkeviç son günlər cəbhə bölgəsində yaşanan son dərəcə gərgin vəziyyət ilə bağlı narahat olduğunu bildirib və hazırkı durum ilə maraqlanıb.

Nazir Ceyhun Bayramov Ermənistan rəhbərliyinin son aylar ərzində həyata keçirdiyi təxribatçı fəaliyyəti, o cümlədən Tovuz istiqamətində hücum cəhdi, diversiya-kəşfiyyat qrupunun təxribatı Azərbaycanın işğal edilmiş ərazilərində qanunsuz məskunlaşdırma siyasəti, eləcə də digər təxribatçı addımlar barədə həmkarına məlumat verərək, beynəlxalq ictimaiyyət tərəfindən Ermənistanın bu qanunsuz fəaliyyətinə lazımi reaksiyanın göstərilməməsinin işğalçı ölkənin 27 sentyabr tarixində yeni təcavüz aktına imkan yaratdığını bildirib.

Diqqəti xüsusilə Ermənistan silahlı qüvvələrinin azərbaycanlı mülki əhalini hədəfə aldığına yönəldən nazir, bu halın beynəlxalq humanitar hüququn kobud şəkildə pozulması və müharibə cinayəti olduğunu vurğulayıb. Bölgədə yaşanan gərginliyə görə məsuliyyətin tam şəkildə Ermənistanın üzərində olduğu bildirilib.

* * *

Sentyabrın 29-da Azərbaycan Respublikasının Xarici İşlər naziri Ceyhun Bayramovla Litva Respublikasının Xarici İşlər naziri Linas Linkeviçyus arasında telefon danışığı olub.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, litvalı nazir Linas Linkeviçyus bölgədə gərginliklə bağlı narahatlığını ifadə edərək atəşkəsə riayət olunmasının vacibliyini vurğulayıb.

Nazir Ceyhun Bayramov Azərbaycan Silahlı Qüvvələrinin Ermənistan tərəfinin yeni hərbi təcavüzünə cavab olaraq ölkəmizin beynəlxalq səviyyədə tanınmış sərhədləri çərçivəsində əks-həmlələr həyata keçirdiyini bildirib.

Ermənistan silahlı qüvvələrinin Azərbaycanın mülki şəxslərini və obyektlərini hədəfə aldığını litvalı həmkarının diqqətinə çatdıran C.Bayramov bunun beynəlxalq humanitar hüququn növbəti dəfə kobud şəkildə pozulması olduğunu vurğulayıb.

Həmçinin bölgədə davamlı sülhün və təhlükəsizliyin təmin edilməsi üçün Ermənistanın işğalçı siyasətinə son qoyulmasının zəruriliyi vurğulanıb.

* * *

Sentyabrın 29-da Xarici İşlər naziri Ceyhun Bayramovun Niderland Xarici İşlər naziri Stef Blok ilə telefon danışığı olub.

XİN-in Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, bölgədə davam edən gərgin vəziyyətdən narahatlığını ifadə edən Niderland Xarici İşlər naziri tərəfləri təmkinli davranmağa çağırıb və hazırkı vəziyyəti sorğu edib.

Öz növbəsində nazir Ceyhun Bayramov həmkarına Ermənistan silahlı qüvvələrinin növbəti təcavüz aktı barədə məlumat verərək bölgədə yaşanan bu gərginliyin kökündə Ermənistanın davam edən işğalçılıq siyasətinin durduğunu vurğulayıb.

Azərbaycanlı mülki şəxsləri və obyektləri məqsədyönlü şəkildə hədəfə alan Ermənistan tərəfinin bu dəfə də beynəlxalq humanitar hüququ kobudcasına pozaraq dinc əhalini artilleriya atəşinə tutduğu və nəticədə Azərbaycanın mülki əhalisi arasında itkilərin olduğu qarşı tərəfin diqqətinə çatdırılıb.

Telefon danışığı zamanı Azərbaycan silahlı qüvvələrinin öz beynəlxalq tanınmış sərhədləri çərçivəsində mülki əhalinin təhlükəsizliyini təmin etmək üçün düşmən qüvvələrinə qarşı cavab tədbirləri gördüyü və BMT TŞ qətnamələrinin tələbləri başda olmaqla beynəlxalq təşkilatların qərarlarının yerinə yetirilməsinin vacibliyi vurğulanıb.

## Azərbaycan Ağsaqqallar Şurasının VIII qurultayı keçirilib

### Ağsaqqallar Prezident İlham Əliyevin dövlətçiliyimizin qüdrətlənməsi, torpaqlarımızın işğaldan azad olunması istiqamətində apardığı məqsədyönlü siyasəti hər zaman dəstəkləyirlər

Sentyabrın 29-da Azərbaycan Ağsaqqallar Şurasının (AAŞ) videokonfrans formatında növbədənkənar VIII qurultayı keçirilib. Qurultayda Şuranın üzvləri, dövlət və hökumət rəsmiləri, Milli Məclisin deputatları iştirak ediblər.



AZƏRTAC xəbər verir ki, Milli Məclisin deputatı, akademik Əhliman Əmiraslanov qurultayı açaraq cəbhə bölgəsində sentyabrın 27-dən başlayan erməni təxribatından danışıb. O, rəşadətli Azərbaycan Ordusunun Ermənistan silahlı birləşmələrinə qarşı həyata keçirdiyi uğurlu əks-hücum əməliyyatlarının vətəndaşlarımızda qələbə əzmini, ruh yüksəkliyini daha da artırdığını və hər kəsin, o cümlədən ağsaqqalların əsgərlərimizin yanında olduğunu bildirib.

Şuranın ötən qurultaydan sonra vəfat etmiş sədri Fəttah Heydərovun, eləcə də dünyasını dəyişmiş digər şura üzvlərinin, torpaqlarımızın ərazi bütövlüyü uğrunda şəhid olmuş oğul və qızlarımızın xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Gündəliyə uyğun olaraq, əvvəlcə AAŞ-ın yeni redaksiyada işlənmiş nizamnaməsi səsə qoyularaq təsdiqlənib.

Sonra çıxış edən Prezident Administrasiyasının şöbə müdiri Ədalət Vəliyev qurultay iştirakçılarına dövlət başçısı İlham Əliyevin təbrikini çatdırıb.

Ədalət Vəliyev Ermənistanın cəbhə xəttində törətdiyi hərbi təxribatdan danışıb, Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə şanlı Azərbaycan Ordusunun qarşıya qoyulan tapşırığı layiqincə yerinə yetirəcəyinə əminliyini bildirib.

"Prezident İlham Əliyevin ağsaqqallarımızdan gözləntisi hər zaman xalqın arasında, haqqın yanında olmaları, milli birliyə xidmət etmələri, xalqımızı qələbəyə ruhlandırmalarıdır", - deyən Ədalət Vəliyev ağsaqqalların gənclərin vətənpərvərlik ruhunda tərbiyə olunmasında yaxından iştirak etmələrinin əhəmiyyətini vurğulayıb. "Prezidentin ağsaqqallardan digər gözləntiləri Azərbaycan xalqının milli-mənəvi dəyərlərini, Ulu Öndər Heydər Əliyevin azərbaycançılıq məfkurəsini gələcək nəsillərə çatdırmaqdır. İnanırıq ki, Ağsaqqallar Şurası bu istiqamətdə səylərini daha da artıracaq", - deyə şöbə müdiri qeyd edib.

Milli Məclisin deputatı, professor Eldar Quliyevin böyük təşkilatçılıq və idarəçilik qabiliyyətinə malik olduğu vurğulanıb və Azərbaycan Ağsaqqallar Şurasının sədri vəzifəsinə onun namizədliyi irəli sürülüb.

Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadə çıxışında son günlər doğma torpaqlarımızın erməni işğalından azad olunması uğrunda haqq mücadiləmizdə qazandığımız zəfərlərin davamlı olmasını arzulayıb, Uca Yaradanın nəzərində ən uca mərtəbə olan şəhidlik zirvəsinə yüksələn qəhrəman övladlarımıza Allah-Təaladan rəhmət diləyib. Allahşükür Paşazadə Şuşa məscidindən azan səsinin eşidiləcəyi günü səbirsizliklə gözlədiyini vurğulayıb.

O, E.Quliyevin cəmiyyətdə böyük nüfuza malik olduğunu vurğulayaraq qarşıda duran vəzifələri uğurla yerinə yetirəcəyinə əminliyini bildirib.

Milli Məclisin deputatları Eldar İbrahimov, Ziyad Səmədzadə və Əhliman Əmiraslanov çıxışlarında ağsaqqallarımızın cəmiyyətdəki rolundan danışıb, AAŞ sədri vəzifəsinə E.Quliyevin namizədliyini dəstəkləyiblər.

Sonra Eldar Quliyevin AAŞ sədri vəzifəsinə təsdiqlənməsi təklifi səsə qoyulub və qəbul olunub.

Ağsaqqallar Şurasının yeni sədri çıxış edərək ona göstərilən etimada görə minnətdarlığını bildirib. Qeyd edib ki, vaxtilə Ulu Öndərimiz Heydər Əliyevin respublika ağsaqqallarına göstərdiyi diqqət və qayğını bu gün Prezident İlham Əliyev davam etdirir. Azərbaycanın sürətlə inkişaf etdiyini, əhalinin rifah halının günbəgün yaxşılaşdığını vurğulayan AAŞ sədri deyib ki, ağsaqqallar Prezident İlham Əliyevin dövlətçiliyimizin qüdrətlənməsi, torpaqlarımızın işğaldan azad olunması istiqamətində apardığı məqsədyönlü siyasəti hər zaman dəstəkləyirlər.

Eldar Quliyev son günlər cəbhədə baş verən hadisələrə də toxunub, erməni təxribatını pisləyərək Azərbaycan əsgərinin Ali Baş Komandanın rəhbərliyi ilə düşmənə layiqli cavab verdiyini deyib, tezliklə qələbə xəbərini eşidəcəyimizə əminliyini ifadə edib. O, AAŞ-ın sədri kimi fəaliyyəti dövründə gənclərimizin vətənpərvərlik ruhunun yüksəldilməsi istiqamətində addımlar atılacağını, ağsaqqalların bölgələrə səfərlərinin təşkil olunacağını, hərbi hissələrdə müntəzəm görüşlər keçiriləcəyini bildirib.

Daha sonra Azərbaycan Ağsaqqallar Şurasının İdarə heyətinin üzvləri seçilib və gündəlikdəki digər məsələlərə baxılıb.

Qurultayda Azərbaycan Prezidenti İlham Əliyevə müraciət qəbul olunub.

## Azərbaycanın Baş prokuroru Rusiyanın Baş prokuroruna müraciət edib

Azərbaycan Respublikasının Baş Prokurorluğu Rusiyanın bir sıra kütləvi informasiya vasitələrində və sosial media səhifələrində Rusiya erməniləri İttifaqının rəhbəri Ara Abramyanın bu ölkədə yaşayan 20 minə yaxın erməni soydaşını könüllü qismində Dağlıq Qarabağ ərazisinə Rusiyadakı erməni diasporunun köməyi ilə göndəriləcəyinə dair bəyanatı ilə bağlı məlumat yayıb.

Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a daxil olan məlumatda bildirilib ki, bundan başqa, Yaxın Şərq və Mərkəzi Asiya ölkələrinin öyrənilməsi üzrə Mərkəzin sədri Semyen Baqdasarovun "Vzqlyad" qəzetində Azərbaycanın mülki əhalisinin yaşadığı Gəncə şəhəri və Daşkəsən rayonu ərazilərinin, o cümlədən beynəlxalq strateji əhəmiyyət kəsb edən Bakı-Ceyhan qaz kəmərinin atəşə tutulması barədə çıxışı da yer alıb.

Bununla bağlı Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyev Rusiya Federasiyasının Baş prokuroru İqor Krasnova və İstintaq Komitəsinin sədri Aleksandr Bastrıkinə rəsmi müraciət edərək bildirib ki, sentyabrın 27-dən başlayaraq təcavüzkar Ermənistanın hərbi-siyasi rəhbərliyi təxribatçı əməllərini davam etdirərək beynəlxalq humanitar hüququn əsas norma və prinsiplərini kobud şəkildə pozmaqla, o cümlədən Cenevrə Konvensiyası və BMT-nin Təhlükəsizlik Şurasının qərarları ilə üzərinə düşən öhdəlikləri yerinə yetirməyərək dinc Azərbaycan əhalisinin sıx yaşadığı əraziləri ağır artilleriyadan atəşə tutub, nəticədə mülki əhali arasında ölən və yaralananlar var.

Müraciətdə həmçinin göstərilib ki, hədəf kimi əhalinin kompakt olduğu məntəqələr - rayon və kənd mərkəzləri, mülki infrastruktur obyektlər - xəstəxanalar, tibb məntəqələri, məktəb binaları, uşaq bağçaları seçilir.

Hazırkı vəziyyəti və yuxarıda qeyd edilənləri nəzərə alaraq, Baş prokuror Azərbaycan Respublikasının ərazi bütövlüyünə qarşı yönəlmiş təcavüzkar siyasəti yürüdən, o cümlədən bəyanatlarında Rusiya Federasiyasının Cinayət Məcəlləsinin 208.1-ci (federal qanunla nəzərdə tutulmayan silahlı birləşmənin yaradılması, habelə belə bir qurumun rəhbərliyi və ya onun maliyyələşdirilməsi), 205.2.2-ci (KİV istifadə edilməklə terror fəaliyyətlərinə, terrorizmin ictimai əsaslandırılmasına və ya terrorizmin təbliğinə açıq çağırışlar), 280.2-ci (KİV istifadə edilməklə ekstremist fəaliyyətə açıq çağırışlar), 282.2 "b" bəndi (nifrət və ya düşmənçiliyin qızışdırılması, habelə insan ləyaqətinin alçaldılması), 359.3-cü (muzdluluq) və digər maddələrində nəzərdə tutulmuş cinayətlərin törədilməsinə açıq çağırışlara yol verən şəxslər və təşkilatlar barəsində qanuni tədbirlərin görülməsini xahiş edərək, məsələni şəxsi nəzarətlərinə götürülməsinə ümidvar olduğunu bildirib.

## Beynəlxalq qurumları qadın və uşaqların pozulmuş hüquqlarının bərpası üçün zəruri addımlar atmağa çağırırıq

Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin Ermənistan silahlı qüvvələrinin həyata keçirdiyi hərbi təxribatlar zamanı qadın və uşaqların hüquqlarını pozması və qətlə yetirməsinə dair bəyanat yayıb.

Dövlət komitəsindən AZƏRTAC-a bildiriblər ki, bəyanatda deyilir: "Məlum olduğu kimi, sentyabrın 27-si saat 06:00-dan başlayaraq Ermənistan Azərbaycana qarşı növbəti təxribat törədib.

Əvvəllər də atəşkəs rejimini dəfələrlə pozan Ermənistan silahlı birləşmələri bu dəfə bütün təmas xətti boyu hücuma keçərək Azərbaycan mövqelərini, yaşayış məntəqələrini müxtəlif növ silah və artilleriya qurğularından intensiv şəkildə atəşə tutmaqda, mülki və hərbi obyektlərə ciddi ziyan vurmaqda davam edir.

Bu hərbi təcavüz nəticəsində məqsədyönlü şəkildə hədəfə alınan mülki əhali arasında xüsusilə qadın və uşaqların yaralanması və qətlə yetirilməsi erməni vandalizmini bir daha dünya ictimaiyyətinə nümayiş etdirməkdədir.

Sentyabrın 27-də Ermənistan silahlı qüvvələrinin dinc əhalini atəşə tutması nəticəsində Naftalan rayonunun Qaşaltı kəndinin sakini, 1951-ci il təvəllüdlü Qurbanov Elbrus və onun dörd ailə üzvü, 1956-cı il təvəllüdlü Qurbanova Şəfayət, 2006-cı il təvəllüdlü Qurbanova Fidan, 2007-ci il təvəllüdlü Qurbanov Şəhriyar və 1981-ci il təvəllüdlü Əmirova Afaq həlak olub, ümumilikdə 30 nəfər mülki şəxs yaralanıb.

Bu hadisələr Ermənistanın iyulun 12-də dövlət sərhədinin Tovuz rayonu istiqamətində törətdiyi zorakı və təcavüzkar əməllərinin davamı kimi qiymətləndirilir.

Ermənistan tərəfinin beynəlxalq sənədlərdən irəli gələn öhdəlikləri yerinə yetirməyərək "Müharibə zamanı mülki əhalinin müdafiəsi" haqqında Cenevrə Konvensiyasının, BMT-nin Uşaq Hüquqları Konvensiyasının, ümumilikdə insan hüquqları sahəsində digər mühüm sənədlərin müvafiq müddəalarına əməl etməməsi növbəti dəfə beynəlxalq humanitar hüququn norma və prinsiplərini kobudcasına pozduğunu və müharibə cinayətlərini davam etdirdiyini sübuta yetirir.

Azərbaycan Silahlı Qüvvələri Ermənistanın təcavüz aktına cavab olaraq əks-hücum əməliyyatlarını həyata keçirərək, mülki əhaliyə, qadınlara və uşaqlara qarşı müharibə aparmadığını bəyan edir.

Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi olaraq dünya ictimaiyyətini, eləcə də aidiyyəti beynəlxalq təşkilatları, BMT-nin Təhlükəsizlik Şurasının 822, 853, 874 və 884 saylı qətnamələrini yerinə yetirməyən, BMT Baş Assambleyasının 2006 və 2008-ci illərdə qəbul olunmuş "Azərbaycanın işğal olunmuş ərazilərində vəziyyət" adlı qətnamələrinə, BMT-nin "Uşaq Hüquqları haqqında" Konvensiyasına, BMT Təhlükəsizlik Şurasının "Silahlı münaqişələr zamanı uşaqların qorunması tədbirləri haqqında" qətnaməsinə məhəl qoymayan Ermənistanın Azərbaycan ərazisində törətdiyi cinayətlərə seyrçi qalmamağa, eyni zamanda, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi nəticəsində mülki əhalinin, xüsusən də qadın və uşaqların pozulmuş hüquq və azadlıqlarının bərpası istiqamətində üzərilərinə düşən zəruri addımları atmağa və müvafiq tədbirlər görməyə çağırırıq".

## Dağlıq Qarabağın azərbaycanlı icması Ermənistanın müharibə və siyasi cinayətləri barədə beynəlxalq təşkilatlara müraciət ünvanlayıb

Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı icması təmas xəttində Ermənistan silahlı qüvvələrinin həyata keçirdikləri müharibə və siyasi cinayətlərlə əlaqədar beynəlxalq təşkilatlara müraciət ünvanlayıb.

İcmadan AZƏRTAC-a verilən məlumata görə, müraciətdə deyilir ki, icma təmas xəttində Azərbaycanın işğal altında olan ərazilərindən dinc əhalinin atəşə tutulduğunu və nəticədə mülki şəxslər arasında tələfat baş verdiyini, evlərin, çoxmənzilli yaşayış binalarının dağıdılması ilə bağlı faktları beynəlxalq təşkilatların diqqətinə çatdırıb.

Həmçinin azərbaycanlı dinc əhaliyə məxsus fərdi təsərrüfatların Ermənistan silahlı qüvvələrinin açdığı atəş nəticəsində zərər çəkdiyinə diqqət yönəldilib.

Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı icması Ermənistan-Azərbaycan münaqişəsinin həlli ilə bağlı indiyə qədər nüfuzlu beynəlxalq təşkilatların qəbul etdiyi sənədləri əsas götürərək Ermənistanın tərəfindən bu sənədlərin icrasına imkan yaradılmadığını xüsusilə qeyd edib.

İcma beynəlxalq təşkilatları təmas xəttində Ermənistan tərəfindən həyata keçirilən hərbi-siyasi cinayətlərə göz yummamağa çağırıb. İcma bəyan edib ki, beynəlxalq təşkilatların haqqı müdafiə etməməsi bu təşkilatların nüfuzuna böyük zərbə vurur.

## Azərbaycan-İtaliya parlamentlərarası işçi qrupunun rəhbəri İtaliya parlamentinin üzvlərinə təşəkkür məktubları ünvanlayıb

Azərbaycan-İtaliya parlamentlərarası işçi qrupunun rəhbəri Azər Kərimli İtaliya Senatının xarici əlaqələr daimi komissiyasının üzvü, iqtidar "5 Ulduz Hərəkatı" partiyasından olan senator Canluka Ferraraya, İtaliya parlamentində İtaliya-Azərbaycan Dostluq Assosiasiyasının sədri, "Liqa" partiyasından olan deputat Rossana Boldiyə, İtaliya-Azərbaycan Parlamentlərarası Dostluq Qrupunun sədri, İtaliya Senatının xarici əlaqələr daimi komissiyasının üzvü, "Liqa" partiyasından olan senator Stefano Lucidiyə, İtaliya Senatında "İrəli İtaliya" siyasi qrupunun sədr müavini, İtaliya-Azərbaycan Parlamentlərarası Dostluq Assosiasiyasının sədr müavini, senator Maria Rizzotiyə və İtaliya Senatının "Yaşasın İtaliya" partiyasından olan üzvü, senator Mauro Marinoya məktublar ünvanlayıb. Bu barədə AZƏRTAC-a Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən bildirilib.

Ermənistanın silahlı qüvvələri tərəfindən Azərbaycana qarşı törədilən hərbi təxribatlarla bağlı ədalətli mövqeyə görə minnətdarlığını bildirən Azər Kərimli qeyd edib ki, İtaliya parlamentinin adıçəkilən üzvləri tərəfindən Azərbaycan Respublikasının ərazi bütövlüyü və suverenliyini dəstəkləməkdə dəyişməz mövqeyin ifadə olunması yüksək qiymətləndirilir. "Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə haqlı münasibətiniz beynəlxalq hüquqa hörmətin bariz nümunəsidir. Bu cür dəstək münaqişənin beynəlxalq səviyyədə qəbul olunmuş norma və prinsiplər çərçivəsində həllinə kömək edəcək. Bütün beynəlxalq ictimaiyyətin eyni mövqedən çıxış edəcəyinə və ədaləti dəstəkləmək üçün səslərini yüksəldəcəyinə ümid edirik", - deyə məktublarda qeyd olunur.

## Türkiyə Konstitusiya Məhkəməsinin sədri Ermənistanın Azərbaycana qarşı növbəti hərbi təxribatını pisləyib

Sentyabrın 29-da Türkiyə Respublikası Konstitusiya Məhkəməsinin sədri Zühtü Arslan Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin sədri Fərhad Abdullayevə telefonla zəng edib.

Konstitusiya Məhkəməsinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, telefon danışığı zamanı Zühtü Arslan Ermənistanın Azərbaycana qarşı növbəti hərbi təxribatını pisləyərək, Türkiyə Konstitusiya Məhkəməsinin kollektivi adından qardaş Azərbaycanın Vətən uğrunda şəhid olmuş əsgərlərinin, dinc əhalinin erməni işğalçıları tərəfindən qətlə yetirilməsindən kədərləndiyini bildirib və Azərbaycan xalqına dərin hüznlə başsağlığı verib, Türkiyənin daim Azərbaycan xalqının yanında olduğunu vurğulayıb.

Sədr Fərhad Abdullayev türkiyəli həmkarına təşəkkürünü bildirərək Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmiş torpaqların Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın şanlı ordusu tərəfindən tezliklə azad olunacağına, insanlığa qarşı törədilmiş cinayətlərə görə erməni separatçılarının beynəlxalq hüquqa əsasən məsuliyyət daşıyacaqlarına və azad ediləcək ərazilərdə Azərbaycan Konstitusiyasının hüquqi qüvvəsinin bərpa ediləcəyinə əminliyini bildirib.

Sədr Zühtü Arslan Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin birgə səyləri nəticəsində bölgədə ədalətin zəfər çalacağına və qardaş ölkənin ərazi bütövlüyünün tezliklə bərpa olunacağına Türkiyə Konstitusiya Məhkəməsinin bütün hakim korpusunun inamını ifadə edib.

# Torpaqların işğaldan azad olunması uğrunda Vətən müharibəsi başlayıb

*Əvvəli 1-ci səh.*




Azərbaycan xalqını işğalla barışdırmaq, sülh gözləyə-gözləyə torpaqların erməniyə verilməsinə alışdırmaq yolunu tutdular!

**Torpağı işğalda olan xalqa və dövlətə müharibəni qadağan etməyə, tutuquşu kimi “münaqişənin yalnız bircə həlli yolu var - o da sülh yoludur” söyləməklə məsələnin uzanmasına, bəlkə də unudulmasına açıq-aşkar cəhdlər göstərdilər.**

Hətta bəzi “din qardaşlarımız” düşmənə dəstək vermək, silah satmaq kimi addımlar belə atdılar!

Harınlamış düşmən isə dinc dayanmadı, Mingəçevir Su Anbarını, Gəncə şəhərini raketlə vurub dağıdacağı barədə təhdidlər etməyə başladılar.

*“Yeni müharibə, yeni torpaqların zəbti” çağırışı ilə hədə-qorxu gəldi!*

*2016-cı ilin aprelində təxribat yolu ilə hərbi əməliyyata başladı.*

*2020-ci ilin iyulunda dövlət sərhədini pozaraq yeni əraziləri tutmaqla Azərbaycana məxsus transmilli boru kəmərlərini və dəmir yolu xəttini dağıtmağa, ələ keçirməyə can atdı.*

**Dözdük, gözlədik, “sülh yolu”na inanmaq istədik!**

**Qaradan artıq rəng olmur!**

Cəzasız qalacağına, işğal etdiyi torpaqları geri qaytarmayacağına əmin olan düşmən təhdid və hədələrini növbəti dəfə reallaşdırmaq üçün 27 sentyabr saat 06.00-da silaha əl ataraq bütün istiqamətlərdə Azərbaycan ərazisini, yaşayış məskənlərini və mülki obyektləri artilleriya atəşinə tutdu!

Bu, düşmən tərəfindən atəşkəsin ciddi şəkildə pozulması və hərbi əməliyyatların başlanması demək idi!

**Beləliklə, cavab vermək zorunda qalan Azərbaycan xalqı Qarabağı azad etmək uğrunda Vətən müharibəsinə başladı!**

**Ali Baş Komandan xalqımızın və ordumuzun çoxdan gözlədiyi “İrəli” əmrini verdi!**

❖ ❖ ❖

**Azərbaycan əsgəri, indi söz sənindir!**

**Azərbaycan xalqına nəyə qadir olduğunu göstərmək, müqəddəs Vətən torpaqlarını murdar ləpirlərdən təmizləmək zamanıdır!**

*Səbri qəzəblə, kini, nifrəti mərmi və güllə ilə əvəz etmək məqamıdır!*

*Əsir torpaqlar, xaraba yurdlar bizi çağırır!*

*Diplomatların bacarmadıqlarını sən etməlisən!*

*İndiyədək dözməyinin, gözləmək məcburiyyətində qalmağının əvəzini çıxmalısan!*

**Daha bundan o yanası yoxdur!**

**Hər birimiz müsəlləh əsgərə çevrilməliyik!**

**Ali Baş Komandanın, ordunun ətrafında yumruq kimi bir olmalıyıq!**

## ÜMİD SƏNƏDİR ANCAQ...

Biz torpaq uğrunda döyüşlərdə qanlar tökmüşük, qanımızı axıtmışıq!

Biz iyirmi min şəhid vermişik!

Biz Xocalı, Qaradağlı, Bağanis Ayrım soyqırımlarını yaşamışıq!

Biz yayda isti, qışda soyuq çadırlarda, qaçqın şəhərciklərində zülm və əziyyət çəkmişik, bəzən qeyri-insani şəraitdə yaşamışıq!

Ancaq nə doğma yurd-yuvanı unutmuşuq, nə də dədə-baba torpaqlarını erməniyə güzəştə getmək barədə düşünmüşük!

**Prezident İlham Əliyevə bütün varlığımızla inanmışıq, onun, yalnız onun bizi doğma el-obaya qaytaracağına əmin olmuşuq!**

❖ ❖ ❖

**Ali Baş Komandanımız bu ümidi və inamı doğrultmaq üçün yorulmadan, gecə-gündüz çalışdı!**

**Bir çox istiqamətlərdə mübarizə apardı, işlər gördü:**

- sülh danışıqlarının səmərəli və nəticəli olması üçün çox cabalar göstərdi;
- xalqımızın ədalətli mübarizəsini dünyaya çatdırdı, beynəlxalq qurum və təşkilatlarda dövlətimizin maraqlarını əzmlə müdafiə etdi;
- hücum diplomatiyasına start verərək bu sahədə uğurlarımızın təşkilatçısı oldu;
- vətənpərvər əsgər və zabitlərdən ibarət yüksək təlim görmüş, peşəkar, dünyanın əlli ordusu sırasında yer alan milli ordu yaratdı;
- Azərbaycan Ordusunun bütün ehtiyaclarını qarşıladı, daim kifayət qədər vəsait ayırdı, ən yeni texnologiyalara əsaslanan silahlarla silahlandırdı;
- dünyada özünəxas yeri, sözü və mövqeyi, imici olan müasir, qüdrətli Azərbaycan dövləti formalaşdırdı;
- düşmən dövləti və onun uğursuz başçısını bütün parametrlər üzrə ifşa edərək Azərbaycanın beynəlxalq hüquqa əsaslanan mövqeyini və haqq işini beynəlxalq ictimaiyyətə çatdırdı;
- ən nəhayət, yeni torpaqların işğalı iştahası ilə Azərbaycanla yenidən müharibəyə hazırlaşan Ermənistanı əks-hücumla darmadağın etməyin əsasını qoydu!

**Beləliklə, düşmənin “yeddi şərti”nə bir şərtlə - “Ermənistan qeyd-şərtsiz Azərbaycanın bütün ərazilərini tərk etməlidir” şərtilə cavab verərək “təmizləmə əməliyyatı”na başladı!**

İlham Əliyev xalqımızın inam və etibarını daim doğruldub, onun bütün arzu və istəklərini mərhələlərlə həyata keçirib!

Bu gün söz onun yaratdığı Azərbaycan Ordusunundur!

*Ümid sənədir ancaq, Ali Baş Komandanımız!*

*Ümid sənədir ancaq, Azərbaycan əsgəri!*

Xalq sizə və sizlərin bizə bəxş edəcəyi qələbəyə - böyük həsrət və səbirsizliklə gözlədiyimiz QƏLƏBƏYƏ lap qısa zamanda qovuşacağına inanır!

Allah sizləri qorusun!

**QARABAĞ AZƏRBAYCANDIR!**

**Bəxtiyar SADIQOV**

# Nədən narahatsınız

## 30 il Azərbaycan ərazisinin işğalına göz yumanlar indi özlərini “sülh göyərçinləri” kimi göstərirlər

Dövlət başçısı bu yaxınlarda yerli telekanallara müsahibəsində Dağlıq Qarabağ münaqişəsi, onun ətrafında cərəyan edən hadisələr və aparılan danışıqlar barədə Azərbaycan ictimaiyyətinə geniş məlumat vermişdir. Vurğulamışdır ki, həmişə xalqa aparılan danışıqlar barədə doğru məlumat verir və xalqdan heç nəyi gizlətmir.

Prezidentin açıqladığı faktlardan aydın olur ki, bu gün Ermənistana qeyri-ciddi, yalançı, siyasi cəhətdən naşı bir adam başçılıq edir. Paşinyan hələ bilmir ki, biznesdə olduğu kimi, siyasətdə də qarşı tərəfin etibarlı olub-olmamasını yoxlamaq üçün ona siyasi avans verilir, tərəflər arasındakı gələcək münasibətlər bu prinsip əsasında müəyyənləşdirilir. Əgər qarşı tərəf bunu düzgün dəyərləndirərsə, sonrakı əlaqələr bu etimad üzərində qurulur.

Əvəzində isə Ermənistanın yeni rəhbərliyi Azərbaycan hakimiyyətinin onlara verdiyi fürsəti nəinki düzgün qiymətləndirdi, əksinə, sələfləri Koçaryan və Sarkisyan hakimiyyətlərindən də çox radikallaşaraq “Qarabağ Ermənistandır və nöqtə” kimi sərsəm bəyanatla sülh danışıqlarını dalana saldı. Hələ bu azmış kimi, Azərbaycanın danışıqları tərəf kimi Dağlıq Qarabağdakı qondarma rejimlə aparmalı olduğunu bildirdi. Bu siyasi təlxəkdən soruşmaq lazımdır ki, əgər “Qarabağ Ermənistandır”sa, Azərbaycan nə üçün bu qondarma rejimlə danışıqlar aparmalıdır. Bu tezis o qədər cəfəngdir ki, həmişə işğalçı ilə işğala məruz qalan ölkə arasında bərabərlik işarəsi qoyan Minsk qrupunun həmsədrləri belə ona ciddi yanaşmırlar. Üstəlik, işğalçı ölkə heç bir siyasi və mənəvi haqqı çatmadığı halda danışıqlar aparmaq üçün Azərbaycanın mümkün olmayan yeddi şərti qəbul etməsini istəyir. Bu fakt bir daha erməni siyasi həyasızlığını sübut edir.

Ümumiyyətlə, müharibə çağırışı Ermənistanda tez-tez eşidilirdi. Prezident İlham Əliyev sözügedən müsahibəsində Paşinyanı ciddi şəkildə xəbərdar edərək bildirmişdir ki, bir daha Tovuz avantürasına cəhd edərsə, bu onun sonu olacaq: “Biz onlara sarsıdıcı zərbə endirdik... Dəqiq atəşlə onların dayaq məntəqələri məhv edildi. Bir daha demək istəyirəm ki, artıq Ermənistan ərazisinə keçmək üçün bizə heç bir hərbi maneə yoxdur. Mənə gün ərzində dəfələrlə məlumat verilirdi. Mənim bir sözümlə Azərbaycan Ordusu keçib oturacaqdı Ermənistanın ərazisində. Amma getmədik. Biz məsuliyyətli ölkəyik. Bu, birincisi. İkincisi, bizim hələ ki Ermənistan ərazisində hər hansı bir məqsədimiz yoxdur. Ancaq əgər bu təxribatlar davam etsə, əlbəttə ki, biz öz siyasətimizə yenidən baxacağıq”.

Təəssüf ki, Ermənistan tərəfi Prezident İlham Əliyevin ciddi xəbərdarlığından nəticə çıxarmadı. Əksinə, daha da azğınlaşaraq sentyabrın 27-də ölkəmizin cəbhəyanı ərazilərində yaşayan dinc sakinləri və Milli Ordumuzun mövqelərini atəşə tutdu. Ali Baş Komandanın əmri ilə ordumuz bu avantüraya son qoymaq üçün lazım olan tədbirləri görməyə qərar verdi. İndi ermənilərin “yeni torpaqlar uğrunda yeni müharibə” təxribatı onlara baha başa gəlir. Qüdrətli Azərbaycan Ordusunun sarsıdıcı zərbələri sayəsində düşmən işğal olunmuş torpaqlarımızdan qovulur. Dünənə qədər Azərbaycanı hədələyən, daha çox ərazilərimizin işğalı ilə bizi qorxutmaq istəyən ermənilər Silahlı Qüvvələrimizin gücü qarşısında aciz qalıblar. İndi onlar sülhdən danışır, atəşkəsə nail olmaq üçün dəridən-qabıqdan çıxırlar.

Halbuki Dağlıq Qarabağ münaqişəsi başlayan andan ölkəmiz səbr, təmkin göstərərək problemin sülh yolu ilə ədalətli həll edilməsinə çalışır, baxmayaraq ki, hər dəfə danışıqlarda müəyyən razılaşmalar yaxınlaşanda erməni tərəfi onu müxtəlif bəhanələrlə pozur. Bunu Minsk qrupunun həmsədrləri də yaxşı bilir. Ancaq onlar Ermənistana “gözün üstə qaşın var” demirlər. Ötən dövr ərzində Ermənistan işğal altındakı Dağlıq Qarabağla sərhəd bölgələrində müxtəlif təxribatlar törədib dinc Azərbaycan sakinlərini qətlə yetirəndə həmin Minsk qrupu bizi təmkinli olmağa çağırırdı. Hər dəfə ermənilər atəşkəsi pozanda tərəflərin hər ikisinə eyni məzmunda çağırış edirdi. Halbuki həmsədrlər və bu münaqişəni həll etməli olan dövlətlər təcavüzkara təpki göstərməli idilər.

İndi Azərbaycan Ordusu öz torpaqlarını erməni işğalçılarından azad etməyə başlayıb. Lakin həmsədr ölkələr və bir sıra beynəlxalq təşkilatlar yenə də tərəflərə atəşkəsi bərpa edib mənasız danışıqlara başlamağı təklif edirlər. Onlardan soruşmaq lazımdır ki, sizin ölkənizin dinc sakinləri başqa dövlətin ordusu tərəfindən qətlə yetirilərsə, təmkin göstərərsinizmi? Yaxud sizin təmsil etdiyiniz dövlətin 20 faiz demirik, 20 metr ərazisinin 30 il işğal altında qalmasına razı olarsınızmı? Əlbəttə, yox!

Bu gün bizi atəşkəsə səsləyən ölkələr 30 ilə yaxın aparılan danışıqların nəticəsiz qalmasından görəsən niyə narahat olmurdular? Onlar həmin müddətdə azərbaycanlıların doğma yurdlarından didərgin düşməsinə, ev-eşiklərinə qayıda bilməməsinə nə üçün laqeyd qalırdılar? Halbuki Azərbaycan dəfələrlə bəyan etmişdir ki, ölkəmizin ərazi bütövlüyü danışıqlar predmeti olmayıb və olmayacaqdır. Deməli, Azərbaycan heç vaxt işğalla barışmayacaq. Prezident, Ali Baş Komandan İlham Əliyevin əmri ilə sentyabrın 27-də Azərbaycan Ordusunun həyata keçirdiyi əks-hücum əməliyyatı məhz bunun təsdiqidir.

1994-cü ilin mayında Azərbaycan Ermənistanla atəşkəs barədə sənəd imzalayanda bu münaqişənin sülh yolu ilə beynəlxalq hüququn prinsiplərinə uyğun həll edilməsinin tərəfdarı olduğunu təsdiqləmişdir. İnanırdıq ki, məhz bu yolla işğal olunmuş ərazilərimiz azad ediləcək və məcburi köçkünlərimiz doğma yurdlarına geri dönəcək. Lakin Ermənistan bu günədək danışıqlarda qeyri-konstruktiv mövqe tutaraq ərazi bütövlüyümüzü qəbul etmir. Üstəlik, daha da həyasızlaşaraq bəyan edir: “Bu torpaqları qan töküb almışıq, heç kəsə bir qarış torpaq qaytarmayacağıq”.

Bu cür “danışıqlar”ın alternativi isə ərazilərin güc hesabına qaytarılmasıdır. Bunun belə olacağını bütün siyasi dairələr, politoloqlar dəfələrlə vurğulamışdı. Hamı qeyd edirdi ki, belə halda Azərbaycan müharibəyə başlaya bilər. Ancaq əksinə oldu. Danışıqları dayandıran da, müharibəyə başlayan da Ermənistan tərəfidir. Bu gün Azərbaycan Ordusunun əks-hücumu ermənilərə tərs şillə kimi dəyir. Aldığı zərbədən özünə gələ bilməyən Ermənistan indi hamıya yalvararaq atəşkəsə nail olmaq istəyir. Təəssüf ki, onların bu çağırışına səs verənlər tapılır. Onlar tərəfləri, əslində isə Azərbaycanı atəşkəsə çağırır. Bu həmin ölkələr və beynəlxalq təşkilatlardır ki, ermənilər Xocalıda soyqırımı törədib qoca, cavan, uşaq, qadın demədən qətliam törədəndə onlara nəinki “dur” dedilər, heç əməlli-başlı qınamadılar da.

Azərbaycan uzun illər Qarabağ münaqişəsinin dinc yolla həlli üçün öz ərazi bütövlüyü çərçivəsində təklif olunan şərtlərin əksəriyyətini qəbul edib. Lakin hər dəfə Ermənistan şıltaqlıq edərək daha həyasız tələblər irəli sürüb. Başqa sözlə desək, Azərbaycanın səbri ilə oynayıb və fikirləşməyib ki, səbrin də bir həddi var. Belə olan halda 30 il Ermənistanın nazı ilə oynayan ölkə və beynəlxalq təşkilatların bu gün özlərini “sülh göyərçinləri” kimi göstərmələri arxadan atılan daşa bənzəyir.

***Rüstəm KAMAL, “Azərbaycan”***

# Qələbəni yalnız güc yox, həm də hərbi sirlərin qorunması təmin edir

Sentyabrın 27-də Prezident İlham Əliyevin sədrliyi ilə keçirilən Təhlükəsizlik Şurasının iclası Azərbaycanın hərb tarixində məxfi sirlərin qorunması baxımından bir dönüş nöqtəsi, həm də unikal hadisə kimi yadda qalmalıdır. Məhz bu tədbirdə dövlət başçısı məxfiliyin qorunması məqsədi ilə iclasın ikinci hissəsinin qapalı keçiriləcəyini elan etdi.




Əgər yadınızdadırsa, iclas iki hissədən ibarət oldu. Birincidə dövlət başçısı diqqətə çatdırdı ki, əhaliyə hadisələrin gedişi ilə bağlı ətraflı və mütəmadi məlumat veriləcək. Prezident İlham Əliyev müharibə səhnəsindəki operativ hərbi vəziyyəti belə qiymətləndirdi: “Ordu quruculuğu mənim fəaliyyətimdə həmişə birinci yerdədir. Hərbçilər də, Azərbaycan xalqı da bunu bilir. Həmişə demişəm ki, ordumuz üçün nə lazımdırsa, biz onu da edəcəyik. Biz güclü, iradəli ordu yaratmışıq. Bizim bütün silahlı birləşmələrimiz müasir standartlara cavab verir və döyüş tapşırığını şərəflə, vicdanla, cəsarətlə yerinə yetirir. Bu gün əks-hücum əməliyyatında bizim müxtəlif silahlı birləşmələrimiz iştirak edir və vahid komandanın rəhbərliyi altında əks-hücum əməliyyatı uğurla gedir. Bütün silahlı birləşmələr arasında koordinasiya tam şəkildə təmin edilib”.

Birinci hissənin sonunda Prezident bildirdi ki, Təhlükəsizlik Şurasının bu tədbirinin qalan hissəsi qapalı rejimdə keçiriləcək: “Çünki müzakirə olunan məsələlərin bir çoxu hərbi sirr təşkil edir”. Azərbaycan Prezidentinin əks-hücum əməliyyatı zamanı məxfiliyin qorunmasına bu dərəcədə ciddi yanaşması növbəti sıravi addımlardan biri yox, qələbəni təmin edən ən ciddi amillərdəndir.

Belə ki, bütün müasir müharibələrdə məxfilik təşkil edən sirlərin qorunması təsadüfi deyil. Hər bir sirr bu gün yeri gələndə bombadan, raketdən də böyük dağıdıcı gücə malikdir. Kimin daha çox məxfi məlumat əldə edə bilməsi bütünlükdə müharibənin əvvəlinə də, gedişinə də, sonuna da ciddi təsir edir. Əvvəlki müharibələrdə hərbi qüvvələrin və silah-sursatın nə qədər önəmli rolu var idisə, bu gün geniş məlumat resurslarına sahib olmaq ondan daha faydalıdır. Məhz məxfiliyin qorunması və düşmənin gizli məlumatlarının ələ keçirilməsi qələbənin daha sürətlə əldə edilməsinə zəmin yaradır. Yəni gizli məlumatların əldə edilməsi düşmən üzərində döyüşlərin gedişində həlledici qələbə çalmağa imkan verir. İnformasiyaların idarə edilməsi, xəbərlərin sistem halında yayılması bir tərəf üçün faydalı, digəri üçün ziyanlı ola bilər.

Sadə müqayisələr aparaq. Şuşanın işğalı zamanı ovaxtkı hərbi rəhbərlik bu faktı bir neçə gün gizlətdi, ermənilər isə hər yana xəbər yaydılar ki, dinc erməni əhalisi Şuşaya qayıtdı və həmin görüntüləri də dünyaya göstərdilər. Bizim iki güc naziri bir neçə gün jurnalistlərə Şuşanın kimdə olması barədə məlumat verə bilmədi. Azərbaycan tərəfi bu faktı etiraf edəndə isə artıq həmin xəbər keçmiş hadisə kimi maraqsız idi.

1992-ci ildə erməni terror dəstələri Gədəbəy rayonunda azərbaycanlıların yaşadığı Mutudərə kəndini yandıranda Rəhim Qazıyevin mətbuat xidməti ora xarici jurnalistlərin təcili getməsini əngəlləsə də, bir neçə gün sonra ermənilər Başkəndi tərk edəndə hamıya çəkiliş etməyə icazə verdi. Beləliklə, dünyaya Azərbaycan müdafiə olunan yox, hücum edən tərəf kimi təqdim edildi. Bütün bu səbatsız addımlar sonda Qarabağın əldən getməsinə səbəb oldu.

Bu gün Azərbaycan dövləti mükəmməl informasiya müharibəsi aparır. Prezident İlham Əliyev son günlər işğalçı Ermənistanın Dağlıq Qarabağda təxribat hazırlaması barədə hər fakt üzə çıxdıqca bəyanatlar verir, dünyanın ən mötəbər kürsülərindən erməni qanunsuz hərbi birləşmələrinin təxribat planlarını son məqamadək ifşa edir. Bu isə Azərbaycana əks-hücum əməliyyatlarını maneəsiz həyata keçirməyə imkan verir. Vurulan zənglərin, verilən bəyanatların ardı-arası kəsilmir. Onlara cavab vermək, qarşılarında duruş gətirmək üçün titanik gücə malik olmaq lazımdır. Azərbaycan Prezidenti bu gücü bütün dünyaya nümayiş etdirir.

Düşmənin məxfi sirlərinin öyrənilməsi, onun aldadılması üçün tədbirlərin həyata keçirilməsi, real operativ vəziyyətin gizlədilməsi, psixoloji sarsıdıcı tədbirlərin görülməsi, bütün informasiya sistemlərinin və şəxsi heyəti iflic edən hərbi elektron sistemlərin tətbiq edilməsi, məlumat axınlarının dağıdılması da müasir müharibənin vacib şərtlərindəndir. İşğalçı Ermənistan özünü ağıllı bilirdi, hiyləgər sayırdı, qalib gələcəyinə əmin idi. Amma Prezident İlham Əliyevin şəxsi keyfiyyətləri, döyüşü qələbəyə aparmaq bacarığı erməni işğalçılarının dizini yerə qoyub.

Prezident İlham Əliyev hərbi sirr təşkil edən məlumatların qorunması üçün ciddi tədbirlər görmüşdür. Eyni zamanda cəbhə bölgəsindən yayımlanan məlumatlara sərt nəzarət mövcuddur. Sosial şəbəkələr isə bağlanmışdır. Ermənilər istəsələr belə nə orduya, nə də yerli əhaliyə qarşı təxribat xarakterli dezinformasiyalar yaya bilir. Ən vacib addımlardan biri də odur ki, birbaşa döyüşlərin aparıldığı ərazilərdə kütləvi informasiya vasitələrinə ciddi məhdudiyyətlər tətbiq edilir.

Bu günlə 1992-ci ildəki vəziyyəti müqayisə etmək yerinə düşərdi. O vaxt elə qarmaqarışıqlıq mövcud idi ki, dəfələrlə ən vacib sirlərin bilməyərəkdən düşmənə ötürülməsinə yerli televiziya verilişləri bais olurdu. Bir də görürdük gecə xəbərlərdə süjet göstərirlər ki, filan kənddə camaat əliyalındır. Səhər isə erməni yaraqlıları həmin kəndə soxulurdular. Ya da televiziyada göstərirdilər ki, filan yaşayış məntəqəsinin filan meşədən keçən cığırı kəndin həyat yoludur. Elə həmin gecə də erməni yaraqlıları adı çəkilən kəndə divan tuturdular.

Bu gün belə naşılıqlara yol verilmir, heç bir yoxlanılmayan xəbər, dəqiqləşdirilməyən məlumat efirə çıxmır.

Sosial şəbəkələrin internet resurslarının bağlanılması isə erməni təxribatlarının qarşısını almağa imkan yaradır. İndi hər jurnalist müharibə bölgəsinə yola düşə bilməz. Efirə gedən bütün xəbərlər bir mərkəzdən idarə olunur, məlumatlar Müdafiə Nazirliyinin Mətbuat xidməti tərəfindən yayılır. Bütün bunlar feyk xəbərlərin, dezinformasiya xarakterli məlumatların yayılmasının qarşısını alır.

***Bahadur İMANQULİYEV, “Azərbaycan”***

İki canda bir ürək

# “Yanındayıq, AZƏRBAYCAN”

## Silahlı Qüvvələrimizin uğurlu əks-hücumu Türkiyə mediasının gündəm mövzusudur

**Etibarlı strateji tərəfdaşlar olan Azərbaycan və Türkiyə arasında qarşılıqlı münasibətlərin daha da möhkəmlənməsi bu gün ölkələrimizin təkcə mövcud olduqları regionda yox, onun sərhədlərindən kənarda da əsas söz sahiblərindən biri kimi çıxış etməsinə səbəb olmaqdadır. İstər Azərbaycan Prezidenti İlham Əliyevin, istərsə də türkiyəli həmkarı Rəcəb Tayyib Ərdoğanın qarşılıqlı əlaqələrin inkişafına verdiyi diqqət və önəm iki ölkənin münasibətlərini daha möhkəm özüllər üzərində qurur.**

Bu mənada son günlər təmas xəttində erməni təxribatı nəticəsində baş verən hərbi əməliyyatların qardaş ölkənin xüsusi diqqət mərkəzində yer alması tamamilə təbii qarşılanır. Hər iki ölkənin prezidentlərinin müharibə ətrafında çıxışları Türkiyə KİV-in xüsusi diqqət mərkəzində yer alır, bu barədə onlarca teleşirkət, qəzet və internet portalı xəbərlər paylaşıblar.

Türkiyənin məşhur “Sabah” qəzeti “İşğal bitsin, barış gəlsin” başlıqlı xəbərini manşetdən verib. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın fikirlərinin geniş yer aldığı məqalədə qeyd olunur ki, Türkiyə bütün imkanları və bütün qəlbi ilə dost və qardaş Azərbaycanın yanında olmağa davam edəcək. Bölgədə sülhün və sabitliyin bərqərar olması üçün Ermənistan işğal etdiyi Azərbaycan torpaqlarından dərhal geri çəkilməlidir.

“Hürriyet” qəzetinin “Artıq hesab vaxtı gəldi” başlıqlı xəbərində Ermənistanın Azərbaycan kəndlərinə hücumu, Azərbaycan Ordusunun mülki əhalini qorumaq üçün cavab tədbirləri, Silahlı Qüvvələrin ilk zəfəri barədə məlumat verilir. Qeyd olunur ki, bölgədə Dağlıq Qarabağın işğalı ilə başlayan böhrana son qoyulmalıdır.

“Milli gazete” nəşri “Ermənistana son xəbərdarlıq” başlıqlı xəbərində Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın “Azərbaycan torpaqlarına hücum edən Ermənistanı bir daha sərt şəkildə qınayıram. Türkiyə bütün imkanları və bütün qəlbi ilə dost və qardaş Azərbaycanın yanında olmağa davam edəcək” fikirlərinə yer verib. Xəbərdə vurğulanır ki, Azərbaycanın uğurlu əks-hücum əməliyyatı ədalətsizliyə və 30 ilə yaxın davam edən işğala son qoyacaqdır.

“Türkgün” qəzeti “Ermənistan küncə sıxışdı” başlıqlı xəbəri oxuculara çatdırıb. Bildirilib ki, Ermənistan ordusunun hərbi təxribatına cavab olaraq Azərbaycan Silahlı Qüvvələri əks-hücuma keçib. Hərbi əməliyyatların uğurla davam etdirildiyini diqqətə çatdıran nəşr Prezident İlham Əliyevin “Əks-hücum nəticəsində Azərbaycanın işğal altında olan bir neçə yaşayış məntəqəsi işğalçılardan azad edilib, bir neçə strateji əhəmiyyətli yüksəklik Azərbaycanın nəzarətinə qaytarılıb” fikirlərinə yer verib.

“Yeni Şafak” qəzeti isə “Bu işə artıq son veriləcək” başlıqlı xəbərində oxuculara münaqişənin tarixi barədə məlumat verib. Qeyd olunub ki, tarixi torpağımız olan və bu gün beynəlxalq ictimaiyyətin Azərbaycanın tərkib hissəsi kimi tanıdığı Dağlıq Qarabağ regionu, onun ətrafındakı yeddi rayon 1991-ci ildə SSRİ dağıldıqdan sonra işğal edilib. Dağlıq Qarabağ məsələsi Azərbaycanın milli məsələsi, tarixi vəzifəsidir, işğala artıq son verilməlidir.

“Türkiyə” qəzeti “İşğalı bitirməyin vaxtı çatdı” başlıqlı xəbərində Rəcəb Tayyib Ərdoğanın İstanbulda keçirilən beynəlxalq Şərqi Aralıq dənizi simpoziumunda çıxışı zamanı səsləndirdiyi fikirlərə yer verib. Bildirilib ki, Ermənistanın işğal etdiyi Azərbaycan torpaqlarını dərhal tərk etməsi ilə bölgədə sülh və əmin-amanlıq bərqərar olacaqdır.

“Yeni akit” qəzeti “İndi hesab vaxtıdır” başlıqlı xəbəri manşetdən verib. Xəbərdə deyilir ki, hazırkı vəziyyət bölgədəki bütün böyük dövlətlərə real və ədalətli həll üsullarını tətbiq etmək imkanı verir. Otuz ildir bu problemin həlli üçün heç nə edilməyib. Azərbaycan istər-istəməz öz problemini özü həll etmək məcburiyyətində qalıb və bunun üçün hərəkətə keçib.

“Akşam” qəzeti “Ermənistan işğal altındakı torpaqları dərhal tərk etsin” başlıqlı xəbərində Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın Ermənistanın təxribatları ilə bağlı fikirlərini, qonşu dövlətlərin prosesə münasibətini diqqətə çatdırıb.

Qəzetlərdən “Karar” “İşğal bitsin, barış gəlsin”, “Milliyət” “Hər seçənək masada”, “Aydınlık” “Azərbaycanda Türkiyə də hədəf alınır”, “Cumhuriyyət” “Atəşkəs üçün çəkilin şərti”, “Yeni söz” “Səninləyiz, Azərbaycan”, “Diriliş postası” “O torpaqları dərhal tərk et”, “Milat” “Qardaşa tam dəstək” başlıqlı xəbərlərində yazılır ki, Ermənistan tərəfindən işğal olunmuş Azərbaycan ərazilərinin dərhal tərk edilməsi ilə bölgə yenidən sülh və əmin-amanlığa qovuşacaq. Vurğulanıb ki, hazırkı müharibə iki ölkə arasında 2016-cı ildən sonra ən ciddi qarşıdurmadır. Cari ilin iyulunda da iki ölkənin sərhədlərində hərbi toqquşma baş verib, nəticədə Azərbaycanın həm hərbçiləri, həm də mülki vətəndaşları arasında itkiləri olub.

***Elçin CƏFƏROV,***
***“Azərbaycan”***

















































## *Moldova portalı:* “Qarabağ Azərbaycandır!”

**Moldovanın nüfuzlu “Tribuna.md” portalı Ermənistan ordusunun təxribatları ilə əlaqədar AZƏRTAC-a istinadla Azərbaycan Prezidenti İlham Əliyevin Azərbaycan xalqına müraciətində əksini tapan fikirlərini dərc edib.**

Moldovalı jurnalist məqaləsində Prezident İlham Əliyevdən sitat gətirərək yazır: “Son vaxtlar Ermənistanın Azərbaycana qarşı hərbi təxribatları müntəzəm xarakter almışdır. Heç kəsə sirr deyil ki, ilk atəşi, o cümlədən artilleriya atəşini Ermənistan açıbdır və ilk həlak olanlar da məhz Azərbaycan hərbçiləri olmuşdur. Azərbaycan düşmənə layiqli cavabını verdi və düşmən bir santimetr irəliyə gedə bilmədi. Düşmən dayandırıldı, ölkəmizin ərazi bütövlüyü qorundu. Sarsıdıcı zərbələr nəticəsində Ermənistan tərəfi məcbur olub acı məğlubiyyətlə razılaşdı. Mən bu barədə demişəm, bir daha demək istəyirəm, əgər bizim istəyimiz olsaydı, hərbi döyüşləri Ermənistan ərazisinə keçirə bilərdik. Ancaq bizim Ermənistan ərazisində hərbi hədəflərimiz yoxdur və belə olan halda bir neçə gündən sonra atəş dayandırılmışdır”.

Məqalədə müəllif Azərbaycan Prezidentinin fikirlərinə istinadla qeyd edir ki, Azərbaycan torpaqlarının işğalı Ermənistan hakimiyyətinin planındadır və onlar bunu gizlətmirlər: “Onların hərbi-siyasi rəhbərliyi Azərbaycanı yeni işğalla hədələməyə çalışırdı, yeni ərazilər uğrunda yeni işğal siyasəti. Budur, bu gün Ermənistan hərbi-siyasi rəhbərliyinin siyasəti. Digər səbəb Ermənistanda mövcud olan çox ciddi sosial, iqtisadi və siyasi məsələlərdən ölkə əhalisinin fikrini yayındırmaq və Azərbaycandan düşmən obrazı yaratmaqdır. Daha bir səbəb isə ondan ibarətdir ki, Ermənistan hər vəchlə çalışır ki, danışıqlar prosesi pozulsun və deyə bilərəm ki, buna nail olub. Məhz Ermənistanın riyakar, qeyri-konstruktiv və yalançı siyasəti nəticəsində hazırda danışıqlar faktiki olaraq dayanıbdır. Növbəti təxribatın törədilməsi məhz bu məqsədləri güdür və bu məqsədlər onlar üçün əsas məqsədlərdir”.

# Ermənilər təşvişdə: «Uduzmuşuq. Şuşa boşalır»

## Azərbaycan Ordusunun təcavüzkara verdiyi son dərs Ermənistanda böyük qorxu, xaos və tam məğlubiyyət hissi yaradıb

Cəbhədə hazırda davam edən müharibə Azərbaycan Ordusunun gücünü, qüdrətini bir daha düşmənə əyani şəkildə nümayiş etdirməkdədir.

Düşmən çoxsaylı ciddi zərbələr alıb, xeyli sayda hərbi texnika və hərbi qulluqçu itirib. Ermənistanda açıq şəkildə etiraf edilir ki, son döyüşlərdə işğalçı tərəf çoxsaylı itkilərə məruz qalıb.

Bu günlərdə sosial şəbəkələrin ermənidilli seqmentini Ermənistan tərəfinin ciddi itkilər verməsi ilə bağlı paylaşımların müzakirəsi zəbt edib. Vurğulanır ki, yaralıların yerləşdirilməsi üçün Qarabağdakı hospitallarda yer qalmayıb və onlar helikopterlərlə, avtomobillərlə Yerevana göndərilir.

### “Həkim çatışmır, dərman yoxdur”

Sosial mediada paylaşılan statuslardan və yazılan şərhlərdən bəzilərini oxucuların diqqətinə çatdırırıq. Ermənilərin sosial şəbəkələrdə paylaşımları öz dillərində olmaqla yanaşı, həm də rus dilindədir və biz bunlardan istifadə etmişik.

Onu da əlavə edək ki, ermənilər sosial şəbəkələrdə saxta profillər açaraq yalan məlumatlar paylaşır və Azərbaycana qarşı kəşfiyyat-təxribat fəaliyyəti aparırlar.

Simon Sarkisyan “Facebook” sosial şəbəkəsində yazır ki, çox dəhşətli müharibə gedir: “Qardaşım oğlu işləri ilə əlaqədar Stepanakertdədi (Xankəndi - red.). Dünən deyir ki, informasiya qıtlığıdır. Erməni jurnalistlər məlumatları mülki vətəndaşlardan, tibb mərkəzlərindən, ölən əsgərlərin gətirildiyi kilsələrdən və ya təsadüfi şahidlərdən alırlar. Şahidlər isə dəhşətli faktlar açıqlayırlar. Bildirirlər ki, yaralıların sayı o qədərdir ki, onları daşımaq üçün helikopterlər çatmır, avtomobillərə yığıb aparırlar. Ona görə də onlar yolda ölürlər. Həkim çatışmır, dərman yoxdur”.

Albert Simonyan adlı “Odnoklassniki” isifadəçisi Xankəndidən video paylaşıb, əhalinin təşviş içində qaçdığını qeyd edir: “Demək olar ki, hamı zirzəmilərdə gizlənir. Bizim itkilərimiz, təkcə ölənləri hesaba alsaq, yüzdən çoxdur”.

### “Şuşada həyat ölüb”

Mane Martirosyan adlı “Twitter” sosial şəbəkə istifadəçisi yazır: “Özüm Ermənistanın Cermuk şəhərindənəm, ancaq bütün qohumlarım, o cümlədən anam Dağlıq Qarabağdadır. Onunla danışmışam, deyir ki, kişi əhalisi arasında səfərbərlik gedir. Deyəsən uduzmuşuq. Şuşa şəhəri bomboşdur, hamı evlərə sığınıb”.

Hasmik Baqdasaryan adlı “Facebook” istifadəçisinin müharibə ilə bağlı paylaşılan xəbərə rəyi diqqət çəkir: “Dostlar, çox qorxuludur. Cənub istiqamətdə - Hadrut tərəfdə də şiddətli döyüşlər gedir. Orada mənim əmim oğlanları və bacım yaşayır, anam onları oradan çıxarıb Şuşaya aparmağa çalışır. Əgər situasiya dəyişməsə, ola bilsin, uşaqları dəhlizlə Yerevan tərəfə çıxarsınlar. Şuşa şəhərində isə həyat, demək olar ki, ölüb. İnsanlar küçəyə çıxmır”.

Harut Qriqoryan tərəfindən “Odnoklassniki” sosial şəbəkəsində Füzuli rayonu istiqamətində gedən döyüşlərlə bağlı paylaşılan xəbərə Martin Qalstyan adlı istifadəçinin rəyi də maraqlıdır: “Aprel döyüşlərindən sonra növbəti qorxunu yaşayırıq. Yalanlardan cana doymuşuq. Niyə ölən əsgərlərimizin sayını düzgün demirsiniz? Stepanakertdə yaşayan bir tanışım deyir ki, çox itkilər verməşik. Nə vaxtacan belə davam edəcək? Paşinyan, niyə Sarkisyanın yolunu tutmusan? Görəsən, Paşinyan növbəti rəzilliyindən utanırmı?!”

### “Qaç, canını qurtar!”

Syuzi Xaçatryan adlı “Facebook” istifadəçisi paylaşdığı statusda bildirib ki, xalqın yalançı Paşinyana inamı artıq tamam tükənib: “Atam ehtiyatda olan hərbi zabitdir. Müharibəyə çağırırlar, gizlənib getmir. Deyir ki, Sarkisyandan sonra Paşinyan Ermənistan üçün nə edib? Hamısı müharibə adı ilə ciblərini doldurub. Gənclərin cəbhədə səbəbsiz ölümündə birbaşa təqsirkardırlar. Əsgər valideynləri, övladlarınızın boş yerə, yalançı rejimin maraqları naminə qurban getməsinə mane olun, etiraz edin”.

Ermənistanın baş naziri Nikol Paşinyanın “Facebook”da müharibə ilə bağlı çağırışına Vladislav Markaryanın rəyinə çoxlu reaksiya verilib: “Baş nazir, işiniz-gücünüz sosial şəbəkələrdə paylaşımlar etməkdir. Bizə müharibə lazım deyil, uşaqlarımızı çöldən tapmamışıq. Ayılın! Azərbaycan Stepanakerti geri qaytarmağa saatları sayır. Qaç, canını qurtar! Bu gedişlə Azərbaycan Yerevana kimi gələcək”.

Karen Mxitaryan adlı “Facebook” istifadəçisi yazır ki, çox qorxulu vəziyyətlə qarşılaşıblar. Vardenis şəhərindən olan müəllim qeyd edir ki, son günlər qarşı tərəf itkilər versə də, bizdə onlardan daha çoxdur: “Gizlədilir. Səbəbsiz uşaqlarımız ölümə göndərilir. Paşinyana çox inanırdıq, ümidimizi puç etməkdə davam edir. Şəxsən hər vasitəyə əl atıb uşağımı hərbi xidmətdən yayındırmışam”.

### “Yenə uduzuruq”

“Facebook” sosial şəbəkə istifadəçisi Davut Qasparyan yazır ki, xalqın sevimlisi olmaq istəyən Nikol Paşinyan da Serj Sarkisyan kimi Azərbaycan, onun rəhbərliyi qarşısında acizdir: “İlham Əliyev sonuncu bəyanatında Ermənistanla kifayət qədər sərt tonda danışdı, açıq şəkildə bildirdi ki, zəfər onların olacaq. Müharibə gedir, uduzuruq və indiyə qədər Paşinyan buna qarşı hansısa tutarlı cavab verə bilməyib. O, Serj Sarkisyandan qətiyyən fərqlənmir”.

Alla Hovsepyan adlı daha bir “Facebook” istifadəçisi də İlham Əliyevin ötən günlərdə xalqa müraciətinin yer aldığı xəbərə münasibət bildirib. Profilinə baxdıqda iqtisadçı olduğu nəzərə çarpan istifadəçi rəyində yazır: “Ötən zaman da göstərir ki, Azərbaycan istədiyinə daha sürətlə yaxınlaşır və bu səbəbdəndir ki, Bakı konkret niyyət və məqsədlər açıqlayır. Amma nəyə görəsə Paşinyan bu gün müharibədə uduzur və hələ də düşmən ölkəyə tutarlı cavab verə bilmir və yəqin ki, verə də bilməyəcək” (qəzəb işarəsi).

### “Qorxudan tez-tez öz mövqelərimizi də səhv salaraq atəşə tuturuq”

Şuşanik Vardanyan adlı birisi isə “Twitter”də yazıb: “Qardaşım oğlu Albertlə danışdım. Papravənddədir. Tanrıya şükürlər olsun, yaxşıdır. Amma mənə dedi ki, əmi, hazırda gedən müharibə səbəbindən yaranan qorxu hələ də canımızdadır. Texnikada çox geriyik. Azərbaycan ordusu hazırlıq baxımından bizdən çox irəlidədir. Baş nazir, nə oturmusan Yerevanda, Qarabağda sizi gözləyirlər”.

Henrix Saaryan adlı istifadəçinin “Twitter”də paylaşımı isə daha çox “retweet” olunub: “Dünən bir video yayılmışdı ki, azərbaycanlılar bizim postlarımızı götürüblər, bizim əsgərlərimizin meyitlərini gördüm. İndi nəyə inanaq, bilmirik”.

İxtisasca iqtisadçı olan Stepan Qriqoryan “Odnoklassniki” sosial şəbəkəsində yazır ki, acı həqiqət olsa da, demək lazımdır. Bu gün müharibə gedir və biz bir çox reallıqları bilməliyik: “Müdafiə Nazirliyində çalışan yaxın bir dostum dedi ki, hazırda orduda xidmətdən yayınma məqsədilə özünə xəsarət yetirmə, sui-qəsd də artıb. Vəziyyət hətta o yerə çatıb ki, hərbçilər qorxudan tez-tez öz mövqelərimizi də düşmənlə səhv salaraq atəşə tuturlar”.

Ermənistanda sosial şəbəkələrdə belə səpkidə şərhlərin və paylaşımların sayı kifayət qədərdir. Müharibədə məğlub vəziyyətdə olduqlarını artıq erməni cəmiyyəti də dərk edir.

***E.CƏFƏROV,***
***“Azərbaycan”***

# Müdafiə Nazirliyi xəbər verir

## Düşmənin çoxlu sayda canlı qüvvəsi, hərbi obyektləri və döyüş texnikaları məhv edilib

"İşğal olunan torpaqlarımızın düşmən tapdağından azad edilməsi uğrunda ordumuzun apardığı qətiyyətli əks-hücum əməliyyatı davam edir. Ordumuzun şəxsi heyətinin döyüş əzmi və mənəvi-psixoloji vəziyyəti yüksəkdir. Döyüşlərdə iştirak edən hərbi qulluqçularımız əsl qəhrəmanlıq nümayiş etdirirlər. Azərbaycan Ordusunun apardığı döyüşlər nəticəsində cəbhənin müxtəlif istiqamətlərində Ermənistan qoşunlarının çoxlu sayda canlı qüvvəsi, hərbi obyektləri və döyüş texnikaları məhv edilib".



AZƏRTAC xəbər verir ki, bunu Müdafiə Nazirliyinin Mətbuat xidmətinin mətbuat katibi polkovnik-leytenant Anar Eyvazov sentyabrın 29-da keçirilən brifinqdə deyib.

Anar Eyvazov bildirib ki, səhər saatlarından Ermənistanın Vardenis rayonu ərazisindən Azərbaycanın Daşkəsən rayonunun ərazisi artilleriya atəşinə tutulub. Bununla bağlı Azərbaycan Ordusu tərəfindən adekvat tədbirlər görüləcək. Ermənistan silahlı qüvvələri cəbhənin Füzuli-Cəbrayıl və Ağdərə-Tərtər istiqamətlərində itirdikləri mövqeləri geri qaytarmaq üçün bir neçə dəfə əks-hücum cəhdi göstərsə də, Azərbaycan Ordusunun bu istiqamətlərdə yerləşən bölmələri uğurla müdafiə olunaraq düşmənin bütün cəhdlərinin qarşısını dərhal alıb.

Bildirilib ki, yaşayış məntəqələrimizi atəşə tutan Ermənistan silahlı qüvvələrinin Ağdərə istiqamətində yerləşən artilleriya bölmələrinə zərbələr endirilir. Artilleriyamızın sərrast atəşi nəticəsində ağır itkilərə məruz qalan düşmən bölmələri yerləşdiyi atəş mövqelərindən geri çəkilməyə məcbur edilib.

Gecə döyüşlərində cəbhənin Ağdərə istiqamətində düşmənin Madagizdən hərəkət edən zirehli və avtomobil texnikasından ibarət qarışıq kolonu və onların hərəkətinə atəş dəstəyi verən artilleriya batareyası Azərbaycan Hərbi Hava Qüvvələrinin aviasiya vasitələri və cəbhənin bu istiqamətdə yerləşən qoşunlarımız tərəfindən məhv edilib. Cəbhənin Füzuli-Cəbrayıl istiqamətində səhər saatlarında yerdəyişmə etmək istəyən düşmənin 1 tankı, 1 avtomobil texnikası və 10 nəfərədək şəxsi heyəti artilleriya zərbəsi ilə məhv edilib. Səhər saat 07.00-08.00 radələrində cəbhənin Füzuli-Cəbrayıl istiqamətində Ermənistan qoşunlarının daha 4 tankı qəhrəman əsgərlərimiz tərəfindən məhv edilib.

Polkovnik-leytenant Anar Eyvazov deyib ki, Azərbaycan Ordusunun bölmələri düşməni ağır məğlubiyyətə uğratmaqda davam edir. Bölmələrimiz bir neçə dəqiqə əvvəl Xocavənd (Martuni) rayonu istiqamətindəki Ermənistan silahlı qüvvələri bölmələrinin "Uraqan" yaylım atəş sistemini məhv edib.

Azərbaycan Ordusunun dəqiq atəş zərbələri nəticəsində Ermənistan silahlı qüvvələrinin işğalı altında olan Xocavənd rayonu ərazisində yerləşdirilən 3-cü "Martuni" motoatıcı alayı darmadağın edilib. Nəticədə canlı qüvvə və hərbi texnika sarıdan böyük itkilərə məruz qalan düşmən alayı tam dağıdılıb. Düşmən ordusunun komandanlığı hər kəsə müraciət edərək ölən və yaralıların təxliyə edilməsi üçün nəqliyyat vasitələri ilə kömək edilməsini istəyib.

Müdafiə Nazirliyinin mətbuat katibi bildirib ki, Azərbaycan Ordusunun ard-arda uğurlu döyüş əməliyyatlarından çıxılmaz vəziyyətə düşən Ermənistanın hərbi təbliğat maşını informasiya məkanında genişmiqyaslı təxribata başlayıb. Belə ki, Ermənistan tərəfi həmişə olduğu kimi əvvəlki döyüşlərdən olan köhnə videomaterialları əhalisinə yeni kimi təqdim edir. Məqsəd öz uğursuzluqlarını əhalisinə uğurları kimi təqdim etməkdir.

Onu da qeyd edim ki, səhər saatlarından etibarən Füzuli şəhərinin işğaldan azad olunması istiqamətində Azərbaycan Ordusunun hücumu davam edir. Qələbə bizimlədir.

## Bölmələrimiz yüksək peşəkarlıq göstərərək bütün cəbhəboyu sürətli əks-hücum əməliyyatını davam etdirir

"Son döyüşlər bir daha göstərir ki, Ermənistan ordusunun məğlubedilməzliyi barədə yaradılan miflər yalandır. Bölmələrimiz yüksək peşəkarlıq göstərərək ən müasir silah və zirehli texnikanın imkan və qabiliyyətlərindən faydalanaraq bütün cəbhəboyu sürətli əks-hücum əməliyyatını davam etdirir".

AZƏRTAC xəbər verir ki, bunu Müdafiə Nazirliyinin Mətbuat xidmətinin mətbuat katibi polkovnik-leytenant Anar Eyvazov sentyabrın 29-da keçirilən axşam brifinqində deyib.

A.Eyvazov bildirib ki, müvəqqəti işğal altında olan Cəbrayıl rayonu istiqamətində yerləşdirilən Ermənistan ordusunun 18-ci motoatıcı diviziyasının artilleriya rəisi polkovnik Karen Babayan Azərbaycan Ordusunun cəza tədbirləri nəticəsində məhv edilib. Ermənistan ordusunun Eçmiədzin rayonunda yerləşən və işğal edilmiş ərazilərimizdə gedən döyüşlərə cəlb olunan 61-ci əlahiddə mühəndis alayının 13516 saylı hərbi hissəsinin komandiri Spartak Köçəryan da bu gün məhv edilib. Bundan başqa, düşmən ordusunun 18-ci motoatıcı diviziyasının 9-cu alayının komandiri polkovnik Artyom Poqosyan ağır yaralanıb.

Ağdərə rayonunun işğal altında olan Göyarx kəndi yaxınlığındakı yüksəklik ətrafında gedən döyüşlərdə bölmələrimiz daha bir düşmən tankını məhv edib. Xocavənd rayonunun Hadrut yaşayış məntəqəsi istiqamətində Ermənistan ordusunun 1-ci alayının 3-cü taborunun komanda-müşahidə məntəqəsi dəqiq atəşlə darmadağın olunub.

Həmçinin Füzuli rayonunun işğal altında olan Aşağı Veysəlli kəndi istiqamətindən üzbəüz mövqelərimizə basqın etməyə cəhd göstərən Ermənistan ordusunun hərəkətinin qarşısı bölmələrimiz tərəfindən qətiyyətlə alınıb. Düşmən geri çəkilməyə məcbur olub. Geri çəkilərkən məhv edilmiş erməni əsgərlərinin meyitləri döyüş meydanında qalıb. Bu informasiya ilə bağlı foto və videomateriallar ilə Müdafiə Nazirliyinin rəsmi internet səhifəsində tanış olmaq mümkündür.

Müdafiə Nazirliyinin mətbuat katibi deyib ki, Azərbaycan Ordusunun genişmiqyaslı döyüş əməliyyatı nəticəsində Ermənistan ordusunun Madagizdəki alayında tamamilə ruh düşkünlüyü yaranıb, şəxsi heyətdə ölüm qorxusu başlayıb. Şəxsi heyət təşviş içindədir. Dəstək məqsədilə yeni gələn ehtiyat qüvvələri də daxil olmaqla bir çox hərbçi döyüşə girməkdən imtina edir və əməliyyat rayonunu tərk edirlər.

Əldə etdiyimiz kəşfiyyat məlumatına əsasən, Yerevanın hava məkanını müdafiə edən S-300 tipli zenit-raket kompleksləri döyüş növbətçiliyindən çıxarılaraq işğal olunmuş ərazilərimiz istiqamətində hərəkət edir. Bildirilir ki, onları da ordumuz tərəfindən Dağlıq Qarabağda Ermənistan ordusunun məhv edilən digər döyüş texnikalarının aqibəti gözləyir.

Ermənistan tərəfindən Azərbaycana qarşı başladılan genişmiqyaslı hücumun ilk saatlarından etibarən Müdafiə Nazirliyinin Tibb Baş İdarəsinin bütün hərbi tibbi heyəti gücləndirilmiş iş rejimində fasiləsiz tibbi xidmət göstərir. Döyüşlərin getdiyi bütün istiqamətlərdə mobil səhra cərrahiyyə hospitalları fəaliyyətdədir və tibb müəssisələri peşəkar həkim kadrları ilə tam komplektləşdirilib. Hərbi tibb müəssisələrinə daxil olan yaralılar arasında həyatını itirən hərbi qulluqçumuz yoxdur. Bütün imkanlarımız səfərbər olunub və yaralı hərbi qulluqçuların tezliklə müalicə edilərək sağlamlıqlarına qovuşmaları üçün hərbi tibb personalı var qüvvəsi ilə çalışır.

"Azərbaycan Ordusunda tibbi təminat, təchizat və qan komponentləri ehtiyatları ilə bağlı heç bir problem yoxdur. Ordumuzun qan və qan komponentlərinə tələbatı Silahlı Qüvvələrin Baş Klinik Hospitalının Qan Bankı bölməsi tərəfindən tam təmin edilir və hərbi tibb müəssisələrində bütün qan qruplarından ehtiyatlar mövcuddur. Hərbi qulluqçuların valideynlərini narahat edən məsələlərlə bağlı müraciətləri qəbul etmək məqsədilə Müdafiə Nazirliyinin Tibb Baş İdarəsinin nəzdində sutka ərzində fasiləsiz fəaliyyət göstərən qaynar telefon xətti açılıb. Vətəndaşlar (012) 406-68-58, (012) 406-68-84, (012) 406-72-52, (012) 406-72-77 nömrəli telefonlara zəng edərək onları maraqlandıran suallarla bağlı müraciət edə bilərlər. Eyni zamanda, vətəndaşlardan telefon xətlərinin həddən artıq yüklənməməsi və normal qaydada fəaliyyət göstərməsi məqsədilə ehtiyac olmadığı halda zəng etməmələrini xahiş edirik", - deyə polkovnik-leytenant Anar Eyvazov bildirib.

## Ordumuzun hissələri düşmənə sarsıdıcı zərbələr endirir

Əldə etdiyimiz kəşfiyyat məlumatına əsasən, Yerevanın hava məkanını müdafiə edən "S-300" zenit-raket kompleksləri (ZRK) döyüş növbətçiliyindən çıxarılaraq işğal olunmuş ərazilərimiz istiqamətində hərəkət edir.

Bunu AZƏRTAC-a açıqlamasında Müdafiə Nazirliyinin Mətbuat xidmətinin rəisi, polkovnik Vaqif Dərgahlı deyib.

V.Dərgahlı bildirib ki, onları da Ordumuz tərəfindən Dağlıq Qarabağda Ermənistan ordusunun məhv edilən digər döyüş texnikalarının aqibəti gözləyir.

Son döyüşlər bir daha göstərir ki, Ermənistan ordusunun məğlubedilməzliyi barədə yaradılan mif əsassızdır.

* * *

Ermənistan tərəfi təxribat xarakterli məlumatlar yaymaqda davam edir. Bunu AZƏRTAC-a açıqlamasında Müdafiə Nazirliyinin Mətbuat xidmətinin rəisi, polkovnik Vaqif Dərgahlı deyib.

V.Dərgahlı diqqətə çatdırıb ki, Azərbaycan Ordusunun azad etdiyi ərazilərinin bir qisminin Ermənistan ordusu tərəfindən guya geri qaytarılması barədə erməni tərəfinin yaydığı xəbər dezinformasiyadır. Bildiririk ki, azad etdiyimiz ərazilərin bir qarışı belə itirilməyib. Hazırda Azərbaycan Ordusu düşmənin müqavimətinin qırılması istiqamətində əməliyyatı həyata keçirir.

* * *

Ermənistan tərəfinin guya Hərbi Hava Qüvvələrimizə məxsus F-16 qırıcısının vurulması barədə yaydığı məlumat yalandır və təxribat xarakteri daşıyır.

Bunu AZƏRTAC-a açıqlamasında Müdafiə Nazirliyinin Mətbuat xidmətinin rəisi, polkovnik Vaqif Dərgahlı deyib.

V.Dərgahlı bildirib ki, Hərbi Hava Qüvvələrimizin arsenalında F-16 tipli qırıcı təyyarələr mövcud deyil. Bu səbəbdən erməni tərəfinə xatırladırıq ki, olmayanı məhv etmək mümkün deyil.

* * *

Azərbaycan Ordusunun bölmələri tərəfindən düşmənə məxsus daha iki tankı dəqiq atəşlə məhv edilib.

Bu barədə AZƏRTAC-a Müdafiə Nazirliyinin Mətbuat xidmətindən məlumat verilib.

Müdafiə Nazirliyinin Mətbuat xidmətinin yaydığı videoda düşmənə məxsus tankların məhv edilmə anları əks olunub.

* * *

Azərbaycan Ordusunun atəş zərbələri nəticəsində Ermənistan silahlı qüvvələrinin işğalı altında olan Xocavənd rayonu ərazisində yerləşdirilən 3-cü "Martuni" motoatıcı alayı darmadağın edilib. Bunu AZƏRTAC-a açıqlamasında Müdafiə Nazirliyinin Mətbuat xidmətinin rəisi, polkovnik Vaqif Dərgahlı deyib.

V.Dərgahlı bildirib ki, nəticədə canlı qüvvə və hərbi texnika sarıdan böyük itkilərə məruz qalan düşmən alayı tam dağıdılıb. Düşmən ordusunun komandanlığı hər kəsə müraciət edərək ölən və yaralıların təxliyəsi üçün nəqliyyat vasitələri ilə kömək göstərilməsini istəyib.

* * *

Azərbaycan Ordusunun bölmələri düşməni ağır məğlubiyyətə uğratmaqda davam edir.

Bunu AZƏRTAC-a açıqlamasında Müdafiə Nazirliyinin Mətbuat xidmətinin rəisi polkovnik Vaqif Dərgahlı deyib.

V.Dərgahlı bildirib ki, bölmələrimiz bir neçə dəqiqə əvvəl Xocavənd (Martuni) rayonu istiqamətində Ermənistan silahlı qüvvələri bölmələrinin "Uraqan" yaylım atəş sistemini məhv edib.



* * *

Müvəqqəti işğal altında olan Cəbrayıl rayonu istiqamətində yerləşdirilən Ermənistan ordusunun 18-ci motoatıcı diviziyasının artilleriya rəisi polkovnik Karen Babayan Azərbaycan Ordusunun cəza tədbirləri nəticəsində məhv edilib. AZƏRTAC xəbər verir ki, bu barədə Müdafiə Nazirliyinin Mətbuat xidmətinin rəisi polkovnik Vaqif Dərgahlı bildirib.

* * *

Azərbaycan Ordusunun ardıcıl uğurlu döyüş əməliyyatlarından çıxılmaz vəziyyətə düşən Ermənistanın hərbi təbliğat maşını informasiya məkanında genişmiqyaslı təxribata başlayıb.

Bunu AZƏRTAC-a açıqlamasında Müdafiə Nazirliyinin Mətbuat xidmətinin rəisi, polkovnik Vaqif Dərgahlı deyib.

V.Dərgahlı bildirib ki, Ermənistan tərəfi həmişə olduğu kimi, əvvəlki döyüşlərdən olan köhnə videomaterialları əhalisinə yeni kimi təqdim edir. Məqsəd öz uğursuzluqlarını əhalisinə uğurları kimi təqdim etməkdir.

* * *

Füzuli rayonunun işğal altında olan Aşağı Veysəlli kəndi istiqamətindən üzbəüz mövqelərimizə basqın etməyə cəhd göstərən Ermənistan ordusunun hərəkətinin qarşısı bölmələrimiz tərəfindən qətiyyətlə alınıb və düşmən geri çəkilməyə məcbur edilib.

Bunu AZƏRTAC-a açıqlamasında Müdafiə Nazirliyinin Mətbuat xidmətinin rəisi, polkovnik Vaqif Dərgahlı deyib.

V.Dərgahlı bildirib ki, geri çəkilərkən məhv edilmiş erməni əsgərlərinin meyitləri döyüş meydanında qalıb.

* * *

Ermənistanın Eçmiədzin rayonunda dislokasiya olunan və işğal edilmiş ərazilərimizdə gedən döyüşlərə cəlb edilmiş düşmən ordusunun 61-ci əlahiddə mühəndis alayının 13516 saylı hərbi hissəsinin komandiri Spartak Köçəryan dünən məhv edilib.

Bunu AZƏRTAC-a açıqlamasında Müdafiə Nazirliyinin Mətbuat xidmətinin rəisi, polkovnik Vaqif Dərgahlı deyib.

* * *

Ermənistan ordusunun alay komandiri ağır yaralanıb. Bunu AZƏRTAC-a açıqlamasında Müdafiə Nazirliyinin Mətbuat xidmətinin rəisi, polkovnik Vaqif Dərgahlı deyib.

V.Dərgahlı bildirib ki, Azərbaycan Ordusunun keçirdiyi döyüş əməliyyatı nəticəsində Ermənistan ordusunun 18-ci motoatıcı diviziyasının 9-cu alayının komandiri polkovnik Artyom Poqosyan ağır yaralanıb.

* * *

Ağdərə rayonunun işğal altında olan Göyarx kəndi yaxınlığındakı yüksəklik ətrafında gedən döyüşlərdə bölmələrimiz daha bir düşmən tankını məhv edib.

Bunu AZƏRTAC-a açıqlamasında Müdafiə Nazirliyinin Mətbuat xidmətinin rəisi, polkovnik Vaqif Dərgahlı deyib.

* * *

Ermənistan tərəfinin guya Azərbaycan Hərbi Hava Qüvvələrinə məxsus helikopterin vurulması barədə yaydığı məlumat onların növbəti dezinformasiyasıdır.

Bunu AZƏRTAC-a açıqlamasında Müdafiə Nazirliyinin Mətbuat xidmətinin rəisi, polkovnik Vaqif Dərgahlı deyib.

Polkovnik bildirib ki, Azərbaycan Ordusu bu gün keçirilən əməliyyatlarda helikopterlərdən istifadə etməyib.

* * *

Düşmənin komanda müşahidə məntəqəsi darmadağın edilib.

AZƏRTAC xəbər verir ki, bunu Müdafiə Nazirliyinin Mətbuat xidmətinin rəisi polkovnik Vaqif Dərgahlı deyib.

V.Dərgahlı bildirib ki, Xocavənd rayonunun Hadrut yaşayış məntəqəsi istiqamətində yerləşən Ermənistan ordusunun 1-ci alayının, 3-cü taborunun komanda-müşahidə məntəqəsi dəqiq atəşlə darmadağın edilib.

* * *

Azərbaycan Ordusunun genişmiqyaslı döyüş əməliyyatı nəticəsində Ermənistan ordusunun Madagizdəki alayında tamamilə ruh düşkünlüyü yaranıb, şəxsi heyətdə ölüm qorxusu başlayıb.

Bunu AZƏRTAC-a açıqlamasında Müdafiə Nazirliyinin Mətbuat xidmətinin rəisi, polkovnik Vaqif Dərgahlı deyib.

V.Dərgahlı bildirib ki, şəxsi heyət təşviş içindədir. Dəstək məqsədilə yeni gələn ehtiyat qüvvələri də daxil olmaqla bir çoxları döyüşə girməkdən imtina edir və döyüş əməliyyatı rayonunu tərk edirlər.

* * *

Cəbhəboyu döyüşlər davam edir. Azərbaycan Ordusunun artilleriya bölmələri düşmənə sarsıdıcı zərbələr endirir.

Bu barədə AZƏRTAC-a Müdafiə Nazirliyinin Mətbuat xidmətindən məlumat verilib.

Müdafiə Nazirliyinin Mətbuat xidmətinin yaydığı növbəti videoda artilleriya bölmələrimizin düşmənə sarsıdıcı zərbələr endirməsi nümayiş olunur.

* * *

Ermənistan ordusuna məxsus Su-25 təyyarəsinin vurulması erməni hərbi təbliğat maşınının növbəti fantaziyasıdır.

Bunu AZƏRTAC-a açıqlamasında Müdafiə Nazirliyinin Mətbuat xidmətinin rəisi, polkovnik Vaqif Dərgahlı deyib.

V.Dərgahlı bildirib ki, erməni KİV-lərinin Ermənistan ordusuna məxsus Su-25 təyyarəsinin guya F-16 qırıcısı tərəfindən vurulması barədə yaydığı məlumat yalandır. Bu, erməni hərbi təbliğat maşınının növbəti fantaziyasıdır.Ermənistan tərəfinin yaydığı bu tip məlumatlar təxribat xarakteri daşıyır və beynəlxalq ictimaiyyətin diqqətini cəlb etməyə yönəlib.

* * *

Azərbaycan Ordusunun artilleriya zərbələri nəticəsində Tərtər rayonunun Həsənqaya yaşayış məntəqəsi yaxınlığında yerləşən Ermənistan silahlı qüvvələrinin 5-ci motoatıcı alayının 1-ci taboru və Talış istiqamətində yerləşən 6-cı motoatıcı alayının 1-ci taborunun mövqeləri dağıdılıb.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, ağır itkilərə məruz qalan düşmən ölən və yaralıların evakuasiyasını təşkil etmək üçün nəqliyyat vasitələri tapmaqda çətinlik çəkir.

## Ölkəmizdəki xarici hərbi attaşelər və beynəlxalq təşkilatların nümayəndələri əməliyyat şəraiti haqqında məlumatlandırılıb

Sentyabrın 29-da Müdafiə Nazirliyinin Beynəlxalq Hərbi Əməkdaşlıq İdarəsi tərəfindən Azərbaycan Respublikasında akkreditə olunmuş xarici hərbi attaşelərə və beynəlxalq təşkilatların ölkəmizdəki nümayəndələrinə cəbhədəki vəziyyət barədə məlumat verilib.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, tədbir iştirakçılarına Azərbaycanın haqlı mövqeyi bir daha çatdırılıb və erməni tərəfindən fərqli olaraq, qoşunlarımızın düşmənin, sadəcə, hərbi qüvvəsini və obyektlərini hədəf aldığı bir daha vurğulanıb.

Əlavə olaraq, Azərbaycan Ordusunun həyata keçirdiyi əməliyyatların beynəlxalq hüququn prinsipləri və müharibə qanunları çərçivəsində aparıldığı xüsusilə qeyd edilmiş və qonaqları maraqlandıran suallara cavab verilib.

## Erməni təxribatı nəticəsində Şeyx Babı türbəsinə ciddi ziyan dəyib

Sentyabrın 27-dən etibarən Ermənistan silahlı qüvvələrinin yenidən törətdiyi genişmiqyaslı təxribatlar nəticəsində düşmənin yaşayış məntəqələrinə istiqamətlənmiş atəş zərbələrindən biri Füzuli rayonunun Babı kəndinin yaxınlığında yerləşən qəbiristanlığa düşüb.

Mədəniyyət Nazirliyindən AZƏRTAC-a bildirilib ki, qəbiristanlıqdakı dövlət mühafizəsinə götürülmüş ölkə əhəmiyyətli tarix-memarlıq abidəsi olan Şeyx Babı türbəsinə ciddi ziyan dəyib.

Tarixi abidənin fasadı zədələnib və nəticədə türbə qəzalı vəziyyətə düşüb.

## *Evi dağılan Tərtər sakini:* "Dinc sakinlərin evlərini hədəfə almaq erməni xislətini açıq-aydın göstərir"

Bu gün Tərtərin Borsunlu kənd sakini 1958-ci il təvəllüdlü Əfqan Piriyevə məxsus ferma düşmənin hədəfi olub. Ferma mərmi atəşinə tutulub.

Tərtər şəhər sakinləri Qorxmaz Həsənovun, Etibar Pirməmmədovun, Əkbər Kərimovun, Mehman Xəlilovun, Zəkiyyə Abdullayevanın, Elxan Məmmədovun, Arif Fərəcovun, Əskipara kənd sakini Kəmaləddin Qafarovun, Səhləbad kənd sakini Zahid İbrahimovun, Azad Qaraqoyunlu kənd sakini Güləbətin Məmmədovanın həyətlərinə də mərmi düşüb, evlərə ciddi ziyan dəyib.

Tərtər şəhər sakini Etibar Pirməmmədov AZƏRTAC-a bildirib ki, hadisə baş verən an xoşbəxtlikdən evdə heç kim olmayıb: "İşimlə əlaqədar şəhərə getmişdim. Evdə də heç kim yox idi. Qayıdanda gördüm ki, həyətə atılan mərmi evimizi yararsız hala salıb. Düşmənin bu təxribatı biz sakinləri qorxutmur. Əsgərlərimiz onların layiqli cavabını verir. Dinc sakinlərin evlərini hədəfə almaq erməni xislətini açıq-aydın göstərir. Biz ordumuza inanır və Ali Baş Komandanımızın ətrafında sıx birləşmişik. İnşallah düşməni tezliklə torpaqlarımızdan qovub çıxaracağıq".

AZƏRTAC-ın fotoqrafı Roman İsmayılovun düşmənin hədəf aldığı yaşayış evlərindən çəkdiyi fotoları təqdim edirik.





## *Ağdam sakini:* "Bu dağıntılar erməni faşizminə bariz sübutdur"

Düşmən bu gün səhər saatlarında Ağdam rayonunun digər cəbhəyanı kəndləri kimi, Qaradağlı, Ayaq Qərvənd və Orta Qərvənd kəndlərini də artilleriya atəşinə tutub. Dinc sakinlərin evlərinə ciddi ziyan dəyib.

Ayaq Qərvənd kəndinin sakini Zakir Əliyev AZƏRTAC-a bildirib ki, düşmən Azərbaycan Ordusu ilə döyüşdən çəkinir və buna görə də məqsədli şəkildə dinc sakinləri hədəf alır: "Gördüyünüz bu dağıntılar erməni faşizminə bariz sübutdur. Azərbaycan əsgərindən çəkinən düşmən yerli sakinləri hədəfə alaraq öz acizliyini göstərir. Əhali Azərbaycan Ordusunun tezliklə qələbə çalacağına əmindir və Ali Baş Komandanımızın ətrafında sıx birləşmişik."





# Xarici İşlər Nazirliyi və Baş Prokurorluq Ermənistanın son hərbi təxribatları ilə bağlı birgə bəyanat yayıb

Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi və Baş Prokurorluğu Ermənistanın son hərbi təxribatları ilə bağlı birgə bəyanat yayıb.



Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, bəyanatda deyilir: "Sentyabrın 27-də Ermənistan silahlı qüvvələri atəşkəs rejimini kobud şəkildə pozaraq təmas xətti boyunca Azərbaycan Respublikasının mövqelərini iriçaplı silahlar, minaatanlar və müxtəlif çaplı artilleriya qurğularından atəşə tutaraq Azərbaycana qarşı növbəti təcavüzə əl atıb.

Sentyabrın 27-29-da Ermənistanın davam edən hərbi təcavüzü çərçivəsində Azərbaycanın Tərtər, Ağdam və Cəbrayıl rayonları ilə yanaşı, Goranboy, Naftalan və Daşkəsən rayonları Ermənistan silahlı qüvvələri tərəfindən artilleriya atəşinə məruz qalıb.

Ermənistan tərəfi beynəlxalq hüququn norma və prinsiplərini, xüsusilə də beynəlxalq humanitar hüquq, 1949-cu il Cenevrə konvensiyaları və onların Əlavə protokollarını kobud şəkildə pozaraq Azərbaycanın mülki əhalisini və infrastrukturunu məqsədyönlü şəkildə atəşə tutub, bununla da mülki əhaliyə qarşı müxtəlif cinayətlər törədib.

Sentyabrın 29-na olan məlumata əsasən, mülki əhali arasında 10 nəfər həlak olub, 30 nəfər isə yaralanıb. Həlak olanlar arasında 13 və 14 yaşlarında iki məktəbli də var.

Sentyabrın 27-si saat 18 radələrində erməni hərbi birləşmələrinin artilleriya silahlarından atdığı mərminin Naftalan şəhərinin Qaşaltı-Qaraqoyunlu kəndində yerləşən, kənd sakini Qurbanov Elbrus İsa oğluna məxsus fərdi yaşayış evinin həyətinə düşməsi nəticəsində həmin vaxt evdə olan 1951-ci il təvəllüdlü Qurbanov Elbrus İsa oğlu və onun 4 ailə üzvünün həlak olması, habelə mərminin partlaması nəticəsində Elbrus Qurbanova məxsus fərdi yaşayış evinə və evin həyətindəki yardımçı tikililərə 100 min manat məbləğində ziyan dəyməsi faktına görə Goranboy rayon prokurorluğunda Cinayət Məcəlləsinin 120.2.1-ci (cinayətkar birlik-təşkilat tərəfindən qəsdən adam öldürmə), 120.2.4-cü (qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən xuliqanlıq niyyəti ilə xüsusi amansızlıqla qəsdən adam öldürmə), 120.2.7 (iki və ya daha çox şəxsi qəsdən öldürmə), 120.2.12-ci (milli, irqi, dini ədavət və ya düşmənçilik niyyəti ilə qəsdən adam öldürmə), 100.2 (təcavüzkar müharibəni aparma) və digər maddələri ilə cinayət işi başlanıb.

Bundan əlavə, Ağdam rayonunun işğal olunmuş ərazilərindən cəbhənin təmas xətti boyunca Ermənistan silahlı birləşmələrinin iriçaplı silahlardan, top və minaatanlardan açdıqları intensiv atəşlər nəticəsində sentyabrın 28-də saat 07:00 radələrində Ağdam rayonunun Evoğlu kəndinin ərazisinə mərmi düşüb. Nəticədə kənd sakini, 1979-cu il təvəllüdlü Paşayev Coşqun Ənvər oğlunun baş nahiyəsindən qəlpə yarası alaraq Ağdam Rayon Mərkəzi Xəstəxanasına yerləşdirilməsi və göstərilmiş tibbi yardımlara baxmayaraq ölməsi faktına görə həmin tarixdə Ağdam Rayon Prokurorluğunda Azərbaycan Respublikası Cinayət Məcəlləsinin müvafiq maddələri ilə cinayət işi başlanıb.

Sentyabrın 28-də saat 11 radələrində Tərtər şəhəri Heydər Əliyev prospektində yerləşən rayon məhkəməsinin inzibati binasının yanına düşən mərmi qəlpələrindən 1975-ci il təvəllüdlü Əliyev Mehman Sovet oğlu həlak olub, həmin vaxt ərazidən keçən təcili tibbi yardım maşınının sürücüsü 1968-ci il təvəllüdlü Əsədov Qənbər Əsgər oğlu və maşında olan polis əməkdaşı 1994-cü il təvəllüdlü Hüseynov Fəxrəddin Fərman oğlu, həmçinin ərazidə olan digər Tərtər şəhər sakini 1991-ci il təvəllüdlü İbrahimov Tural Firdovsi oğlu yaralanıb. Saat 19 radələrində Tərtər rayonu Şıxarx qəsəbəsində yerləşən əlillər və məcburi köçkünlər üçün inşa edilmiş çoxmənzilli yaşayış binasının həyətinə top mərmisinin atılması nəticəsində Tərtər rayon sakinləri 1981-ci il təvəllüdlü Abbasov Xaliq Asif oğlu və onun qardaşı 1987-ci il təvəllüdlü Abbasov Elşən Asif oğlu, 1981-ci il təvəllüdlü Əsədov Sabit Usub oğlu həlak olub, 1984-cü il təvəllüdlü Məmmədov Seymur Füzuli oğlu, 1989-cu il təvəllüdlü Mahmudov Faiq Malik oğlu isə müxtəlif dərəcəli bədən xəsarətləri alaraq xəstəxanalara yerləşdirilib. Həmin faktlar üzrə Tərtər Rayon Prokurorluğunda Azərbaycan Respublikası Cinayət Məcəlləsinin müvafiq maddələri ilə cinayət işi başlanıb.

Bundan başqa, sentyabrın 28-də saat 18:40-da erməni silahlı qüvvələri təcavüzkar əməllərini davam etdirərək, mülki əhalinin yaşadığı kəndləri hədəfə almaqla milli, irqi, dini ədavət və ya düşmənçilik niyyəti ilə ümumi təhlükəli üsulla kənd sakinlərini qəsdən öldürmək məqsədilə Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndinə hücum edərək "Şamlıq" adlanan ərazini iriçaplı artilleriyadan atəşə tutub, atəş nəticəsində qeyd edilən əraziyə düşən mərmi həmin vaxt orada olan kənd sakini 2000-ci il təvəllüdlü Həziyev Hilal Murad oğlunun sifət nahiyəsinə dəyərək sonuncunun qəsdən həyatdan məhrum edilməsinə cəhd edilib.

Həmin fakt üzrə Cəbrayıl Rayon Prokurorluğunda Cinayət Məcəlləsinin müvafiq maddələri ilə cinayət işi başlanıb.

Hazırda prokurorluq əməkdaşları tərəfindən döyüş şəraitində mümkün olan bütün istintaq əməliyyat tədbirləri həyata keçirilir, o cümlədən yaralananların aldıqları xəsarətlərin ağırlıq dərəcəsini, eləcə də mülki infrastruktur obyektlərinə dəymiş ziyanın məbləğini müəyyən etmək məqsədilə müvafiq ekspertizalar təyin edilib.

Göstərilən faktlara görə başlanmış 5 cinayət işi istintaqın davam etdirilməsi üçün Baş Prokurorluğun İstintaq İdarəsinə göndərilib.

Ermənistan tərəfinin məsuliyyət daşıdığı bu müharibə cinayətlərini qətiyyətlə qınayır, mülki şəxslərin atəşə tutulması və bu yolla dinc əhalinin qorxu içində saxlanılması cəhdinə son qoyulmasını tələb edirik.

Beynəlxalq ictimaiyyəti Ermənistanın Azərbaycana qarşı yeni təcavüzünü, azərbaycanlı mülki şəxsləri və infrastrukturu atəşə tutmasını kəskin qınamağa və Ermənistan tərəfindən beynəlxalq hüquq, o cümlədən beynəlxalq humanitar hüquq öhdəliklərinə əməl olunmasını təmin etməyə çağırırıq".

# Avropa Məhkəməsinin Ermənistanın məkrli siyasi oyunlarından kənarda dayanacağına ümid edirik

Xarici İşlər Nazirliyi (XİN) Azərbaycana qarşı müvəqqəti tədbirlərin tətbiqi ilə bağlı Ermənistan tərəfindən İnsan Hüquqları üzrə Avropa Məhkəməsinə (İHAM) ünvanlanmış müraciətə dair Məhkəmənin 2020-ci il 28 sentyabr tarixində dərc edilmiş press-relizinə, həmçinin Avropa Şurasının (AŞ) kommunikasiya departamentinin rəhbərinin İHAM tərəfindən bu müraciətə qısa müddətdə baxılacağı barədə verdiyi məlumata dair məlumat yayıb.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, məlumatda deyilir:

"İlk növbədə, sentyabrın 27-də Ermənistan silahlı qüvvələri təmas xətti boyunca Azərbaycan Respublikasının mövqelərini və yaşayış məntəqələrini iriçaplı silahlar, minaatanlar və müxtəlif çaplı artilleriya qurğularından atəşə tutaraq, Azərbaycana qarşı növbəti təcavüzə əl atıblar. Mülki əhalini və mülki obyektləri açıq və məqsədyönlü şəkildə hədəfə alan Ermənistan bu günədək hərbi qulluqçulardan əlavə, aralarında ahıl, qadın və uşaqların olduğu doqquz nəfər azərbaycanlı mülki vətəndaşı qətlə yetirib, onlarla mülki şəxsi yaralanmış və çoxsaylı evlərə və mülki obyektlərə ciddi ziyan vurub.

Beynəlxalq humanitar hüquq və insan hüquqlarını kobudcasına pozan Ermənistan hökumətinin bu müraciəti onun ikiüzlü siyasətinin növbəti təzahürüdür.

Digər tərəfdən, nəzərə alsaq ki, hərbi əməliyyatlar Azərbaycanın işğal olunmuş ərazilərində gedir, əslində, Ermənistanın bu müraciəti onun Azərbaycanın torpaqlarının işğalına dair ictimai etirafı kimi də başa düşülə bilər.

Görünən odur ki, Ermənistan ənənəsinə sadiq qalaraq İnsan Hüquqları üzrə Avropa Məhkəməsini öz siyasi oyunlarına alət etməkdən və bu müstəsna hüquq müstəvisindən çirkin siyasi məqsədlər üçün istifadə etməkdən çəkinmir. Avropa Məhkəməsinin Ermənistanın məkrli siyasi oyunlarından kənarda dayanacağına ümid edirik.

Hesab edirik ki, Beynəlxalq hüququn fundamental norma və prinsiplərini, Ermənistan qoşunlarının Azərbaycanın işğal olunmuş ərazilərindən tam və qeyd-şərtsiz çıxarılmasını tələb edən BMT Təhlükəsizlik Şurasının 1993-cü il tarixli 822, 853, 874 və 884 saylı qətnamələrini, beynəlxalq humanitar hüququ, o cümlədən 1949-cu il Cenevrə Konvensiyalarını və onların Əlavə Protokollarını kobud şəkildə pozmaqda davam edən, İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin Çıraqov Ermənistana qarşı iş üzrə pilot xarakter daşıyan 2015-ci il tarixli qərarını bugünədək icra etməyən Ermənistanın insan hüquqlarının müdafiəsi mexanizmlərindən sui-istifadə etmək cəhdinin qarşısı alınmalıdır.

Azərbaycanın Müdafiə Nazirliyi tərəfindən dəfələrlə bəyan edildiyi kimi, Ermənistandan fərqli olaraq, Azərbaycan Silahlı Qüvvələri mülki əhalini, mülki obyektləri və mülki infrastrukturu hədəfə almır. Ermənistanın məqsədli şəkildə atəş nöqtələrini yaşayış məntəqələrinin yanında yerləşdirdiyini nəzərə alaraq, Müdafiə Nazirliyi işğal olunmuş ərazilərdə məskunlaşdırılmış əhaliyə hərbi obyektlərdən kənarda durmaq barədə rəsmi çağırış edib.

Onu da qeyd edək ki, Ermənistan Respublikasının silahlı qüvvələrinin Azərbaycan Respublikasının Dağlıq Qarabağ bölgəsini və ətraf rayonlarını işğal etməsi, Azərbaycan Respublikasına qarşı silahlı hücumlar etməsi və mütəmadi hərbi təxribatlar törətməsi ilə əlaqədar, 2020-ci il 28 sentyabr saat 00:00-dan Azərbaycan Respublikasının bütün ərazisində hərbi vəziyyət elan edilib. İnsan Hüquqları üzrə Avropa Konvensiyasının 15-ci maddəsinə uyğun olaraq, Azərbaycan tərəfi hərbi vəziyyətin tətbiqi ilə əlaqədar Konvensiya üzrə bəzi öhdəliklərdən geri çəkilmə hüququndan (deroqasiya) istifadə etməsi haqqında sentyabrın 28-də Avropa Şurasının Baş katibini məlumatlandırıb.

Bildiririk ki, Azərbaycan Respublikasının Silahlı Qüvvələri Ermənistanın növbəti hərbi təcavüzünün qarşısını almaq və təmas xətti boyunca sıx şəkildə yaşayan mülki əhalinin təhlükəsizliyini təmin etmək məqsədilə özünü müdafiə hüququ çərçivəsində apardığı əks əməliyyatlarda beynəlxalq humanitar hüquqa tam və qətiyyətlə riayət etməkdədir.

# Düşmənin atəşi nəticəsində mülki şəxslərin həlak olması barədə beş cinayət işi Baş Prokurorluğun İstintaq idarəsinə göndərilib

Sentyabrın 27-də saat 18:00 radələrində Ermənistan silahlı qüvvələrinin hərbi birləşmələrinin artilleriya silahlarından atdığı mərmi Naftalan şəhərinin Qaşaltı Qaraqoyunlu kənd sakini Qurbanov Elbrus İsa oğluna məxsus fərdi evin həyətinə düşüb. Həmin vaxt evdə olan 1951-ci il təvəllüdlü Qurbanov Elbrus İsa oğlu və onun ailəsinin 4 üzvü həlak olub. Habelə mərminin partlaması nəticəsində Elbrus Qurbanovun yaşadığı evə 100 min manat məbləğində maddi ziyan dəyib.

Həmin faktlarla bağlı Goranboy Rayon Prokurorluğunda Cinayət Məcəlləsinin 120.2.1-ci (cinayətkar birlik-təşkilat tərəfindən qəsdən adam öldürmə), 120.2.4-cü (qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən xuliqanlıq niyyəti ilə xüsusi amansızlıqla qəsdən adamöldürmə), 120.2.7-ci (iki və ya daha çox şəxsi qəsdən öldürmə), 120.2.12-ci (milli, irqi, dini ədavət və ya düşmənçilik niyyəti ilə qəsdən adamöldürmə), 100.2-ci (təcavüzkar müharibəni aparma) və digər maddələri ilə cinayət işi başlanıb.

Bundan əlavə, Ağdam rayonunun işğal olunmuş ərazilərindən cəbhənin təmas xətti boyunca Ermənistan silahlı birləşmələrinin iriçaplı silahlardan, top və minaatanlardan açdıqları intensiv atəş nəticəsində sentyabrın 28-də saat 7 radələrində Ağdam rayonunun Evoğlu kənd sakini 1979-cu il təvəllüdlü Paşayev Coşqun Ənvər oğlunun baş nahiyəsindən qəlpə yarası xəsarətləri alaraq Ağdam Rayon Mərkəzi Xəstəxanasına yerləşdirilməsinə və tibbi yardımın göstərilməsinə baxmayaraq, həlak olması faktına görə də Ağdam Rayon Prokurorluğunda Cinayət Məcəlləsinin müvafiq maddələri ilə cinayət işi başlanıb.

Sentyabrın 28-də saat 11 radələrində Tərtər şəhəri Heydər Əliyev prospektində yerləşən rayon məhkəməsinin inzibati binasının yanına düşmüş mərmi qəlpələrindən 1975-ci il təvəllüdlü Əliyev Mehman Sovet oğlu həlak olub. Həmin vaxt ərazidən keçən təcili tibbi yardım avtomaşınının sürücüsü 1968-ci il təvəllüdlü Əsədov Qənbər Əsgər oğlu və maşında olan polis əməkdaşı 1994-cü il təvəllüdlü Hüseynov Fəxrəddin Fərman oğlu, həmçinin ərazidə olan digər Tərtər şəhər sakini 1991-ci il təvəllüdlü İbrahimov Tural Firdovsi oğlu yaralanıblar.

Saat 19:00 radələrində Tərtər rayonunun Şıxarx qəsəbəsində yerləşən əlillər və məcburi köçkünlər üçün inşa edilmiş çoxmənzilli yaşayış binasının həyətinə top mərmisinin atılması nəticəsində Tərtər rayon sakinləri 1981-ci il təvəllüdlü Abbasov Xaliq Asif oğlu və onun qardaşı 1987-ci il təvəllüdlü Abbasov Elşən Asif oğlu, 1981-ci il təvəllüdlü Əsədov Sabir Usub oğlu həlak olub, 1984-cü il təvəllüdlü Məmmədov Seymur Füzuli oğlu, 1989-cu il təvəllüdlü Mahmudov Faiq Malik oğlu isə müxtəlif dərəcəli bədən xəsarətləri alaraq xəstəxanalara yerləşdiriliblər.

Həmin faktlarla bağlı Tərtər Rayon Prokurorluğunda Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin müvafiq maddələri ilə cinayət işi başlanıb.

Bundan əlavə, sentyabrın 28-də saat 18:40-da Ermənistan silahlı qüvvələri təcavüzkar əməllərini davam etdirərək mülki əhalinin yaşadığı kəndləri hədəfə almaqla milli, irqi, dini düşmənçilik və ədavət niyyəti ilə ümumi təhlükəli üsulla kənd sakinlərini qəsdən öldürmək məqsədilə Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndinə hücum edərək Şamlıq adlanan ərazini iriçaplı artilleriyadan atəşə tutub. Atəş nəticəsində əraziyə düşən mərmi həmin vaxt orada olan kənd sakini 2000-ci il təvəllüdlü Həziyev Hilal Murad oğlunun sifət nahiyəsinə dəyərək onun qəsdən həyatdan məhrum edilməsinə cəhd göstərilib.

Həmin fakt üzrə Cəbrayıl Rayon Prokurorluğunda da Cinayət Məcəlləsinin müvafiq maddələri ilə cinayət işi başlanıb.

Hazırda prokurorluq əməkdaşları tərəfindən döyüş şəraitinə uyğun olaraq mümkün olan bütün istintaq-əməliyyat tədbirləri həyata keçirilir. Yaralıların aldıqları bədən xəsarətlərinin ağırlıq dərəcələrinin müəyyən edilməsi, həmçinin əmlaka vurulan ziyanın məbləğinin müəyyən edilməsi üçün müvafiq ekspertizalar da təyin olunub. Göstərilən faktlara görə başlanan beş cinayət işi istintaqın davam etdirilməsi üçün Baş Prokurorluğun İstintaq idarəsinə göndərilib.

# Hazırkı vaxtadək mülki əhalidən 33 nəfər müxtəlif dərəcəli xəsarətlərlə xəstəxanalara yerləşdirilib

Məlum olduğu kimi, təcavüzkar Ermənistanın hərbi-siyasi rəhbərliyi beynəlxalq hüququn norma və prinsiplərini kobud şəkildə pozaraq dinc əhaliyə qarşı terror əməllərini davam etdirir. Riyakar və qeyri-konstruktiv siyasət aparan Ermənistanın hərbi-siyasi rəhbərliyinin göstərişi ilə düşmənin silahlı qüvvələri əhalinin kompakt olduğu məntəqələri - rayon və kənd mərkəzlərini, mülki infrastruktur obyektlərini - yaşayış evlərini, xəstəxanaları, tibb məntəqələrini, məktəb binalarını, uşaq bağçalarını, dövlət qurumlarının inzibati binalarını, təsərrüfat təyinatlı əraziləri ağır artilleriya qurğularından intensiv atəşə tutmaqda davam edir.

Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a daxil olan məlumatda bildirilib ki, hazırkı vaxtadək ümumilikdə mülki əhalidən 33 nəfər müxtəlif dərəcəli bədən xəsarətləri alaraq xəstəxanalara yerləşdirilib.

Bundan başqa, düşmənin mülki obyektləri atəşə tutması nəticəsində 65 ev, 5 mülki obyekt yararsız vəziyyətə düşüb, çoxlu sayda xırda və iribuynuzlu heyvan tələf olub.

"Dərin kədər hissi ilə qeyd edirik ki, düşmənin dinc əhalinin sıx yaşadığı əraziləri növbəti dəfə ağır artilleriyadan atəşə tutması nəticəsində sentyabrın 29-da saat 13 radələrində Ağdam rayonunun Qaradağlı kəndində tibb məntəqəsinə düşmüş top mərmisinin qəlpələrindən kənd sakini 1997-ci il təvəllüdlü Sarıyev Elməddin Hümbət oğlu həlak olub, məntəqənin binası dağılıb, ərazidəki sakinlər təxliyə edilib.

Faktla bağlı Ağdam Rayon Prokurorluğunda Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 120.2.1-ci (cinayətkar birlik-təşkilat tərəfindən qəsdən adam öldürmə), 120.2.4-cü (xüsusi amansızlıqla və ya ümumi təhlükəli üsulla qəsdən adam öldürmə), 120.2.12-ci (milli, irqi, dini ədavət və ya düşmənçilik niyyəti ilə qəsdən adam öldürmə), 100.2-ci (təcavüzkar müharibəni aparma),186.3-cü (əmlakı qəsdən məhv etmə və ya zədələmə xüsusilə külli miqdarda ziyan vurmaqla törədildikdə) və digər maddələri ilə cinayət işi başlanıb.

Hazırda prokurorluq əməkdaşları tərəfindən döyüş şəraitində mümkün olan bütün istintaq əməliyyat tədbirləri həyata keçirilir, o cümlədən yaralananların aldıqları xəsarətlərin ağırlıq dərəcəsini, eləcə də mülki infrastruktur obyektlərinə dəymiş ziyanın məbləğini müəyyən etmək məqsədilə müvafiq ekspertizalar təyin olunub.

Azərbaycan Respublikasının Baş Prokurorluğu tərəfindən müxtəlif cinayətlər törətmiş Ermənistan silahlı qüvvələrinin hərbi qulluqçularının beynəlxalq hüquq normaları çərçivəsində məsuliyyətə cəlb olunaraq cəzalandırılmalarını təmin etmək məqsədilə zəruri olan tədbirlər həyata keçirilir.

# Azərbaycanın hər bir vətəndaşı səfərbərlik çağırışını böyük ruh yüksəkliyi ilə qarşılayıb

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin "Azərbaycan Respublikasında qismən səfərbərlik elan edilməsi haqqında" 2020-ci il 28 sentyabr tarixli Sərəncamının icrası ilə bağlı təsdiq edilmiş plana uyğun olaraq, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin yerli struktur bölmələrində hərbi vəzifəlilərin səfərbərlik üzrə yola salınmasına başlanılıb.





Xidmətdən AZƏRTAC-a bildiriblər ki, qismən səfərbərliyə cəlb edilmiş Azərbaycan vətəndaşları ölkəmizin ərazi bütövlüyü uğrunda döyüşlərdə iştirak etmək üçün böyük ruh yüksəkliyi və coşqu ilə qurumun qeydiyyatda olduqları idarə, şöbə və bölmələrinə gəlirlər.

Hərbi vəzifəlilərin, onları yola salan valideyn və yaxınlarının ruh yüksəkliyi bir daha göstərir ki, xalqımız işğal altındakı ərazilərimizi düşməndən azad etmək üçün ordumuzun həyata keçirdiyi uğurlu hərbi əməliyyatlarla qürur duyur və ümumi qələbəmiz naminə nəbzi vətən ilə vuran Prezidentimiz, Ali Baş Komandanımız İlham Əliyevin sərəncamını təntənə ilə qarşılayır.

Çoxmillətli ölkəmizdə hər kəs vətənin müdafiəsini qanunla müəyyən edilmiş vəzifədən əlavə özünə mənəvi borc bilir. Bu gün hər bir çağırışçının dilində əsas şüar bunlardır: "Biz birlikdə güclüyük!", "Biz zəfər çalacağıq!" Çünki bizim işimiz haqq işidir.

"Bildiririk ki, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti tərəfindən ehtiyatda olan birinci dərəcəli hərbi vəzifəlilər əsgərlər, matroslar, çavuşlar, gizirlər və miçmanlar 35 yaş, zabitlər isə hərbi rütbəsindən asılı olaraq 50 və daha yuxarı yaş həddində Azərbaycan Ordusunun komplektləşdirilməsinə cəlb edilir, hərbi vəzifəlilərin hərbi hissələrə təhvil verilməsini təmin etmək üçün müvafiq tədbirlər uğurla davam etdirilir", - deyə Dövlət Xidmətinin məlumatında qeyd olunub.

# Düşmənin təxribatları nəticəsində baş verən yanğınların dərhal aradan qaldırılması üçün FHN gücləndirilmiş iş rejimində fəaliyyət göstərir

Fövqəladə Hallar Nazirliyi (FHN) tərəfindən aidiyyəti dövlət orqanları ilə birlikdə dinc və müharibə dövründə əhalinin etibarlı mühafizəsinin təmin olunması məqsədilə şəhər və rayonlarımızda kollektiv mühafizə qurğularının, o cümlədən sığınacaq, radiasiya əleyhinə daldalanacaq və zirzəmilərin hazırlıq səviyyəsi, tutumu, rabitə-xəbərdarlıq sisteminin, kommunal təsərrüfatı, mövcud infrastruktur və kommunikasiya sistemlərinin, nəqliyyat sahəsində fəaliyyət göstərən qurumların, səhiyyə müəssisələrinin imkanları hərtərəfli təhlil edilib, bu istiqamətdə müvafiq tədbirlər görülüb.

FHN-in Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Ermənistan Respublikasının hərbi-siyasi rəhbərliyinin təxribatçı xarakteri və ölkəmizin müharibə şəraitində yaşadığı nəzərə alınaraq Fövqəladə Hallar Nazirliyi cəbhəboyu zonada yaşayan əhalinin mülki müdafiəsinin aidiyyəti üzrə təmin edilməsi istiqamətində lazımi tədbirlər görüb. Belə ki, cəbhəboyu zonada və bilavasitə təmas xəttində yerləşən yaşayış məntəqələrinin sakinləri arasında düşmənin mümkün həmləsi zamanı zəruri təhlükəsiz davranış qaydaları barədə geniş maarifləndirmə işləri həyata keçirilib. Bu çərçivədə digər aidiyyəti dövlət orqanlarının nümayəndələrinin iştirakı ilə əhaliyə fövqəladə hallar zamanı, xüsusilə müharibə şəraitində davranış qaydaları, düşmən atəşinin təsirindən qorunmaq məqsədilə kənd sakinlərinin həyətyanı sahələrində yaradılmış müvəqqəti daldalanacaqlardan düzgün istifadə qaydaları aşılanıb. Bununla bağlı düşmənin artilleriya zərbələrindən qorunmaq üçün bütün cəbhəboyu zonada yerləşən yaşayış məntəqələrində lazımi sayda müvəqqəti daldalanacaqlar yaradılıb. Bundan başqa, dinc dövrdə irimiqyaslı fövqəladə hallar, müharibə dövründə isə düşmən hücumları barədə əhalinin vaxtında xəbərdar edilməsi üçün rabitə-xəbərdarlıq sisteminin vəziyyəti təhlil edilib, bu məqsədlə alternativ üsullardan istifadə edilməklə müvafiq tədbirlərin görülməsi təmin olunub.

Qeyd edək ki, düşmənin artilleriya atəşləri nəticəsində müxtəlif obyektlərə, o cümlədən mülki obyektlərə, fərdi və çoxmənzilli yaşayış evlərinə, təsərrüfatlara, infrastruktur obyektlərinə dəyən ziyanın, zərbələr nəticəsində baş verən yanğınların dərhal aradan qaldırılması üçün Fövqəladə Hallar Nazirliyi gücləndirilmiş iş rejimində fəaliyyət göstərir.

# Düşmənin artilleriya atəşi nəticəsində Cocuq Mərcanlı sakininin qəlpə yarası alması ilə bağlı cinayət işi başlanıb

Məlum olduğu kimi, təcavüzkar Ermənistanın hərbi-siyasi rəhbərliyi beynəlxalq hüququn norma və prinsiplərini kobud şəkildə pozaraq dinc əhaliyə qarşı terror əməllərini davam etdirir.

Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, sentyabrın 28-də saat 18 radələrində Cəbrayıl rayonunun Cocuq Mərcanlı kənd sakini, 2006-cı il təvəllüdlü Həziyev Hilal İlqar oğlu kənd ərazisində qoyun otararkən erməni silahlı qüvvələrinin açdığı atəş nəticəsində baş nahiyəsindən qəlpə yarası xəsarəti alaraq xəstəxanaya yerləşdirilib.

Fakta görə Cəbrayıl Rayon Prokurorluğunda Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 100.2-ci (təcavüzkar müharibəni aparma), 29, 120.2.1-ci (cinayətkar birlik-təşkilat tərəfindən qəsdən adam öldürməyə cəhd), 29, 120.2.4-cü (xüsusi amansızlıqla və ya ümumi təhlükəli üsulla qəsdən adam öldürməyə cəhd), 29, 120.2.12-ci (milli, irqi, dini ədavət və ya düşmənçilik niyyəti ilə qəsdən adam öldürməyə cəhd) maddələri ilə cinayət işi başlanıb.

Hazırda prokurorluq əməkdaşları tərəfindən hadisə yerində döyüş şəraiti nəzərə alınmaqla mümkün olan bütün istintaq-əməliyyat tədbirləri həyata keçirilir.

Müxtəlif cinayətlər törətmiş Ermənistan silahlı qüvvələrinin hərbi qulluqçularının beynəlxalq hüquq normaları çərçivəsində məsuliyyətə cəlb edilərək cəzalandırılmalarını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Baş Prokurorluğu tərəfindən zəruri sənədləşdirilmə aparılır və müvafiq qaydada sübutlar toplanılır.

İctimaiyyətə mütəmadi qaydada məlumatların verilməsi təmin ediləcək.

## Xalq orduya və Komandana güvənir, arxalanır

# Haqq savaşı



**Bu gün paytaxtımızda dalğalanan bayraqlar sabah Şuşa qalasından qələbə müjdəsini verəcək**

*Əvvəli 1-ci səh.*

Bir andaca əlləri ay-ulduzlu, üçrəngli bayraqlı, dilləri zəfər nəğməli insanlar küçələrdə selə döndü, aşdı-daşdı, haqq nidaları dünyanı lərzəyə saldı...

Ard-arda gələn qalibiyyət xəbərləri, kəndlərimizin bir-bir düşmən tapdağından azad edilməsi, tezliklə Qarabağa qayıdacağımızla bağlı qələbə mesajları xalqımızın hər bir övladının qəlbində qürur, sevinc hayqırtısına çevrildi...

Qaçqın, məcburi köçkün, şəhid, qazi ailələrinin ürəyində dağa dönən nisgilə, həsrətə, ağrıya-acıya məlhəm oldu...

### "Qarabağ Azərbaycandır!"

Bu gün on milyonluq Azərbaycan vətəndaşları, dünyada yaşayan bütün soydaşlarımız dövlətimizin başçısına məxsus "Qarabağ Azərbaycandır!" qələbə çağırışının tezliklə yerinə yetəcəyi və qısa zamanda rəşadətli ordumuzun üçrəngli müqəddəs bayrağımızı Şuşa qalasında dalğalandıracağı anın coşqusunu yaşayır.

Bu inam, bu güvən Ali Baş Komandan İlham Əliyevin daxili və xarici siyasətinin uzaqgörənliyindən, qətiyyətindən, qüdrətli Azərbaycan Ordusunun qələbə əzmindən doğur.

Elə yaxın dövrün Lələtəpə qələbəsi, Tovuz döyüşlərində igid oğullarımızın qəhrəmancasına düşməni darmadağın etməsi Azərbaycan əsgərinin polad iradəsindən xəbər verir.

2020-ci il sentyabrın 27-dən etibarən isə şanlı Azərbaycan Ordusu növbəti tarixi zəfərlərə imza atır. Hiyləgər, yalançı düşmənin məkrli planlarını alt-üst edir.

Ermənistanın növbəti hərbi təxribatının, mülki əhaliyə qarşı yönəlmiş təcavüzkar hücumunun qarşısını alan Azərbaycan Ordusu bütün cəbhə boyu əks-əməliyyata başladı. Çox keçmədən qələbə xəbərləri də ard-arda gəlməyə, yağı tapdağından azad edilən kəndlərimizin, yüksəkliklərimizin adları bir-bir açıqlanmağa başlandı...

### Vətən Qarabağdan başlayır

Ön səngərdə gedən haqq savaşı, qazanılan zəfərlər arxa cəbhədə böyük çoşquya, sevincə səbəb oldu. Bütün ölkəni qələbə əhvali-ruhiyyəsi, "Cəngi" sədası bürüdü, küçələr, binalar, avtomobillər Azərbaycan və qardaş Türkiyənin ay-ulduzlu qoşa bayraqlarıyla bəzəndi. Vətən torpaqlarımızı düşməndən azad etmək eşqiylə coşan xalqın mərd övladları orduya getmək üçün növbəyə düzüldülər...

Artıq Azərbaycanda hərbi vəziyyət və qismən səfərbərlik elan edilib. Diqqətə çatdırmalıyıq ki, ermənilər həmişəki kimi, yenə də öz xislətini göstərir, mülki əhalini hədəfə alır, dinc sakinlərin ölümünə səbəb olurlar.

Amma Azərbaycan Ordusu onlara layiqli cavab verir, rəşadətli döyüşünü davam etdirir. Həm də igid əsgərlərimiz Ermənistan hərbçilərindən fərqli olaraq, mülki obyektləri hədəfə almır. Hətta qarşı tərəfdəki mülki insanlara müraciət olunaraq hərbi obyektlərdən kənarda olmaları tövsiyə edilib. Və bu faktlar onu göstərir ki, Azərbaycan Ordusu təkcə hərbi qüdrəti ilə deyil, mənəvi keyfiyyətləri ilə də Ermənistanın qorxaq və aciz ordusundan üstündür, ucadır...

### Artıq qələbə zamanıdır

Hər bir azərbaycanlı üçün vətən Qarabağdan başlayır. Bu müharibə bizim üçün Vətən müharibəsidir. Qarabağın işğalının üzərindən xeyli zaman keçsə də, ürəyimizdəki nisgili heç zaman qaysaq bağlamayıb. Elə buna görədir ki, Ali Baş Komandanın bir Qarabağ nidasına milyonlarla hay verildi.

Artıq qələbə zamanıdır, haqqın, ədalətin öz yerini tapacağı andır. Rəşadətli ordumuzun üçrəngli bayrağımızı Qarabağın ən hündür zirvələrində, Şuşada, Laçında, Kəlbəcərdə, Ağdamda, Füzulidə, Cəbrayılda, Zəngilanda və neçə-neçə işğal altında olan yurdlarımızda dalğalandıracağı, bu vətən, bu bayraq uğrunda canlarından keçən şəhidlərin ruhunun şad olacağı gün yaxındadır...

***Yasəmən MUSAYEVA,*** ***"Azərbaycan"***

# Hərbi vəziyyətin tələbi ilə...



**Ermənistanın Azərbaycan Respublikasına qarşı silahlı hücumlar etməsi və mütəmadi hərbi təxribatlar törətməsi, əzəli və əbədi ata-baba yurdumuz olan Dağlıq Qarabağ bölgəsini və ətraf rayonlarını işğal etməsi ilə əlaqədar sentyabrın 27-də Azərbaycan Prezidenti İlham Əliyev "Hərbi vəziyyət elan edilməsi haqqında" fərman imzalayıb.**

Fərmana əsasən, 28 sentyabr saat 00:00-dan bütün ölkə ərazisində hərbi vəziyyət elan olunub. Bakı, Gəncə, Sumqayıt, Yevlax, Mingəçevir, Naftalan şəhərlərində, Abşeron, Cəbrayıl, Füzuli, Ağcabədi, Beyləqan, Ağdam, Bərdə, Tərtər, Goranboy, Göygöl, Daşkəsən, Gədəbəy, Tovuz, Şəmkir, Ağstafa, Qazax rayonlarında saat 21:00-dan səhər saat 06:00-dək komendant saatı tətbiq edilib. Ölkə başçısının imzaladığı "Hərbi vəziyyət dövründə komendant saatının tətbiq edildiyi ərazilərin komendantının təyin edilməsi haqqında" sərəncama əsasən, Daxili İşlər naziri Vilayət Eyvazov hərbi vəziyyət dövründə komendant saatının tətbiq edildiyi ərazilərin komendantı təyin edilib.

Qeyd edək ki, bütün ölkə ərazisində və ya ayrı-ayrı yerlərdə hərbi vəziyyətin elan və ləğv edilməsi, hərbi vəziyyətin qüvvədə olma müddətinin uzadılması, hərbi vəziyyət rejiminin təmin edilməsi qaydasını, cəbhəboyu zonada hərbi hissələrin yerləşdiyi ərazilərdə rejimin xüsusiyyətlərini, hərbi vəziyyət dövründə fiziki və hüquqi şəxslərin hüquqlarının təminatını "Hərbi vəziyyət haqqında" Azərbaycan Respublikasının Qanunu müəyyən edir. Bu qanunun tələblərini pozan şəxslər İnzibati Xətalar, Cinayət və Mülki məcəllələrə uyğun məsuliyyət daşıyırlar.

### Hərbi vəziyyət rejiminin təmin edilməsinə yönəldilmiş tədbirlər

Qanuna əsasən, hərbi vəziyyət dövründə aşağıdakı tədbirlər həyata keçirilə bilər:

- Təxsisləmiş (bron edilmiş) dövlət maddi ehtiyatlarından istifadə olunması;
- İctimai qaydanın və ictimai təhlükəsizliyin qorunması, hərbi və mühüm dövlət obyektlərinin, əhalinin təhlükəsiz yaşayış şəraitini təmin edən obyektlərin, nəqliyyatın, telekommunikasiya şəbəkə, qurğu və obyektlərinin, poçt obyektlərinin, su təchizatı və kanalizasiya sistemlərinin, enerji təchizatı müəssisələrinin, baş enerji nəqletmə sistemlərinin, insanlar və ətraf mühit üçün yüksək təhlükə mənbəyi olan xüsusi obyektlərin mühafizəsinin gücləndirilməsi;
- Mülkiyyət və təşkilati-hüquqi formasından asılı olmayaraq idarə, müəssisə və təşkilatların xüsusi iş rejiminə keçirilməsi;
- Stasionar və ya müvəqqəti yaşayış yerlərində məskunlaşdırılması şərtilə əhalinin, təsərrüfat və sosial təyinatlı obyektlərin, maddi və mədəni sərvətlərin təhlükəsiz rayonlara təxliyə olunması (köçürülməsi);
- Hərbi vəziyyət rejimini pozmaqda şübhə edilən mülkiyyət və təşkilati-hüquqi formasından asılı olmayaraq idarə, müəssisə və təşkilatlara məxsus bina və otaqların, nəqliyyat vasitələrinin yoxlanılması;
- Hərbi vəziyyətin elan edilməsinə səbəb olmuş halların aradan qaldırılmasına və müəyyən edilmiş tədbirlərin həyata keçirilməsinə mane olan siyasi partiyaların, həmkarlar ittifaqlarının, ictimai birliklərin, fondların və digər qeyri-hökumət təşkilatlarının fəaliyyətinin dayandırılması;
- Rabitədən istifadə üçün xüsusi qaydalara riayət olunması, telekommunikasiya şəbəkə, qurğu və obyektlərinin, poçt obyektlərinin fəaliyyətinin sabitliyinin təmin olunmasına nəzarətin gücləndirilməsi;
- Təhsil müəssisələrinin iş rejiminin dəyişdirilməsi, yaxud fəaliyyətinin dayandırılması;
- Karantinin tətbiq edilməsi, icbari sanitariya-gigiyena, epidemiya əleyhinə və baytarlıq tədbirlərinin keçirilməsi;
- Hərbi vəziyyət dövründə məxfilik rejiminin gücləndirilməsinə yönəldilmiş tədbirlərin həyata keçirilməsi;
- Silah, döyüş sursatı, xüsusi vasitələr, zəhərli və ya partlayıcı maddələrin satışının məhdudlaşdırılması və ya qadağan olunması, narkotik vasitələr, psixotrop maddələr və onların prekursorları və ya tərkibində güclü təsirə malik olan maddələr olan dərman preparatlarının, spirtli içkilərin dövriyyəsi üzrə xüsusi rejimin yaradılması, fiziki şəxslərdən odlu və soyuq silahın, döyüş sursatının, zəhərləyici və ya partlayıcı maddələrin, hüquqi şəxslərdən isə həmçinin təlim hərbi texnikasının və radioaktiv maddələrin müvəqqəti götürülməsi;
- Gündəlik tələbat mallarının, o cümlədən ərzaq və sənaye məhsullarının əldə olunmasında (satışında) xüsusi qaydaların tətbiq edilməsi;
- Müvafiq şəxslərin internə edilməsi;
- Yığıncaqlar, mitinqlər, küçə yürüşləri, nümayişlər və piketlərin, habelə digər kütləvi tədbirlərin keçirilməsinin qadağan edilməsi və ya məhdudlaşdırılması;
- Hərbi vəziyyətin elan olunduğu əraziyə (ərazilərə) xüsusi giriş-çıxış rejiminin tətbiqi və təmin edilməsi;
- Azərbaycan Respublikasına gəlmənin və Azərbaycan Respublikasından getmənin xüsusi qaydalarının tətbiq edilməsi;
- Yaşayış və ya olduğu yeri seçmək hüququnun məhdudlaşdırılması;
- Nəqliyyat vasitələrinin hərəkətinin məhdudlaşdırılması;
- Komendant saatı tətbiq edilməklə şəxslərin xüsusi icazə vərəqələri və şəxsiyyəti təsdiq edən sənədləri olmadan günün müəyyən edilmiş vaxtlarında küçələrdə və ya digər ictimai yerlərdə olmalarının qadağan edilməsi;
- Şəxslərin xüsusi icazə vərəqələrinin və şəxsiyyətini təsdiq edən sənədlərinin yoxlanılması, qanunda nəzərdə tutulmuş əsaslarla onların şəxsi əşyalarına, mənzillərinə və nəqliyyat vasitələrinə baxış keçirilməsi, şəxslərin və nəqliyyat vasitələrinin tutulub saxlanılması;
- Hərbi vəziyyət rejimini pozan və hərbi vəziyyətin tətbiq edildiyi ərazidə yaşamayan şəxslərin həmin ərazinin hüdudlarından çıxarılması;
- Əməyin mühafizəsi normalarına və qaydalarına tam riayət olunmaqla əhalinin təhlükəsiz yaşayış şəraitini təmin edən obyektlərin bərpası, yanğın, təbii fəlakətlərin və texnogen qəzaların nəticələrinin aradan qaldırılmasına fiziki və hüquqi şəxslərin cəlb edilməsi;
- Mülkiyyət və təşkilati-hüquqi formasından asılı olmayaraq idarə, müəssisə və təşkilatların fəaliyyətinin tətil və ya digər üsullarla dayandırılmasının qadağan edilməsi;
- Müdafiə ehtiyaclarının yerinə yetirilməsini təmin etmək məqsədi ilə mülkiyyət və təşkilati-hüquqi formasından asılı olmayaraq idarə, müəssisə və təşkilatların güc və əmək ehtiyatlarının (resurslarının) səfərbər olunması, səfərbərlik planlarına (tapşırıqlarına) uyğun olaraq onların istehsalat fəaliyyətinin növünün və ya iş rejiminin dəyişdirilməsi (o cümlədən işçilərin iş vaxtından artıq vaxtda işə cəlb olunması, əmək məzuniyyətindən istifadə edilməməsi və ya məzuniyyətin başqa vaxta keçirilməsi), bağlanılmış müqavilələr əsasında hərbi və mühüm mülki məhsulların istehsalına yönəldilməsi;
- Qanunla müəyyən edilmiş qaydada fiziki və hüquqi şəxslərin istifadəsində və mülkiyyətində olan daşınar və daşınmaz əmlakın əvəzi ödənilməklə, dövlət mülkiyyətində olan daşınar və daşınmaz əmlakın isə əvəzsiz olaraq müdafiə ehtiyacları üçün alınması və ya istifadə edilməsi.

Hərbi vəziyyət dövründə mülki müdafiə və ərazi müdafiəsi tədbirləri Azərbaycan Respublikasının müdafiə qanunvericiliyinin tələblərinə uyğun olaraq həyata keçirilir.

### Jurnalist peşəkarlığı

"Hərbi vəziyyət haqqında" Azərbaycan Respublikasının Qanununa görə, kütləvi informasiya vasitələrinin məlumat və materiallarının hərbi senzuradan keçirilə, hərbi vəziyyət tətbiq edildiyi ərazilərdə KİV-in xüsusi fəaliyyət rejimi tətbiq edilə, qanuni əsaslar olduqda onların fəaliyyətinin məhdudlaşdırılması və ya dayandırılması haqqında aidiyyəti orqanlara təqdimatlar verilə bilər.

Yeri gəlmişkən, ötən gün Azərbaycan Mətbuat Şurası da KİV təmsilçilərinə müraciət edərək, junalistləri, media orqanlarını cəbhədə yaranmış duruma münasibətdə həssas, soyuqqanlı davranmağa, öz işlərinə məsuliyyətlə yanaşaraq cəbhə ilə bağlı yalnız rəsmi mənbələrdən aldıqları məlumatlara üstünlük verməyə, hər hansı şübhəli, ilk mənbəyi bilinməyən materialların yayımlanmasından uzaq durmağa çağırıb. Bildirilib ki, jurnalist üçün həssaslıq peşə davranışı qaydalarına tam şəkildə riayət etməkdir. Peşəkarlıq rəsmi mənbələrə istinaddır, əldə edilmiş bilgilərin rəsmi təsdiqinə nail olmaqdır. Hər hansı emosiyalara qapılmaq, eyforiya yaradan fikirlərin təqdimatı yolverilməzdir: "İndiki durumda jurnalistlərimiz üçün ən böyük peşəkarlıq Azərbaycan Respublikasının Müdafiə Nazirliyinin məlumatlarına istinaddır. Ümid edirik və əmin olmaq istərdik ki, media orqanlarımızın təmsilçiləri üzərlərinə düşən vəzifəni məsuliyyətlə, jurnalistikamızın peşəkarlıq ənənələrinə sadiq qalaraq yerinə yetirəcək, xalqımızın haqq işinə özlərinin layiqli töhfələrini verəcəklər".

***Xəyalə MURADLI,*** ***"Azərbaycan"***

# Haqq yolunun Zəfər zirvəsi

Azərbaycan bu günlərdə öz tarixinə şanlı səhifələr əlavə etməkdədir. Düşmən işğalından azad edilən hər qarış torpaq özündə neçə müqəddəs an ehtiva edir: ulu dədələrin uzun illər ərzində gözü yolda qalan xatirəsi, bu torpaqları suvarmış Şəhid qanı və müasir Azərbaycan Ordusunun əzmi!

Bu günlərdə xalqın ruhunu daha da canlandıran, vahid ürək kimi döyündürən iki fakt var: ərazilərin ard-arda işğaldan azad edilməsi və ölkə Prezidentinin öz xalqı ilə daim bərabər olması. Bu günə gələn yolun təqribən 30 illik hazırlıq mərhələsi var və onun əsl mahiyyətini Prezident İlham Əliyev 27 sentyabrda həm xalqa müraciətində, həm də Təhlükəsizlik Şurasının iclasındadkı çıxışında çox aydın ifadə etdi.

Qarabağ düşmənin məkrli planlarının bir hissəsi olduğu halda Azərbaycan adlı canlı orqanizmin ayrılmaz bir üzvüdür və onun azad edilməsi şərəf və namus məsələsidir. Azərbaycan müstəqillik qazandığı ilk gündən qarşısına qoyduğu hədəfi öz tarixi kökləri üzərində layiqli, yüksək inkişaf etmiş, ərazidə tərəqqinin və sülhün nümunəsi olan bir Respublika qurmaqdadır. O, öz Haqq yolunu gedir. Nə qədər paradoksal olsa da, hər zaman haqq yolçularına maneçilik törədənlər çox olur. Ərazisinin işğalı da Azərbaycanın düz yolunun üzərinə qoyulmuş böyük bir maneədir, sanki qayadır. İllərdir o qayanın necə ləğv edilməsi ətrafında danışıqlar gedir, təkliflər irəli sürülür, lakin hər biri nəticəsiz qalırdı. Nəhayət, kifayət qədər güclənmiş Azərbaycan öz iradəsini və hökmünü göstərib o qayanı partladıb, öz yoluna davam etmək qərarı verdi. O, Haqqa gedən yolunda Qarabağ adlı problemi Qarabağ adlı qələbəyə çevirmək əzmini göstərməkdədir.

### Tək məqsəd - Azərbaycanın ərazi bütövlüyü!

Prezident İlham Əliyev bütün yerli və xarici çıxışlarında bir məsələni daim vurğulayır: Azərbaycan müstəqil ölkədir və müstəqilliyini qoruya biləcək gücə və iradəyə malikdir. Əslində, bu, tarixi əcdadlarımızdan bizə miras qalan torpaqlara sahib çıxmaqdır. Təhlükəsizlik Şurasının iclasına sədrlik edən cənab İlham Əliyev məhz bu məqamı bir daha önə çəkdi: "Dağlıq Qarabağ məsələsi bizim milli məsələmizdir. Dağlıq Qarabağ məsələsinin həlli bizim tarixi vəzifəmizdir. Mən dəfələrlə demişəm, bu gün də demək istəyirəm, biz bu məsələni elə həll etməliyik ki, Azərbaycan xalqı bundan razı olsun. Biz bunu elə həll etməliyik ki, tarixi ədalət bərpa edilsin. Biz bunu elə etməliyik ki, Azərbaycanın ərazi bütövlüyü bərpa olunsun". Bir dövlətin müstəqillik rəmzlərindən birincisi onun ərazi bütövlüyü və öz sərhədləri daxilində olan torpaqlarının həm əmin-amanlığının, həm də inkişafının təminidir. Bu gün Azərbaycan yüksək iqtisadi, mədəni, siyasi inkişaf yolundadır. Dünya xəritəsində öz yerini sabitləşdirməklə o, nəinki yaxın qonşularının, hətta uzaq ölkələrin də hesablaşdığı bir ölkəyə çevrilə bilib. Və bütün bunların fonunda paradoksal, hətta faciəvi bir haldır ki, çiçəklənən, inkişaf edən Azərbaycanın xəritəsində onun ərazisinin 20 faizi qara rənglə göstərilir. Azərbaycan Prezidenti 27 sentyabrda xalqa müraciətində deyir: "...Bizim işğal edilmiş bəzi ərazilərimizdə Ermənistan qanunsuz məskunlaşma aparıbdır. Bizim rayonlarımızın, kəndlərimizin adları dəyişdirilir. Azərbaycanlıların tarixi irsi silinir. Bizim tarixi abidələrimiz dağıdılır. Azərbaycan məscidləri dağıdılır, təhqir edilir. Bizim məscidlərimizdə Ermənistan inək, donuz saxlayır. Bu, bütün müsəlman aləminə ən böyük təhqirdir. Bizim əcdadlarımızın qəbirləri traktorla dağıdılır. Bunu edən faşistlərdir, vandallardır, vəhşilərdir". Başlanan hərbi əməlliyatlar həmin torpaqların "qara örtüyünün" qaldırılması, xəritədə "qara ləkəsiz" Azərbaycanı bərpa etməkdir.

### Nida işarəsi - Prezidentin və xalqın iradəsinin vəhdəti

Azərbaycan Prezidenti dönə-dönə öz çıxışlarında hər bir vətəndaşın rifahının, təhlükəsizliyinin nə dərəcədə böyük əhəmiyyət daşıdığını vurğulayır. Bu, təsadüfi bir diqqət deyil, güclü dövlətin ilk zəruri şərtidir. Öz millətini düşünən Lider ilk növbədə xalqda güclü əhvali-ruhiyyə, yüksək iradə, qətiyyət yaratmalıdır ki, hər zaman ona arxalana, ondan dəstək gözləyə bilsin. Xüsusilə qeyd edək ki, burada söhbət bir neçə cür güclənməkdən gedir. İlk növbədə bu, hər vətəndaşın qanuni hüquqlarının bərpası və öz doğma torpaqlarında rahat yaşamaq imkanıdır. İnkişaf işğal olunmuş yox, azad torpaqlarda mümkündür. Təhlükəsizlik Şurasındakı çıxışında Prezident İlham Əliyev deyir: "Mən əminəm ki, bizim uğurlu əks-hücum əməliyyatımız işğala son qoyacaqdır! Ədalətsizliyə son qoyacaqdır! Otuz ilə yaxın davam edən işğala son qoyacaqdır! Çünki Azərbaycan xalqı öz torpağında yaşamaq istəyir. Azərbaycan vətəndaşı Vətən həsrəti ilə yaşayır". Onu da xüsusilə vurğulayaq ki, öz yurduna qayıtmaq işin yalnız birinci mərhələsidir. Ölkə Prezidenti haqlı olaraq vəziyyətin faciəvi tərəfini önə çəkir: "Ermənilər tərəfindən, Ermənistan rəhbərliyi tərəfindən öz dədə-baba torpaqlarından zorla didərgin salınmış insanlar öz doğma ocaqlarına qayıtmaq istəyirlər. Baxmayaraq ki, artıq onların ocaqları vəhşilər tərəfindən dağıdılıb. Baxın Ağdam şəhərinin qalıqlarına. Baxın Füzuli şəhərinin qalıqlarına. Baxın işğal edilmiş ərazilərdə bizim məscidlərimizin, qəbiristanlıqlarımızın dağılmış vəziyyətinə". Ancaq heç nəyə baxmadan, bura Vətəndir. İşin əsas ikinci mərhələsinin təkanı da məhz buradan gəlir: azad olunmuş torpaqları abadlaşdırıb vətəndaşlara layiqli həyatı təmin etmək. Çoçuq Mərcanlıda qazanılan qələbədən sonra gedən quruculuq işləri bunun gözəl nümunəsidir.

Vətəndaşa qayğı doğma yurdunun qaytarılması ilə bitmir. Onun ruh yüksəkliyi, iradəsinin güclənməsi heç də az əhəmiyyət kəsb etməyən bir faktdır. Əslində hələ Aprel döyüşlərində özünü yüksək səviyyədə göstərən Lider-xalq vəhdəti günü-gündən möhkəmlənməkdə idi. Bu il Ermənistanın növbəti təxribatına cavab olaraq iyulun 14-dən 15-nə keçən gecə Bakı şəhərində Azərbaycan Ordusuna dəstək məqsədilə keçirilən yürüş isə bu vəhdətin necə sarsılmaz olduğunu, istənilən an güclü bir sel kimi hərəkətə gələ bilmək əzmini göstərdi. Bəli, xalqına dəstək olan Lider, təbii ki, onun sarsılmaz ruhu ilə də güclənmiş olur. Bu gücü ölkə Prezidentinin çıxışında da hiss etmək mümkün idi: "Onu da bildirməliyəm ki, bizim bütün hərbi hissələrimizdə, hərbi birləşmələrimizdə ruh yüksəkliyi var. Eyni zamanda ordumuza könüllü yazılanların sayı on minlərlə insanı əhatə edir. Bu, xalqımızın öz dövlətinə sadiqliyini göstərir". Çox əhəmiyyətli bir məqamı da vurğulayaq ki, məhz Lider-xalq vəhdətinin nəticəsidir ki, istər məsul şəxslərin bəyanatlarında, istər ayrı-ayrı beynəlxalq danışıqlarda nümayiş etdirilən mövqelərdə, istər cəbhədən xəbərləri paylaşan jurnalistin reaksiyalarında, istərsə də orduya çağırılacağı saatı gözləyən bir vətəndaşın çıxışında məhz İlham Əliyevin - Liderin nəfəsi, iradəsi hiss olunur. Bu səbəbdən o, böyük əminliklə və dərin bir güvənlə bildirir ki, "Azərbaycan vətəndaşları cəsarət göstərirlər, hər kəs öz yerindədir, ordumuza, dövlətimizə hər an dəstək verməyə hazırdırlar və bunu edirlər".

### Ərazi təhlükəsizliyinin açarı - Azərbaycan

Azərbaycan müstəqillik qazanandan bu günə kimi həm ağır sınaqlardan çıxıb, həm də güclü inkişaf yolu keçib. Azərbaycan artıq Sovet İmperiyasının tərkibindən çıxmış və hansı istiqamətdə irəliləyəcəyinə qərar verə bilməyən bir postsovet ölkəsi deyil. Ən vacibi isə, Azərbaycan güclə sülhə razı ediləcək zəif bir durumda deyil. Heç kimə gizli deyil ki, işğalçı dövlətin xain mövqeyinin arxasında daha böyük qüvvələr var. Bu gün Azərbaycan aysberq kimi görünməyən tərəfi daha böyük olan bir düşmənlə təkbaşına üz-üzə durur. 30 ilə yaxın gedən sülh danışıqları, şəhidlərlə müşayiət olunan atəşkəs rejimi, ermənilərin xislətində olan xainlik artıq son nöqtəsinə çatdı və 27 sentyabrdan başlayaraq Azərbaycan öz taleyini özü həll etməli oldu. Çünki ölkə Prezidentinin xalqa müraciətində də dediyi kimi, "məhz Ermənistanın riyakar, qeyri-konstruktiv və yalançı siyasəti nəticəsində hazırda danışıqlar faktiki olaraq dayanıbdır", ən vacibi isə, "Azərbaycanla hədə-qorxu dili ilə danışan bundan peşman olacaqdır". İlham Əliyev tarixdə həm səbri, həm qüruru, həm də qəzəbi ilə tanınan və sayılan Azərbaycan xalqının tam bir mücəssəməsi kimi çıxış edərək bildirdi ki, "Bu yaxınlarda bizim qədim Azərbaycanın qədim şəhəri olan Şuşada qondarma kriminal xunta rejiminin başçısının "andiçmə" mərasimi keçirilmişdir. Bu, təxribat deyilmi? Bu, bizə qarşı təhqirdir. Onlar hesab edirdilər ki, biz bu təhqirlə barışacağıq, razılaşacağıq. Onlar bizi şüurlu şəkildə təxribatlara çəkirlər və bunun acı nəticələrini görəcəklər". Bəli, hər zaman olduğu kimi, yenə də Azərbaycan öz tarixini özü yazır! Yolun Haqq tərəfi, xalqın gücü və Liderin əzmi məhz bundadır.

Azərbaycan regionun əksər iqtisadi meqalayihələrində iştirak edən, beynəlxalq aləmdə öz tələblərini irəli sürə bilən müstəqil bir dövlətdir. Bu baxımdan ona qarşı atılan istənilən addım, əleyhinə süni şəkildə hazırlanan istənilən xainlik birbaşa beynəlxalq aləmdə əks-səda verir və ciddi fəsadlara yol aça bilər. Ermənistan isə özünün həll edə bilmədiyi problemlərini başqa ölkələri də münaqişəyə çəkməklə örtbasdır etmək, subyektiv dərdini, iddiasını ərazi səviyyəsinə gətirmək istəyən və bununla özünü də uçuruma çəkən bir xunta rejiminə çevrilib. Bu məsələdə iki əhəmiyyətli məqam var. Birincisi, məsələ kökündən həll edilməlidir ki, bədxassəli şişə bənzəyən Ermənistan başqa bir yerdə metastaz verməsin. Bu səbəbdən Prezident İlham Əliyev vurğulayır ki, "Mən müxtəlif dövrlərdə dəfələrlə demişəm ki, bizə bu məsələnin, bu münaqişənin yarımçıq həlli lazım deyil. Biz öz torpağımızdayıq, bizim başqa ölkələrin torpağında gözümüz yoxdur. Amma öz torpağımızı heç kimə verən deyilik". Başqa sözlə desək, istər Ermənistan, istərsə də onun məkrli planlarını dəstəkləyən qüvvələr Azərbaycanın son qərarını və mövqeyini bilib, öz planlarını dəyişməlidirlər. O, xalqa müraciətində də bu məqama diqqət yönəldir: "İlk növbədə, Azərbaycan heç vaxt oyuncaq xunta rejimi ilə hər hansı bir danışıqlar aparmayacaq. İkincisi, danışıqlar formatını dəyişdirmək cəhdləri bir daha onu göstərir ki, Ermənistanın əsas məqsədi danışıqları pozmaq və status-kvonu saxlamaqdır. Halbuki ATƏT-in Minsk qrupunun həmsədr ölkələrinin dövlət başçıları dəfələrlə bəyan etmişlər ki, status-kvo qəbul edilməzdir və bu, o deməkdir ki, işğala son qoyulmalıdır". İkincisi isə, Azərbaycan Prezidenti erməni xalqının özünün də gözünü açmağa çalışır və onları başqalarının torpağında "çağırılmamış qonaq" kimi qalmaqdansa normal dövlət qurmağın vacibliyini vurğulayır: "Ermənistanda demoqrafik böhran yaşanır və onlarda insan resursları yoxdur ki, işğal edilmiş torpaqlarda öz adamlarını yerləşdirsinlər. Ona görə xaricdə yaşayan ermənilərə ümid edirlər. Hazırda bu siyasət davam etdirilir".

Bəli, son günlər Azərbaycan xalqı daha bir sınaq yaşayır. Ancaq bu dəfə əzm, iradə, mənəvi güc özünü daha açıq göstərir, xalqın Lideri həmişə olduğu kimi onunla bir yerdədir və Azərbaycan xalqına məxsus bir qürur və vüqarla çağırış edir ki, "Biz haqq yolundayıq. Bizim işimiz haqq işidir. Biz zəfər çalacağıq! Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!" Deməli, Xankəndidə, Şuşada dalğalanacaq Azərbaycan bayrağı həm də Lider-xalq vəhdətinin rəmzi olacaq!

***Könül BÜNYADZADƏ,*** ***AMEA-nın müxbir üzvü***

## 1 oktyabr prokurorluq işçilərinin peşə bayramı günüdür

# Korrupsiyaya qarşı mübarizə milli dövlət siyasətinin başlıca istiqamətlərindəndir

Azərbaycan Respublikası Ümummilli Lider Heydər Əliyevin müəyyən etdiyi strateji kursun dövlət başçısı cənab İlham Əliyev tərəfindən güclü siyasi iradə, əzm və qətiyyətlə müasir dövrün tələblərinə uyğun şəkildə davam etdirilməsi nəticəsində ölkə həyatının bütün sahələrində mühüm nailiyyətlər əldə edilmiş, sosial-iqtisadi inkişaf göstəricilərimiz əvvəlcədən prioritet olaraq qarşıya qoyulmuş hədlərə yüksəlmişdir.

Ötən illərin müqayisəli təhlili belə qənaətə gəlməyə əsas verir ki, hərtərəfli və dinamik yüksəliş dövrünü yaşayan respublikamızda həyata keçirilən köklü və sistemli islahatlar nəticəsində sosial-iqtisadi sahə ilə yanaşı, bu sahədə dayanıqlılığı təmin edən, dünya ölkələrinə məxsus müsbət cəhətləri və milli xüsusiyyətləri özündə birləşdirən, beynəlxalq prinsip və müddəalara uyğun olan hüquq və qanunvericilik sistemi də yaradılmış, dövlət təsisatlarında idarəçilik metodları ən yüksək standartlara müvafiq şəkildə formalaşdırılmışdır.

Əsrlik tarixi ənənələri və milli hüquq sistemindəki vacib rolu ilə dövlət orqanları sırasında öz layiqli yerini tutan prokurorluq respublikamızın inkişafına paralel olaraq tam yenidən qurulmaqla dövrün tələblərinə cavab verən, fəaliyyətində qanunçuluq, dövlətçilik, siyasi bitərəflilik, obyektivlik və qərəzsizlik prinsiplərinə əsaslanan müasir məzmunlu bir orqana çevrilmişdir. Sürətli tərəqqi yolunu tutan ölkəmizdə ictimai münasibətlər intensiv şəkildə dəyişdiyindən prokurorluq orqanlarının qarşısında duran vəzifələrin həcmi və məzmununa dair tələblər də adekvat forma almışdır.

Azərbaycan Respublikası Prezidentinin həyata keçirdiyi strateji kursun və dövlət siyasətinin prioritetlərinə uyğun olaraq ölkədə korrupsiyaya qarşı sistemli mübarizənin aparılması istiqamətində görülən işlərin, həyata keçirilən islahatların və təşkilati tədbirlərin səmərəliliyi yüksəlmiş, korrupsiyaya qarşı daha ciddi mübarizənin aparılmasında prokurorluq orqanlarının üzərinə düşən vəzifələrin həcmi və məsuliyyəti daha da artmışdır. Korrupsiyaya qarşı barışmaz mübarizənin aparılması dövlət başçısı cənab İlham Əliyev tərəfindən həyata keçirilən siyasətin əsas istiqamətini təşkil etdiyindən, korrupsiyaya qarşı preventiv tədbirlərin görülməsi, ardıcıl islahatların aparılması, o cümlədən bu qəbildən olan cinayətlərin qarşısının alınması, onları törətmiş şəxslərə münasibətdə ciddi tədbirlərin həyata keçirilməsi məsələlərinə xüsusi diqqət yetirilir.

Bu sahədə mövcud olan qəti siyasi iradə eyni zamanda konkret əməli-praktiki addımlarla müşayiət olunmuşdur. Həyata keçirilən genişmiqyaslı islahatların digər istiqaməti kimi milyonlarla vətəndaşa xidmət göstərilməklə dövlət qulluqçusu-vətəndaş münasibətlərində yeni yanaşmanın formalaşmasına töhfə verən, bürokratiya, süründürməçilik və korrupsiya hallarının aradan qaldırılmasında mühüm rol oynayan "ASAN xidmət" mərkəzlərinin fəaliyyət coğrafiyasının daha da genişləndirilərək 19 mərkəzə çatdırılması, habelə yarandığı gündən keçən qısa müddət ərzində bu xidmətə 34 milyondan çox müraciət daxil olması, əhalinin məşğulluğu, əmək, sosial müdafiə və təminat sahələri üzrə 132 xidmətin "bir pəncərə"dən təqdim edilməsinə imkan verən nadir layihə kimi DOST mərkəzlərinin fəaliyyətə başlaması Azərbaycanda korrupsiyaya qarşı mübarizə sahəsində dövlət və cəmiyyət arasında olan həmrəyliyin bariz nümunəsidir.

Dövlət başçısının 2016-cı il 27 aprel tarixli sərəncamı ilə təsdiq edilmiş "Açıq hökumətin təşviqinə dair 2016-2018-ci illər üçün Milli Fəaliyyət Planı" dövlət orqanları tərəfindən 89% icra edilmiş, bu strateji sənədin icrası çərçivəsində qanunvericilik, dövlət xidmətləri, açıq hökumət, maarifləndirmə və beynəlxalq fəaliyyət sahələrində müvafiq olaraq Milli Məclisin deputatlarının etik davranış qaydaları haqqında və korrupsiya hüquqpozmalarla bağlı məlumat verən şəxslərin dövlət müdafiəsinin təmin edilməsi ilə bağlı qanunlar qəbul edilmiş, Elektron Xidmətlərin İnkişafı Mərkəzi yaradılmışdır.

Habelə, "Açıq hökumətin təşviqinə dair 2016-2018-ci illər üçün Milli Fəaliyyət Planı"nın 9.5-ci bəndinin icrası ilə əlaqədar (İqtisadi sahədə törədilən cinayətlərə görə məsuliyyətin yüngülləşdirilməsi və dekriminalaşdırılması ilə əlaqədar qanunvericilik və digər tədbirlərin görülməsi) dövlət başçısı tərəfindən cinayət təqibi və cəzaların icrası sahəsində korrupsiyanı istisna edən şəraitin tam təmin olunması, penitensiar müəssisələrin fəaliyyətinin təkmilləşdirilməsi, cəzanı icra edən orqan və müəssisələrdə mövcud olan nöqsanların aradan qaldırılması və cəza siyasətinin humanistləşdirilməsi məqsədilə 10 fevral 2017-ci il tarixdə "Penitensiar sahədə fəaliyyətin təkmilləşdirilməsi, cəza siyasətinin humanistləşdirilməsi və cəmiyyətdən təcrid etmə ilə əlaqədar olmayan alternativ cəza və prosessual məcburiyyət tədbirlərinin tətbiqinin genişləndirilməsi barədə" sərəncam, habelə məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 3 aprel 2019-cu il tarixli fərman imzalanmaqla korrupsiya ilə mübarizə sahəsində aparılan mühüm institusional islahatlarda növbəti addım atılmışdır.

Son dövrlər ərzində dövlət səviyyəsində görülmüş məqsədyönlü işlər korrupsiya və rüşvətxorluğa qarşı fundamental mübarizəyə başlanılmasının, dövlət başçısı cənab İlham Əliyevin qeyd edilən neqativ təzahürlərin tam aradan qaldırılmasına yönəlmiş siyasi iradəsinin qətiyyətlə həyata keçirildiyinin göstəricisidir. 2020-2022-ci illər üçün nəzərdə tutulmuş Açıq Hökumətin təşviqinə və Korrupsiyaya qarşı mübarizəyə dair Milli Fəaliyyət planlarının təsdiq edilməsi bu istiqamətdə görülən böyük işlərdən biridir. Hazırda Milli Fəaliyyət Planının icrası ilə bağlı prokurorluq orqanlarının üzərinə düşən vəzifələrin vaxtında və yüksək keyfiyyətlə yerinə yetirilməsinə yönəldilmiş müvafiq işlər görülür.

Sevindirici haldır ki, gənc dövlət olmasına baxmayaraq, Azərbaycan Respublikası qısa müddət ərzində korrupsiyaya qarşı mübarizə sferasında beynəlxalq standartlar səviyyəsində çevik və sarsılmaz strategiya formalaşdırmış və onun səmərəli tətbiqinə nail olmuşdur.

Göründüyü kimi, Azərbaycan Respublikasında yürüdülən islahat konsepsiyaları həyatiliyi, uğurlu nəticələri və davamlılığı ilə xarakterizə olunmaqla hər bir dövrün spesifik tələbləri nəzərə alınaraq mərhələlərə bölünür, onun mümkün nəticələri öncədən görülür, ən əsası isə milli mənafeyə xidmət edəcək cəhətləri əvvəlcədən hesablanılır.

Dövlət başçısının prokurorluq orqanlarına göstərdiyi yüksək etimadın növbəti təzahürü kimi 1 may 2020-ci ildə qanunverici orqan qarşısında namizədliyini irəli sürdüyü Baş prokurorun müavini- Baş İdarə rəisi Kamran Əliyevi Azərbaycan Respublikasının Baş prokuroru vəzifəsinə təyin edilməsi ilə bağlı videoformatda qəbul edərkən bu mühüm dövlət təsisatına korrupsiyaya qarşı daha fəal iş aparılmasını, struktur və kadr islahatlarının həyata keçirilməsini tövsiyə etməsi, eləcə də aktual mövzu ətrafında vurğuladığı digər vacib məqamlar qurumun üzərinə düşən vəzifələri daha məsuliyyətlə yerinə yetirməsi, habelə mübarizə tədbirlərinin daha da artırılması üçün ortaya qoyduğu siyasi iradənin göstəricisidir.

Bu sahədə mövcud olan qəti siyasi iradə eyni zamanda konkret əməli-praktiki addımlarla müşayiət olunmuş və Azərbaycan Respublikası Prezidentinin 10 iyun 2020-ci il tarixli sərəncamı ilə Baş Prokurorluğun strukturu mahiyyətcə tamamilə yenidən formalaşdırılmışdır.

Belə ki, günün tələblərinə uyğun olaraq daha mobil, effektiv və dinamik idarəçiliyin təmin edilməsi məqsədilə Baş prokurorun yeni müavini ştatı təsis edilmiş, idarə və şöbələrin sayı 15-dən 18-ə çatdırılmış, qabaqcıl beynəlxalq təcrübə əsas götürülməklə Cinayət təqibindən kənar icraatlar və korrupsiya cinayətlərinin törədilməsi nəticəsində vurulmuş ziyanın aradan qaldırılmasında mühüm əhəmiyyətə malik Xüsusi müsadirə məsələlərinin əlaqələndirilməsi idarələri yaradılmış və yeni yaradılmış idarələr ilə Baş İdarə arasında sıx əməkdaşlıq əlaqələri qurulmuş, bu qurumların təsis edilməsi ilə ziyanın ödənilməsi prosesi daha da təkmilləşdirilmişdir.

Bütün bu müsbət göstəricilər öz növbəsində Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi tərəfindən üzərinə qoyulmuş vəzifələrin uğurla və daha səmərəli icra edilməsində mühüm rol oynamışdır.

Baş İdarənin digər hüquq mühafizə orqanları ilə əlaqəli fəaliyyətinin nəticəsi olaraq kriminogen durum ötən müddətdə stabil saxlanılmış və cinayətkarlığın dinamikasında mənfi təzahürlərin qarşısı alınmış, sosial təminat, təhsil sahəsi, yerli icra hakimiyyəti orqanları, həmçinin bank sektorunda yol verilmiş qanunsuzluqlarla əlaqədar bir sıra aktual cinayət işləri üzrə intensiv araşdırmalar aparılmışdır.

2020-ci ilin 6 ayı ərzində Baş İdarəyə daxil olmuş vətəndaşların müraciətlərinin sayı ötən ilin eyni dövrü ilə müqayisədə 5 faiz azalmış, "161-Qaynar xətt" əlaqə mərkəzinə daxil olmuş müraciətlərin sayı isə 6 faiz artmışdır.

Habelə qeyd olunan dövr ərzində cinayət işləri üzrə vurulmuş ziyanın ödənilməsi ötən ilin müvafiq dövrü ilə müqayisədə 14 faiz artaraq 46,9 faiz təşkil etmiş və külli miqdarda ziyanın ödənilməsinə nail olunmuşdur.

Qeyd edilənlərdən əlavə, son dövrlər xüsusi aktuallığı ilə seçilən yerli idarəetmə - yerli icra hakimiyyəti orqanlarının vəzifəli şəxslərinin fəaliyyətində aşkar olunan qanunsuz hallara qarşı 2019-cu ilin sonlarından etibarən Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi və Dövlət Təhlükəsizliyi Xidməti tərəfindən həyata keçirilmiş istintaq-əməliyyat tədbirləri nəticəsində 7 bölgədə (Ağstafa, Yevlax, Neftçala, Biləsuvar, İmişli, Kürdəmir rayonları, Gəncə şəhəri və şəhərin Nizami rayonu) icra hakimiyyəti başçılarının, eləcə də digər vəzifəli şəxslərinin korrupsiya əməlləri aşkar edilmişdir.

Qeyd edilənlərlə yanaşı, COVID-19 pandemiyası ilə əlaqədar dünyada cərəyan edən məlum hadisələr zəminində xalqın maraqları və təhlükəsizliyinin qorunması ilə bağlı dövlət səviyyəsində həyata keçirilən sistemli tədbirlərdən sui-istifadə edən vəzifəli şəxslərə, kölgə iqtisadiyyatı subyektlərinə, o cümlədən qara mühasibatlıq aparmaqla dövlət nəzarətindən və qeydiyyatından gizli şəkildə qanunsuz fəaliyyət göstərən möhtəkirlərə qarşı Baş İdarə tərəfindən effektiv mübarizə tədbirləri aparılmaqdadır.

Dövlət başçısının fəaliyyətinin prioritet istiqamətlərindən olan korrupsiya və rüşvətxorluğa qarşı mübarizədə beynəlxalq əməkdaşlığın önəmini və qarşılıqlı təcrübənin paylaşılmasının əhəmiyyətini nəzərə almaqla, fəaliyyətə başladığı ilk dövrlərdən Baş İdarə bu sahədə ixtisaslaşmış beynəlxalq təşkilatlarla və xarici tərəfdaşlarla qarşılıqlı əlaqələrin qurulmasına və daha da inkişaf etdirilməsinə daim xüsusi əhəmiyyət vermişdir.

Belə ki, Azərbaycan Respublikası qoşulmuş olduğu Avropa Şurasının "Korrupsiya ilə əlaqədar cinayət məsuliyyəti haqqında" və "Korrupsiya ilə əlaqədar mülki məsuliyyət haqqında" konvensiyaları, Birləşmiş Millətlər Təşkilatının "Transmilli mütəşəkkil cinayətkarlığa qarşı" və "Korrupsiyaya qarşı" konvensiyaları və digər bu kimi mütərəqqi beynəlxalq təşəbbüslərdə əksini tapan müddəaları öz milli hüquq sistemində tətbiq etməklə səmərəli anti-korrupsiya qanunvericiliyi yaratmış və onun işləkliyini təmin edən siyasi iradə sərgiləmişdir.

Bununla yanaşı, korrupsiyaya qarşı mübarizə sahəsində görülmüş işlərin nəticəsi kimi, Avropa Şurasının Korrupsiyaya qarşı Dövlətlər Qrupu (GRECO) və İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (OECD) Şərqi Avropa və Mərkəzi Asiya üzrə Anti-korrupsiya Şəbəkəsi də daxil olmaqla əksər beynəlxalq qurumların hesabatlarında ölkəmizdə bu istiqamətdə həyata keçirilən tədbirlər müsbət dəyərləndirilir. Bu müsbət tendensiya hər il yenilənən beynəlxalq reytinqlərdə də öz əksini tapır.

Belə ki, Azərbaycan Avropa Şurasının "Korrupsiya ilə əlaqədar cinayət məsuliyyəti haqqında" və "Korrupsiya ilə əlaqədar mülki məsuliyyəti haqqında" konvensiyalarını 11 fevral 2004-cü il tarixdə ratifikasiya etmiş və onlar qüvvəyə mindiyi 01 iyun 2004-cü il tarixdən GRECO-ya üzv olmuşdur. Qeyd olunmalıdır ki, ölkəmiz müxtəlif dövr ərzində GRECO tərəfindən həyata keçirilən "Korrupsiyaya qarşı" beynəlxalq konvensiyaların hüquq sisteminə implementasiyasının I, II, III və IV Dəyərləndirmə raundlarını bitirmişdir.

Bundan başqa, Azərbaycan Respublikasının İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (OECD) Şərqi Avropa və Mərkəzi Asiya üçün Antikorrupsiya Şəbəkəsi ilə əməkdaşlığı ölkəmizin 2003-cü ildə İstanbul Fəaliyyət Planını qəbul edərək təşkilat çərçivəsində iqtisadiyyatları keçid mərhələsində olan ölkələrin antikorrupsiya şəbəkəsinə bölgənin digər ölkələri ilə birgə qoşulması ilə başlamışdır. İstanbul Fəaliyyət Planı Şəbəkəyə üzv ölkələrdə mərhələli şəkildə antikorrupsiya islahatlarının həyata keçirilməsini və nəticələrinin qiymətləndirilməsini nəzərdə tutur.

İndiyədək respublikamız müxtəlif dövr ərzində OECD-nin I, II, III və 2019-cu ildə IV monitorinq mərhələsini tamamlayaraq uyğunluq hesabatı əldə etmişdir.

Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin əməkdaşları hər iki təşkilat tərəfindən təşkil olunan qiymətləndirmə missiyalarına cəlb olunaraq müxtəlif ölkələrin qiymətləndirilməsində ekspert qismində iştirak etmişlər.

Xüsusilə qeyd etmək lazımdır ki, Azərbaycan Respublikasının Korrupsiyaya Qarşı Mübarizə üzrə Komissiyanın 15.09.2020-ci il tarixli iclasında İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (OECD) Şərqi Avropa və Mərkəzi Asiya üzrə Antikorrupsiya Şəbəkəsi üzrə Milli Kordinator vəzifəsinə Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyev seçilmişdir.

Habelə, digər beynəlxalq təşkilatlarla yanaşı, Beynəlxalq Antikorrupsiya Akademiyası ilə də qurulmuş sıx əməkdaşlıq əlaqələri davam etdirilir. Belə ki, ötən dövrdə Baş İdarənin 5 əməkdaşı akademiyanın Magistratura proqramını bitirərək məzun adı qazanmış, digər 3 əməkdaş isə hazırda təhsillərini davam etdirməkdədir. Bundan başqa, Baş İdarənin 3 əməkdaşı 3 beynəlxalq və regional monitorinq mexanizmi çərçivəsində 5 ölkənin milli qanunvericiliyinin dəyərləndirilməsi prosesində ekspert qismində iştirak etmişdir.

Bütün bu sadalanan nailiyyətlər dünya müstəvisində tanınmış mötəbər beynəlxalq reytinqlərdə də öz əksini tapmış və "Beynəlxalq Şəffaflıq" təşkilatının (Transparency International) 2019-cu il üçün hesabatında Azərbaycan Respublikası Korrupsiya Qavrama İndeksi üzrə 26 pillə irəliləmişdir.

Müasir dövrdə müxtəlif ölkələrdə dövlət idarəçiliyinin səmərəliliyinin və şəffaflığının artırılmasında mühüm rol oynayan rəqəmsal xidmətlər və onlayn platformaların korrupsiya cinayətlərinin qarşısının alınmasında da effektiv istifadə edilməsinin nəzərə alınaraq bu mübarizədə zamanın çağırışları ilə səsləşən informasiya texnologiyalarının yeni imkanlarından istifadənin genişləndirilməsi məqsədilə mütəmadi olaraq Baş İdarə əməkdaşlarının ixtisasartırma kurslarına cəlb edilməsi həyata keçiririlir.

Bununla yanaşı, Baş İdarə tərəfindən korrupsiyaya qarşı mübarizə fəaliyyətində qeyri-hökumət təşkilatları ilə sıx münasibətlərin qurulmasına xüsusi önəm verilmiş, Baş İdarənin fəaliyyəti, bu sahədə son vaxtlar qəbul edilmiş qanunvericiliyin tələbləri, beynəlxalq əməkdaşlıq nəticəsində həyata keçirilən tədbirlər, həmin tədbirlərin reallaşmasında dövlət qurumlarının və vətəndaş cəmiyyətinin rolu, Baş İdarə tərəfindən həyata keçirilən uğurlu əməliyyat tədbirləri, istintaqı aparılan cinayət işləri və digər mühüm məsələlər ilə əlaqədar kütləvi informasiya vasitələrində ictimaiyyətə mütəmadi məlumat verilməsi təmin edilmişdir.

Dövlətçiliyə sadiqliyini sübuta yetirmiş prokurorluq kollektivi və Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin hər bir əməkdaşı bundan sonra da fəaliyyətlərinin Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin və Azərbaycan Respublikası Baş Prokurorluğunun rəhbərliyi tərəfindən göstərilən etimada layiqli səviyyədə qurulması üçün qarşıya qoyulmuş vəzifələrin yerinə yetirilməsində və yeni məzmunlu mütərəqqi islahatların reallaşdırılması istiqamətində xidmətlərini göstərəcək, ölkəmizdə formalaşmış dayanıqlı ictimai-siyasi sabitliyin və milli maraqlarımızın cinayətkar qəsdlərdən qorunması, qanunun aliliyinin təmin edilməsi, insan hüquq və azadlıqlarının etibarlı müdafiəsi, mütəşəkkil cinayətkarlığın ən təhlükəli təzahürlərindən biri olan korrupsiyaya qarşı mübarizənin gücləndirilməsi istiqamətində üzərinə düşən vəzifələri daha məsuliyyətlə yerinə yetirərək cinayətkarlığa qarşı ciddi və səmərəli mübarizə tədbirlərinin həyata keçirilməsini təmin edəcəklər.

***Nazim RƏCƏBOV,***
***Azərbaycan Respublikası Baş prokurorunun müavini - Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin rəisi, III dərəcəli dövlət ədliyyə müşaviri***

# Türk Ticarət və Sənaye Palatasının sədri Azərbaycan Sahibkarlar Konfederasiyasının prezidentinə məktub göndərib



Türk Ticarət və Sənaye Palatasının (TOBB) sədri Rıfat Hisarcıklıoğlu Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının prezidenti Məmməd Musayevə məktub göndərib.



TOBB
TÜRKİYE ODALAR VE BORSALAR BİRLİĞİ

Sayın Memmed MUSAYEV
ASK Başkanı
BAKÜ

Tarih : .../.../2020
Sayı : 0411/...
Konu : Destek Mektubu

Değerli Kardeşim Musayev,

Azerbaycan'a yönelik 27 Eylül günü yeniden başlayana Ermenistan saldırılarını üzüntüyle öğrendik ve yakından takip ediyoruz. Bu saldırılar, Bölgemizdeki barış çabalarını baltalamaktadır.

Bu saldırılarla uluslararası hukuk açıkça ihlal edilmektedir. Sivil kayıplara da yol açan bu saldırıları şiddetle kınıyoruz. Bu saldırılarla Ermenistan bölgede barış ve istikrarın önündeki en büyük engel olduğunu bir kez daha göstermiştir.

Azerbaycan'ın, kendi halkını ve toprak bütünlüğünü korumak için meşru müdafaa hakkını destekliyoruz. Bu süreçte, Türk iş dünyasının ve Türk Ticaret ve Sanayi Odası'nın Azerbaycan'a desteği tamdır.

Uluslararası toplumu da haklının yanında durmaya davet ediyoruz.

Bu vesileyle, şehit düşen Azerbaycanlı kardeşlerimize Allah'tan rahmet, yaralılara acil şifa ve Can Azerbaycan'a başsağlığı diliyoruz.

M. Rifat HİSARCIKLIOĞLU
TOBB Başkanı
Türk Ticaret ve Sanayi Odası Başkanı

Məktubda bildirilir ki, sentyabrın 27-dən başlayan hadisələri öz növbəsində TOBB diqqətlə izləyir və Ermənistanın bu təxribatlarının bölgəmizdəki sülh danışıqlarını baltaladığını bəyan edir.

"Bu təxribatlar beynəlxalq hüququ açıq şəkildə tapdalayır. Mülki əhali arasında itkilərə yol açan bu təxribatları şiddətlə qınayırıq. Ermənistan bu təxribatçı hərəkətlərilə bölgədə sülh və əmin-amanlıq üçün əsas təhlükə olduğunu bir daha göstərdi", - deyən Rıfat Hisarcıklıoğlu Azərbaycanın öz xalqını və ərazi bütövlüyünü qorumaq üçün haqlı müdafiəsini dəstəklədiklərini qeyd edib.

"Bu dönəmdə türk iş dünyasının və Türk Ticarət və Sənaye Palatasının Azərbaycana dəstəyi tamdır",- söyləyən Rıfat Hisarcıklıoğlu beynəlxalq ictimaiyyəti də haqlının yanında olmağa çağırdı.

TOBB başkanı Azərbaycan torpaqlarının azad olunması uğrunda gedən döyüşlərdə şəhid olanlara Allahdan rəhmət diləyib, "Can Azərbaycan"a başsağlığı verib və yaralılara acil şəfa diləyib.

# Səhiyyə naziri qrip və kəskin respirator xəstəliklərə qarşı profilaktik tədbirlərin gücləndirilməsi barədə əmr imzalayıb

"Səhiyyə naziri Oqtay Şirəliyev Ümumdünya Səhiyyə Təşkilatının "Qriplə mübarizəyə dair Qlobal Strategiya 2019-2030" sənədinə uyğun olaraq, davam edən COVID-19 pandemiyası şəraitində, hər il olduğu kimi "2020-2021-ci ilin payız-qış mövsümündə respublikada qrip və kəskin respirator xəstəliklərə qarşı profilaktik tədbirlərin gücləndirilməsi barədə" əmr imzalayıb".

Bu barədə AZƏRTAC-a Səhiyyə Nazirliyinin Mətbuat xidmətindən bildirilib.

Sənəddə 2020-2021-ci ilin payız-qış mövsümünün başlanması ilə əlaqədar əhali arasında qrip və kəskin respirator virus infeksiyalarına qarşı profilaktik və əksepidemik tədbirlərin, həmçinin infeksiya üzərində epidemioloji monitorinqin gücləndirilməsi məqsədilə Səhiyyə Nazirliyinin tibb idarə və müəssisələrinin rəhbərlərinə müvafiq tapşırıqlar, eləcə də digər dövlət tibb müəssisələrinə tövsiyələr verilib.

Respublikanın bütün şəhər və rayonlarında müəyyən olunmuş əhali qrupları arasında qrip əleyhinə vaksinasiya tədbirləri 2020-ci ilin oktyabrın 12-dən başlayaraq bir ay ərzində həyata keçirilməsi, eləcə də əhali arasında qrip və kəskin respirator virus xəstəliklərinin profilaktikası məqsədilə sanitariya-maarifi işinin aparılması, ümumtəhsil və məktəbəqədər uşaq müəssisələrində tibbi müşahidələr aparılmasının təşkili, qripə şübhəli xəstələrin, xüsusən uşaqlar və yaşlı əhalinin hospitalizasiyasının təmini, zəruri hallarda tibb müəssisələrində məhdudlaşdırıcı rejimin tətbiqi, tibb personalının fərdi qoruyucu vasitələrdən (maskalardan) istifadə edilməsinin təmini göstərişləri əmrdə əks olunub.

Əmrdə, eyni zamanda, profilaktik dezinfeksiya işlərinin gücləndirilməsi, qrip və kəskin respirator virus xəstəliklərinin müalicəsi üçün dərman preparatlarının ehtiyatının yaradılması, respublikanın şəhər və rayonlarının gigiyena və epidemiologiya mərkəzlərinin rəhbərlərinə ümumtəhsil və məktəbəqədər uşaq müəssisələrində, habelə tibb müəssisələrində sanitariya-gigiyena norma və qaydalarına, dezinfeksiya rejiminə ciddi riayətin gücləndirilməsi kimi əhəmiyyətli göstərişlər də verilib.

# Cəbhəyanı rayon və kəndlərdə kənd təsərrüfatı işləri adi qaydada davam etdirilir

Son vaxtlar Ermənistanın Azərbaycana qarşı hərbi təxribatları müntəzəm xarakter alıb. Ermənistan silahlı qüvvələri beynəlxalq hüququn norma və prinsiplərini kobudcasına pozaraq yaşayış məntəqələrini, fərdi və çoxmənzilli yaşayış binalarını, o cümlədən mülki obyektləri ağır artilleriya qurğularından atəşə tutmaqda davam edir. Bu gün Azərbaycan Ordusu düşmənə layiqli cavabını verir, Azərbaycan torpaqlarında düşmənə sarsıdıcı zərbələr endirir və öz ərazi bütövlüyünü qoruyur.

Ermənistan hərbçilərinin təmas xəttində yaratdığı gərginlik və dinc əhalini qəsdən atəşə tutması sakinlərin gündəlik həyat şəraitlərində bir sıra çətinliklər yaradıb. Buna baxmayaraq, dövlətimizə, ordumuza sarsılmaz inam və etibar edən dinc əhalimiz adi qaydada öz təsərrüfat işləri ilə məşğul olur. Azərbaycan Ordusu döyüş meydanında, xalqımız isə arxa cəbhədə əsl şücaət və əzmkarlıq nümayiş etdirir.

Qeyd edək ki, Azərbaycan Respublikasının ərazisində elan edilmiş hərbi vəziyyətlə əlaqədar tətbiq olunan komendant saatı müddətində kənd təsərrüfatı məhsullarının toplanması, istehsalı və emalı, o cümlədən fermer təsərrüfatlarının fəaliyyətinə icazə verilib. Bütün rayonlarda, o cümlədən cəbhəyanı rayon və kəndlərdə kənd təsərrüfatı məhsullarının toplanması ilə bağlı, habelə növbəli suvarma, təxirəsalınmaz baytarlıq və bitki mühafizə xidmətləri istiqamətində fəaliyyət adi qaydada davam etdirilir.

Bununla əlaqədar AZƏRTAC-a açıqlama verən Kənd Təsərrüfatı Nazirliyinin "Azəraqrar Dövlət İstehsalat və Emal Birliyi" MMC-nin direktoru Anar Hüseynov deyib: "Respublikanın cəbhə rayonlarında kənd təsərrüfatı işlərinin yerinə yetirilməsi barədə danışarkən qeyd etməliyəm ki, bütün cəbhəyanı və cəbhə xəttinə yaxın rayonlada (Ağdam, Ağcabədi, Beyləqan, Bərdə, Cəbrayıl, Füzuli, Goranboy, Tərtər, Tovuz, Qazax və Ağstafa) payızlıq dənli bitkilərin səpini üçün əkin sahələrinin şumlanması aparılır. Ağdam, Ağcabədi, Beyləqan, Bərdə, Cəbrayıl, Füzuli, Goranboy, Tərtər, Tovuz və Ağstafa rayonlarında təkrar qarğıdalı əkinləri aparılmış sahələrdə yaşıl yem və dən üçün qarğıdalı yığımı prosesi davam edir. Ağdam, Ağcabədi, Beyləqan, Bərdə, Cəbrayıl, Füzuli, Goranboy, Tərtər rayonlarında kütləvi pambıq yığımına başlanılıb. Beyləqan, Bərdə, Cəbrayıl, Füzuli, Goranboy, Tərtər və Tovuz rayonlarında şəkər çuğundurunun toplanması yerinə yetirilir. Goranboy və Tovuz rayonlarında tütün məhsulunun yığımı prosesi davam edir".

# Azərbaycanda koronavirus infeksiyasından daha 102 nəfər sağalıb, 58 yoluxma faktı qeydə alınıb

Azərbaycan Respublikasında koronavirus infeksiyasından daha 102 nəfər sağalıb, 58 yoluxma faktı qeydə alınıb.

Nazirlər Kabineti yanında Operativ Qərargahdan AZƏRTAC-a verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 2 nəfər vəfat edib.

Hazırkı dövrədək ölkəmizdə 40 min 119 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib. Onlardan 37 min 827 nəfər müalicə olunaraq sağalıb, 590 nəfər vəfat edib. Aktiv xəstə sayı 1702 nəfərdir.

Ötən müddət ərzində 1 milyon 110 min 279 test aparılıb. Dünənki test sayı isə 5496-dır.



## Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyi tərəfindən "Onlayn platforma üzərindən taksi, sürücülük və çatdırılma xidmətlərinin göstərilməsi ilə bağlı tələbatın öyrənilməsi" üzrə daxili bazar araşdırmalarının aparılması xidmətinin satın alınması üçün

## *açıq tender elan edir*

Tender iştirakçılarına təklif edilir ki, **https://www.etender.gov.az/** - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən təşkilatlar LOT üzrə müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər.

**İştirak haqqı: 90 AZN**

İddiaçılar iştirak haqqını aşağıdakı hesaba ödəməlidirlər:

**Təşkilatın adı: Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyi**
**VÖEN: 1603326271**
**Bank rekvizitləri: "Kapital Bank" ASC-nin Mərkəzi filialı**
**H/h: AZ33AIIB38060019440419716102**
**VÖEN: 9900003611**
**Kod: 200026**
**Müxbir hesab: AZ37NABZ01350100000000001944**
**S.W.İ.F.T. AIIBAZ2X**

**Tenderdə iştirak haqqı heç bir halda geri qaytarılmır.**

Tenderdə iddiaçı kimi iştirak etmək istəyənlər aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *iddiaçının tam adını, hüquqi statusunu əks etdirən hüquqi sənədlərin (nizamnamə, dövlət qeydiyyatı haqqında şəhadətnamə və ya reyestrdən çıxarış və s.) notarial qaydada təsdiq edilmiş surətləri;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti barədə bank arayışı;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra azı 30 bank günü güvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (tender təklifinin qüvvədə olma müddətindən azı 30 bank günü çox olmalıdır);*
- *iddiaçıların son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında arayış.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər. Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri 21.10.2020-ci il saat 16:00-a qədər və tender təklifi ilə bank təminatı sənədlərini 29.10.2020-ci il saat 16:00-a qədər Portal vasitəsilə təqdim etməlidirlər. İddiaçıların təklifləri 30.10.2020-ci il saat 16:00-da açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

QEYD: Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.

İddiaçılar E-şərtlər toplusunu 30 sentyabr saat 16:00-dan sonra əldə edə bilərlər.

***Tender komissiyası***

## Azərbaycan Respublikasının Maliyyə Nazirliyi

## *tender elan edir*

1. Azərbaycan Respublikası Maliyyə Nazirliyinin və tabeliyindəki qurumların inzibati binalarının (Daşınmaz əmlakın icbari sığortası üzrə) sığortalanmasının satın alınması.

2. Maliyyə Nazirliyinin Aparatına server avadanlıqlarının və elektrotexniki avadanlıqların alınması və yeni alt şəbəkənin quraşdırılması:

LOT 1. Maliyyə Nazirliyinin məxfi şöbəsinin alt "Mühafizə olunan şəbəkəsinin" yaradılması və sazlanması.

LOT 2. Maliyyə Nazirliyinin mövcud server aparat kompleksi üçün server avadanlıqları və ehtiyat hissələrinin satın alınması.

LOT 3. Maliyyə Nazirliyinin aparatına kompüter, printer və surətçıxaranların satın alınması.

3. Maliyyə Nazirliyində istifadə olunan bir sıra proqram təminatı lisenziyalarının və mövcud sistemlərə virtualizasiya lisenziyalarının və əlavə virtualizasiya lisenziyalarının satın alınması.

Tender iştirakçılarına təklif edilir ki, **https://www.etender.gov.az -** dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən təşkilatlar iştirak haqqını ödədikdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər.

**Tenderdə iştirak haqqı portalda ASAN pay sistemi ilə ödənilməlidir.**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün Portalda tender üzrə tələb olunan ilkin və texniki sənədləri təqdim etməlidirlər.

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər. Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri, tender təklifi ilə bank təminat sənədlərini Portal vasitəsilə Portalda təyin edilmiş vaxtlarda təqdim etməlidirlər. Tender təklifləri elektron Portalda təyin edilən tarixdə açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

**QEYD:** ***Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.***

Ünvan: Bakı şəhəri Az 1022, S. Vurğun küçəsi, 135

***Tender komissiyası***

## Azərbaycan Respublikası Təhsil Nazirliyinin Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsi

## *açıq tender elan edir*

LOT-1 Sumqayıt şəhəri 9 nömrəli tam orta məktəbin köhnə tədris korpusunun və tikililərin əsaslı təmir işlərinin satın alınması

Tender iştirakçılarına təklif edilir ki, **www.etender.gov.az** dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyən təşkilatlar LOT üzrə 200 (iki yüz) manat məbləğində iştirak haqqını aşağıda göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər.

**Bankın adı: "Azərbaycan Beynəlxalq Bankı" ASC-nin Sənaye filialı**
**Kod: 805603**
**VÖEN: 9900001881**
**M/h: AZ03NABZ01350100000000002944**
**S.W.I.F.T. İBAZAZ 2X**
**H/h: AZ88IBAZ38030019441856517211**
**VÖEN: 1500016711**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *iddiaçıların müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilində tərcümə olunmalıdır).

İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər. Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri 19 oktyabr 2020-ci il saat 11:00-a qədər, tender təklifi ilə bank təminatı sənədlərini isə 27 oktyabr 2020-ci il saat 17:00-a qədər Portal vasitəsilə təqdim etməlidirlər.

İddiaçıların təklifləri 28 oktyabr 2020-ci il saat 11:00-da elektron Portal vasitəsilə açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

QEYD: Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən Aparatın inzibati binasında istifadədə olan odsöndürən balonların təkrar doldurulması işlərinin satın alınması ilə bağlı 28.09.2020-ci il tarixdə keçirilən elektron açıq tender "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununun 11.1-ci bəndinə əsasən iddiaçıların sayı 3 (üç)-dən az olduğuna görə baş tutmamış hesab olunmuş və davamından imtina edilmişdir.

***Tender komissiyası***

## Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dayanıqlı və Operativ Sosial Təminat Agentliyi

### 1 saylı Bakı DOST Mərkəzi tərəfindən DOST Agentliyinin və 1 saylı Bakı DOST Mərkəzinin əməkdaşlarına funksional və əlavə bacarıqlar üzrə təlimlərin keçirilməsi xidmətlərinin kotirovka sorğusu üsulu ilə satın alınmasını həyata keçirir

Kotirovka sorğusunda iştirak etmək üçün qiymət təklifi (nəqliyyat, sığorta, gömrük rüsumları və digər xərclər nəzərə alınmaqla), digər zəruri sənədlər 06 oktyabr 2020-ci il saat 15:00-dək Bakı şəhəri, Yasamal rayonu, İsmayıl Qutqaşınlı küçəsi, 86 ünvanda yerləşən ofisdə təqdim olunmalıdır. Zərflər 06 oktyabr 2020-ci il saat 17:00-da həmin ünvanda açılacaqdır. Telefon: 012 525-50-26

Maraqlananlar müvafiq məlumatları 1 saylı Bakı DOST mərkəzinin AZ1073, Bakı şəhəri, Yasamal rayonu, İsmayıl Qutqaşınlı küçəsi, 86 ünvanında yerləşən ofisindən yazılı müraciət etməklə əldə edə bilərlər.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

Azərbaycan Respublikası Təhsil Nazirliyinin Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsinin tender komissiyası bildirir ki, malgöndərənin (podratçının) müraciətinə əsasən "Atributların, mükafatlandırma nişanlarının hazırlanması, təltif və mükafatlandırma ilə bağlı xərclər" maddəsi üzrə malların satın alınması məqsədilə 25 avqust 2020-ci il tarixdə elan edilmiş elektron tender üçün ilkin tələb olunan sənədlərin PORTAL vasitəsilə təqdim edilməsinin tarixi 01.10.2020-ci il saat 15:00-dək, tender təklifi və tender təklifinin bank təminatının təqdim edilməsinin tarixi 09.10.2020-ci il 17:00-dək, təkliflərin açılış tarixi 12.10.2020-ci il 15:00-dək uzadılmışdır.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

"Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondu"nun və "İnvest in Azerbaijan" elektron səhifələrinin, həmçinin mobil tətbiqlərinin hazırlanması ilə bağlı görüləcək işlərin satın alınması məqsədilə keçirilmiş tender prosedurunda iştirak edən iddiaçıların təklifləri qiymətləndirilmişdir.

Tender prosedurunun nəticələri haqqında Tender komissiyasının qərarına əsasən "SAFAROFF " MMC qalib elan edilmişdir.

Qalib təşkilatla müvafiq satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

Bakı Metropoliteninin III yeni (Bənövşəyi) xəttinə aid "Xocasən" elektrik deposunun "Blok post" binasında, 1 və 2 saylı Nəzarət Buraxılış Məntəqələrində qapı və pəncərə sistemlərinin hazırlanıb quraşdırılması işlərinin satın alınmasına dair 29.09.2020-ci il tarixdə keçirilən açıq tenderdə iddiaçıların sayı 3 (üç)-dən az olduğuna görə tender baş tutmamış hesab olunmuş və davamından imtina edilmişdir.

***Tender komissiyası***

**«AZƏRBAYCAN» qəzetinin reklam xidməti**

## Avropada bir həftə ərzində COVID-19-dan ölümlərin sayı 9 faiz artıb

Dünyada COVID-19-a yoluxmuş insanların sayı bir həftə ərzində 2 milyondan çox artıb.

TASS agentliyinin xəbərinə görə, Avropada sentyabrın 21-dən 27-dək əvvəlki 7 günlə müqayisədə 9 faizlik ölüm artımı qeydə alınıb. Belə ki, bir həftə ərzində 4,5 min nəfərdən çox adam ölüb, ümumilikdə isə təxminən 235 min nəfər dünyasını dəyişib.

Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) qeyd edir ki, bir həftə ərzində dünyada xəstəlikdən 36 min ölüm halı qeydə alınıb.

Koronavirus ilə bağlı ən ağır epidemioloji vəziyyətin Şimali və Cənubi Amerikada qeyd edildiyi bildirilir. Orada sentyabrın 21-dən 27-dək 766 mindən çox insan xəstələnib.

ÜST-dən bildiriblər ki, ABŞ-da koronavirusa yoluxanların sayı yeddi gün ərzində 298 mindən çox, Braziliyada isə 194 mindən çox artıb.

# Beynəlxalq aləm

## ABŞ Çinə qarşı beynəlxalq alyans yaradır



ABŞ Dövlət Departamentinin başçısı Mayk Pompeo növbəti əsrin "Çin əsrinə çevrilməməsi" üçün hər şeyi etmək lazım olduğunu bildirib. Onun sözlərinə görə, Çin ortamüddətli və uzunmüddətli perspektivdə ABŞ üçün ən böyük təhlükəyə çevrilib.

Pompeo "Life, Liberty & Levin" siyasi tok-şousuna verdiyi müsahibədə bildirib ki, yaxın illərdə ABŞ və müttəfiqləri "Baş katib Si Cinpinin rəhbərlik etdiyi Çin Kommunist Partiyası ilə mübarizə aparmaq üçün beynəlxalq alyansda birləşəcəklər".

Dövlət katibi xatırladıb ki, son yarım əsr ərzində ABŞ Çinlə bağlı "uğursuz" siyasət yürüdüb. O vurğulayıb ki, gələcək koalisiyaya Afrika, Asiya və Cənubi Amerikanın, həmçinin Çinin enerji baxımından asılı olduğu Yaxın Şərqin bəzi ölkələri qoşula bilər. Pompeonun dediyinə görə, ittifaqın yaradılması prosesi illər çəkəcək.

## Ukrayna Prezidenti Aİ-nin mövqeyinin əhəmiyyətini vurğulayıb



Ukrayna Prezidenti Vladimir Zelenski Ukrayna-Aİ sammitinin uğurla keçəcəyinə ümidvar olduğunu bildirib. Bu barədə yerli KİV xəbər verir.

Ukrayna Prezidentinin Mətbuat xidmətinin məlumatına görə, bu barədə Zelenski Avropa Parlamentinin üzvləri ilə videokonfrans rejimində danışıqlar zamanı bildirib. Zelenski Kiyevin Avropa İttifaqı tərəfindən dəstəklənməsinin əhəmiyyətini vurğulayaraq deyib: "Bu gün mövcud olan çağırışları nəzərə alsaq, Avropaya, Avropa İttifaqına dəyişməz münasibət Ukrayna üçün əvvəlkindən daha aktualdır".


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 7644
Sifariş 2290
Qiyməti 40 qəpik